Xalqın qəzeti!

# Xalq qəzeti

№ 36 (30440) 17 fevral 2024-cü il, şənbə

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

xalqqazeti.az

## ABŞ Libertas və Femidanın adı ilə alver edir



Səhifə ⇨ 8

# Azərbaycan Prezidenti Münxenə sülh məramı ilə gedib

## “Leonardo” şirkətinin baş həmdirektoru ilə görüş



**Fevralın 16-da 60-cı Münxen Təhlükəsizlik Konfransında iştirak etmək üçün Almaniyanın Münxen şəhərində səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə qarşı tərəfin müraciətinə əsasən İtaliyanın “Leonardo” şirkətinin baş həmdirektoru Lorenzo Marianinin görüşü olub.**

Görüşə görə təşəkkürünü bildirən Lorenzo Mariani dövlətimizin başçısını prezident seçkilərində qələbə münasibətilə “Leonardo” şirkəti ailəsi adından səmimi-qəlbdən təbrik etdi. Vurğuladı ki, İtaliya ilə Azərbaycan arasında strateji tərəfdaşlıqdan irəli gələrək, şirkətin ölkəmiz ilə əməkdaşlığı uğurla inkişaf edir.

Dövlətimizin başçısı təbriklərə görə minnətdarlığını bildirdi.

Prezident İlham Əliyev Azərbaycan ilə “Leonardo” şirkəti arasında əməkdaşlıqdan məmnunluğunu bildirdi. Dövlətimizin başçısı qeyd etdi ki, prezident seçkilərində qələbə qazanması münasibətilə İtaliya Prezidenti tərəfindən göndərilmiş təbrik məktubunda İtaliya–Azərbaycan əlaqələrinin mükəmməl səviyyədə olduğu xarakterizə edilmişdir. Prezident İlham Əliyev də öz növbəsində Azərbaycan–İtaliya əlaqələrinin həqiqətən mükəmməl xarakter daşıdığını və strateji tərəfdaşlıq zəminində inkişaf etdiyini bildirdi.

Söhbət zamanı Azərbaycan ilə “Leonardo” şirkəti arasında müxtəlif sahələrdə, o cümlədən kibertəhlükəsizlik və kosmik sahələrdə, eyni zamanda, SOCAR ilə “Leonardo” şirkəti arasında əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparıldı, bu əməkdaşlıqdan məmnunluq ifadə olundu.

# Milli Məclis Əli Əsədovun Azərbaycanın Baş naziri təyin edilməsinə razılıq verib



**Fevralın 16-da Sahibə Qafarovanın sədrliyi ilə Milli Məclisin 2024-cü il yaz sessiyası üzrə növbəti plenar iclası keçirildi.**

Parlamentin Sədri əvvəlcə fevralın 7-də baş tutmuş növbədənkənar prezident seçkilərininn yekunu və Milli Məclisdə keçirimiş Prezidentin andiçmə mərasiminə münasibət bildirdi. O dedi ki, bu il fevralın 7-də ölkəmizin siyasi həyatında tarixi əhəmiyyətli bir hadisə baş verdi. Demokratik və şəffaf şəraitdə keçirilən azad və ədalətli seçkilərdə möhtərəm cənab İlham Əliyevin parlaq qələbəsi onun Azərbaycan xalqı və dövləti qarşısında müstəsna xidmətlərinə verilən yüksək qiymətin ifadəsidir.

Ölkəmizin bütün ərazisində keçirilən növbədənkənar Prezident seçkiləri milli inkişaf tariximizə Zəfər seçkiləri kimi daxil oldu. Xalqımız Azərbaycanın qüdrətli dünya dövlətinə çevrilməsində həlledici rolu olan liderinə sonsuz inam və etimadını bir daha ifadə etdi, ulu öndər Heydər Əliyev tərəfindən təməli qoyulmuş siyasi xəttin davam etməsini istədiyini bildirdi.

(ardı 4-cü səhifədə)

# Münxen səfəri və Prezidentin diplomatik zəfəri

## *Dövlət başçısının görüşləri ölkəmizin artan nüfuzunun növbəti təsdiqidir*

**Birmənalı şəkildə deyə bilərik ki, Azərbaycan Prezidenti İlham Əliyevin Münxen Təhlükəsizlik Konfransında iştirakı və forum çərçivəsində keçirdiyi çoxsaylı görüşlər ölkəmizin beynəlxalq aləmdə artan yeri və rolunun diqqətçəkən ifadəsidir. Bu görüşlər dövlətimizin başçısının şəxsi nüfuzunun da parlaq göstəricisidir. Qürurvericidir ki, Azərbaycan liderinin beynəlxalq aləmdəki yüksək nüfuzu Azərbaycanımızın da çəkisini yüksəldir.**

Ötən illərin təcrübəsinə nəzər salsaq, Münxen Təhlükəsizlik Konfransının Azərbaycan üçün, kifayət qədər uğurlu platforma olduğunu söyləyə bilərik. Bu toplantı, sanki, bir indiqatordur. Məsələ ondadır ki, biz son aylar dünyadakı anti-Azərbaycan qüvvələrin fəallaşdıqlarını görürük. Onların ermənipərəstliyi, belə demək mümkünsə, dramatik şəkil alıb. Mövcud fonda bəzən elə təəssürat yaranır ki, sanki, ölkəmizi dünyadan təcrid etmək niyyətinə köklənmiş dairələr təşəbbüsü ələ alıblar.

Ancaq Münxen Təhlükəsizlik Konfransı əsl reallığı əks etdirir və qürurlu mənzərə ilə təzahür edir. Deməli, həqiqət başqa şeydir, onun imitasiyası tamam bir başqa. Kimlərsə imitasiyanı yaxşı bacarır, ölkəmiz isə inamlı şəkildə real hədəflərə doğru irəliləyir. Bu irəliləyiş trayektoriyasını məharətlə cızan isə beynəlxalq aləmdə rolu və nüfuzu günbəgün yüksələn Prezident İlham Əliyevdir.

(ardı 4-cü səhifədə)

# Erməni siyasi düşüncəsində azğınlaşma etüdləri

## *Sərsəmlik, illüziya, xəstəlik yoxsa Azərbaycana qarşı yeni müharibəyə hazırlıq?*



**Azərbaycan-Ermənistan sərhədində yaşanmış hərbi toqquşma fonunda Prezident İlham Əliyevin andiçmə mərasimində söylədiyi fikirlər Ermənistanda geniş müzakirə olunmaqdadır. Əlbəttə ki, mövcud istiqamətdəki diskussiyalar manipulyativ xarakter daşımaqla, reallıqların təhrifinə, ölkəmizlə bağlı mənfi rəyin formalaşdırılmasına yönəlib. Bununla əlaqədar müxtəlif məqamlardan söz açmaq mümkündür. Bu qeydlərimizdə onların yalnız bəzilərinin üzərində dayanacağıq.**

Ermənistanın hakimiyyətə yaxın ekspert və politoloq cameəsinin təmsilçiləri, təxminən, Avropa İttifaqının Xarici siyasət və təhlükəsizlik məsələləri üzrə ali nümayəndəsi Jozep Borrell kimi danışırlar. Xatırladaq ki, cənab Borrell bir müddət əvvəl bildirmişdi ki, sərhəddə ilk atəş açan erməni tərəfi olub, ancaq Azərbaycan hərbçilərinin cavabı adekvat deyildi.

Erməni siyasi müşahidəçilər Borrelin söylədikləri fonunda Prezident İlham Əliyevin andiçmə mərasimində səsləndirdiyi fikirlərə söykənir və belə bir absurd rəyə gəlirlər: Azərbaycan Ermənistana atəş açılması ilə bağlı insidenti araşdırmaq üçün bir həftə vaxt verməli idi (?). Vaxt verilməyibsə, deməli, Bakı işğalçılıq niyyətinə köklənib. Həqiqətən də, gülünc yanaşmadır.

Əslində, baş nazir Nikol Paşinyan da, demək olar, eyni fikirdədir. O, ölkə hökumətinin iclasında bildirib ki, guya, Azərbaycan sərhəddəki xırda toqquşmalardan Ermənistana qarşı irimiqyaslı hərbi əməliyyatlara başlamaq üçün bəhanə kimi yararlanmağa çalışır. Belədə iki sual yaranır: birincisi, ilk tətiyi çəkən kimdir? Nikolun məntiqindən belə çıxır ki, erməni tərəfi nə vaxt istəsə, atəş açacaq, Azərbaycan cavab verməməlidir. Yaxud, Azərbaycan cavab versə, bu, təcavüz kimi qiymətləndiriləcək. İkincisi, ordu birləşmələrimizin Ermənistan tərəfə keçmək istəkləri olsaydı, buna kim mane olacaqdı – erməni hərbçiləri, yoxsa şərti sərhəddə patrul çəkən Avropa İttifaqının mülki müşahidə missiyasının üzvləri? Yəni, ölkəmizin işğalçılıq niyyəti yoxdur, əgər olsaydı, qarşımızda dayanan tapılmazdı...

Bəli, Azərbaycan Ermənistana qarşı ərazi qəsbini reallaşdırmaq məqsədindən uzaqdır. Rəsmi İrəvan isə obrazlı desək, buynuzunu çobanın çomağına sürtən keçidir. Sonra isə “günah keçisi” axtarışına çıxır. Nə düşünəsən? Bəlkə baş nazir Nikol Paşinyan və komandası ölkəni güdaza vermək istəyir? J.Borrelin dediyi kimi, Bakının cavabının qeyri-proporsional alınmasınımı arzulayır? Görünür, istəyi budur ki, Azərbaycanı işğalçı kimi göstərmək xətti daha da dolğunlaşsın. Ancaq durumun fəsadlarını düşünməyəcək qədər korazehindir...

Məlumdur ki, hərbçilərimiz təhlükənin gəldiyi hər bir hədəfi, onun harada yerləşməsindən asılı olmayaraq, məhv edirlər. İrəvanda bunu çox yaxşı bilirlər. Ona görə də qəsdən təxribat törədirlər ki, Bakı əks addım atsın. Fevralın 13-də erməni snayper hərbçimizi yaraladı və cavabını aldı. Belə çıxır ki, Ermənistan növbəti dəfə dərinlikdəki nöqtələrdən də Azərbaycan əsgərlərinin mövqelərini atəşə tuta, ölkəmizin hərbçiləri sırf həmin nöqtələri zərərsizləşdirdikdə, məsələ ərazi iddiası kimi qələmə verilə bilər. Təxribata çəkmək də elə budur.

(ardı 8-ci səhifədə)

## Tərəqqinin “bolluq nəbzi” kənddə döyünür



Səhifə ⇨ 9

## Afrikada soyğunçuluq əsri bitir



Səhifə ⇨ 15

# Azərbaycan Maltanın ekoloji durumuna həssaslıqla yanaşır



**Fevralın 16-da Münxendə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə qarşı tərəfin müraciətinə əsasən ATƏT-in fəaliyyətdə olan sədri, Malta Respublikasının xarici, Avropa işləri və ticarət naziri İan Borqun görüşü olub.**

İan Borq dövlətimizin başçısını prezident seçkilərində qələbə münasibətilə təbrik etdi.

Təbriklərə görə təşəkkürünü bildirən dövlətimizin başçısı öz növbəsində Maltanın ATƏT-in fəaliyyətdə olan sədrliyi münasibətilə təbriklərini çatdırdı.

Azərbaycan Prezidenti ATƏT çərçivəsində keçmişin qalıqları olan bir sıra mexanizmlərin - bu xüsusda ATƏT-in Minsk qrupu, Yüksək Səviyyəli Planlaşdırma Komitəsi və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi kimi tamamilə fəaliyyətsiz olan bu strukturların artıq rəsmi qaydada ləğv edilməsinin vacib olduğunu bildirərək, ATƏT çərçivəsində büdcənin də daha məqsədyönlü və vacib layihələrə istiqamətləndirilməsinin önəmini qeyd etdi.

Dövlətimizin başçısı bildirdi ki, Qarabağ münaqişəsi artıq həll olunub, Azərbaycan öz suverenliyini və ərazi bütövlüyünü təmin edib.

Prezident İlham Əliyev Ermənistan ilə Azərbaycan arasında normallaşma prosesinin ikitərəfli xarakter daşıdığını diqqətə çatdırdı.

Görüşdə Maltanın xarici, Avropa işləri və ticarət naziri COP29-un Azərbaycanda keçirilməsi münasibətilə təbriklərini çatdırdı, Maltanın da kiçik ada ölkələrinin iqlim dəyişikliyi nəticəsində üzləşdiyi problemlərə həssaslıqla yanaşdığını və bu xüsusda Azərbaycan ilə birgə əməkdaşlığa hazır olduğunu bildirdi.

Dövlətimizin başçısı qeyd etdi ki, Azərbaycan COP çərçivəsində inklüziv konsepsiyanın tərəfdarıdır və kiçik ada dövlətlərinin iqlim dəyişikliyi nəticəsində üzləşdiyi problemlərə çox həssaslıqla yanaşır.

Görüşdə Azərbaycanın sədrliyi dövründə bu məsələyə xüsusi diqqət yetiriləcəyi və bu xüsusda da Malta ilə, həmçinin ATƏT platformasından istifadə edilərək birgə əməkdaşlığa hazırlıq ifadə olundu.

# ABŞ COP29 və Orta Dəhlizlə bağlı əməkdaşlığı dəstəkləyir



**Fevralın 16-da Münxendə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə qarşı tərəfin müraciətinə əsasən ABŞ Prezidentinin qlobal infrastruktur və enerji təhlükəsizliyi üzrə xüsusi koordinatoru Amos Hoxşteynin görüşü olub.**

Amos Hoxşteyn COP29-un Azərbaycanda keçirilməsi münasibətilə təbriklərini çatdırdı.

Dövlətimizin başçısı təbriklərə görə minnətdarlığını bildirdi.

ABŞ Prezidentinin qlobal infrastruktur və enerji təhlükəsizliyi üzrə xüsusi koordinatoru hələ 1990-cı illərdən Azərbaycan ilə ABŞ arasında əməkdaşlığı və Xəzər dənizinin karbohidrogen resurslarının dünya bazarına çıxarılmasını ehtiva edən layihələrdə Prezident İlham Əliyev ilə birgə tərəfdaşlığı məmnunluqla xatırladı, Azərbaycanın regionda strateji əhəmiyyətə malik ölkə olduğunu diqqətə çatdırdı.

Görüşdə Orta Dəhlizin inkişaf etdirilməsi və Azərbaycanın bu prosesdə rolu müzakirə olundu, COP29 çərçivəsində əməkdaşlıq məsələlərinə toxunuldu.

Söhbət zamanı Azərbaycan–ABŞ ikitərəfli əlaqələrinə dair fikir mübadiləsi aparıldı.

# İsrail dövləti ilə əlaqələrimiz genişlənir



**Fevralın 16-da Münxendə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə qarşı tərəfin müraciətinə əsasən İsrail Dövlətinin Prezidenti İsxak Hersoqun görüşü olub.**

İsrail Prezidenti İsxak Hersoq dövlətimizin başçısına prezident seçkilərində qələbə qazanması münasibətilə təbriklərini çatdırdı.

Prezident İlham Əliyev təbrikə görə təşəkkürünü bildirdi və bununla bağlı İsxak Hersoqdan rəsmi məktub formasında da təbrik aldığını məmnunluqla qeyd etdi.

Söhbət zamanı Azərbaycan ilə İsrail arasında müxtəlif sahələrdə əməkdaşlığa dair fikir mübadiləsi aparıldı, hökumətlərarası komissiyanın fəaliyyəti qeyd olundu, iqtisadi-ticari, mədəni, humanitar əlaqələrə toxunuldu. Azərbaycan Respublikasının İsrail Dövlətində səfirliyinin fəaliyyətə başlamasının ikitərəfli əlaqələrimizin inkişafına təkan verdiyi bildirildi.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparıldı.

# Avropa Yenidənqurma və İnkişaf Bankı ekoloji layihələrə yatırıma hazırdır



**Fevralın 16-da Münxendə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə qarşı tərəfin müraciətinə əsasən Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) prezidenti Odil Reno-Bassonun görüşü olub.**

Odil Reno-Basso dövlətimizin başçısına prezident seçkilərində qələbəsi münasibətilə təbriklərini çatdırdı.

Prezident İlham Əliyev təbriklərə görə minnətdarlığını bildirdi.

Avropa Yenidənqurma və İnkişaf Bankının prezidenti Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin həm Xəzər dənizində, həm də Qara dənizdə gəmi donanmasının artırılması layihələrində iştirakından məmnunluğunu ifadə etdi. Həmçinin AYİB-in Orta Dəhliz layihəsinə böyük əhəmiyyət göstərdiyini və bu çərçivədə Azərbaycanla əməkdaşlığı yüksək qiymətləndirdiyini qeyd edərək, bu kimi layihələrdə iştirak etməyə hazır olduğunu bildirdi.

Odil Reno-Basso vurğuladı ki, AYİB, eyni zamanda, su resurslarının idarə edilməsi sahəsində də Azərbaycanın tərəfdaşı rolunda çıxış edir və bu istiqamətdə hökumətin həyata keçirdiyi layihələrə dəstək verməyə hazırdır. O, həmçinin COP29 çərçivəsində də AYİB–lə Azərbaycan arasında əməkdaşlıq məsələlərinin, bu xüsusda ölkəmizin bərpaolunan enerji layihələri və yaşıl keçid istiqamətində siyasətinin də AYİB tərəfindən təqdir edildiyini və dəstəkləndiyini diqqətə çatdırdı.

Dövlətimizin başçısı Azərbaycanla AYİB arasında əməkdaşlıqdan məmnunluğunu bildirdi. Prezident İlham Əliyev Xəzər Dəniz Gəmiçiliyi ilə, həmçinin Orta Dəhliz və su resurslarının idarə edilməsi sahələrində əməkdaşlığın mühüm əhəmiyyətini qeyd edərək, Azərbaycanda yaşıl keçid və bərpaolunan enerji resurslarının inkişaf etdirilməsi layihələrinə böyük əhəmiyyət verildiyini, artıq ölkəmizin yaxın dövrlərdə bərpaolunan enerji resurslarının ixracatçısı qismində çıxış edəcəyini vurğuladı.

Görüşdə iqlim dəyişikliyinin artıq Cənubi Qafqaz regionuna da öz təsirlərini göstərdiyi, bu xüsusda Xəzər dənizində suyun səviyyəsinin aşağı düşməsi, Azərbaycanda, həmçinin çaylarda suyun həcminin azalması və digər fəsadların hiss olunduğu qeyd edildi. Söhbət zamanı Xəzər dənizinin suyunun şirinləşdirilməsi layihələrində də AYİB ilə Azərbaycan arasında əməkdaşlıq məsələlərinə toxunuldu.

# İlham Əliyevin Bundestaqın Almaniya-Cənubi Qafqaz parlament qrupunun sədri ilə görüşü



**Fevralın 16-da Münxendə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə qarşı tərəfin müraciətinə əsasən Almaniya Bundestaqının Xristian-Demokrat/Xristian-Sosialist İttifaqı fraksiyasının xarici, təhlükəsizlik və müdafiə siyasəti üzrə sədr müavini, Almaniya–Cənubi Qafqaz parlament qrupunun sədri Yohan David Vadefulun görüşü olub.**

# COP29 yeni iqtisadi layihələrə meydan açacaq



**Fevralın 16-da Münxendə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə qarşı tərəfin müraciətinə əsasən Almaniyanın Şərqi Biznes Assosiasiyasının icraçı direktoru Mixael Harmsın görüşü olub.**

Görüşdə alman iş adamlarının Azərbaycanla iqtisadi əlaqələrini genişləndirməkdə maraqlı olduqları bildirildi. Xüsusilə nəqliyyat, logistika, sənaye, bərpaolunan enerji və digər sahələrdə marağı olan şirkətlərin nümayəndələrinin fevral ayında Azərbaycana səfərinin həyata keçirilməsi barədə Prezident İlham Əliyevə məlumat verildi. Qeyd edildi ki, bu səfər Azərbaycan Prezidentinin ötən il Almaniyaya səfəri çərçivəsində işgüzar dairələrlə keçirdiyi görüşün nəticəsidir və bu, indiyədək həm təmsilçilik, həm də say baxımından iş adamlarının ən böyük nümayəndə heyəti olacaq.

Görüşdə ölkəmizdə COP29-un keçirilməsinin öz növbəsində daha geniş miqyasda iqtisadi layihələrin reallaşdırılması potensialının gücləndirilməsi işinə xidmət etdiyi qeyd olundu.

**AZƏRTAC**

# Prezident İlham Əliyevin Hakan Fidanla Münxendə görüşü



Fevralın 16-da Münxendə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə qarşı tərəfin müraciətinə əsasən Türkiyə Respublikasının xarici işlər naziri Hakan Fidanın görüşü olub.



Hakan Fidan dövlətimizin başçısını prezident seçkilərində qələbə münasibətilə təbrik etdi.

Prezident İlham Əliyev təbrikə görə minnətdarlığını bildirdi.

Söhbət zamanı Türkiyə ilə Azərbaycan arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə inkişaf etdiyi bir daha vurğulandı, əməkdaşlığın bundan sonra da genişlənəcəyinə əminlik bildirildi.

Görüşdə Azərbaycan-Ermənistan münasibətləri, sülh sazişi ilə bağlı danışıqlar və regional təhlükəsizlik məsələləri müzakirə olundu.

# Ə.H.Əsədovun Azərbaycan Respublikasının Baş naziri təyin edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Əli Hidayət oğlu Əsədov Azərbaycan Respublikasının Baş naziri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 16 fevral 2024-cü il**

# A.M.Cəfərova Azərbaycan Respublikasının ədliyyə naziri vəzifəsinin müvəqqəti icrasının həvalə edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının ədliyyə naziri təyin olunanadək həmin vəzifənin müvəqqəti icrası Azərbaycan Respublikası ədliyyə nazirinin müavini Azər Məmməd oğlu Cəfərova həvalə edilsin.

**2.** Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 16 fevral 2024-cü il**

# S.A.Salahlıya Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədri vəzifəsinin müvəqqəti icrasının həvalə edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri təyin olunanadək həmin vəzifənin müvəqqəti icrası Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Adil oğlu Salahlıya həvalə edilsin.

**2.** Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 16 fevral 2024-cü il**

# Litva Respublikasının Prezidenti Zati-aliləri cənab Gitanas Nausedaya

**Hörmətli cənab Prezident,**

Litva Respublikasının milli bayramı münasibətilə Sizi və xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Hazırda ölkələrimiz arasında iqtisadiyyat, ticarət, nəqliyyat, bərpa olunan enerji və digər sahələrdə səmərəli əməkdaşlıq üçün yaxşı imkanlar və perspektivlər vardır. Biz mövcud imkanlardan yararlanaraq birgə səylərimizlə əlaqələrimizin inkişafına, əməkdaşlığımızın daha da dərinləşməsinə nail ola bilərik.

Əminəm ki, Azərbaycan-Litva münasibətləri həm ikitərəfli əsasda, həm də Avropa İttifaqı çərçivəsində bundan sonra da ardıcıl şəkildə inkişaf edəcəkdir.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, Litva xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

**Hörmətlə,**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 13 fevral 2024-cü il**

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin yeni tərkibi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin üzvləri aşağıdakı şəxslər təyin edilsinlər:

1.1. Azərbaycan Respublikası Baş nazirinin birinci müavini – Yaqub Abdulla oğlu Eyyubov;
1.2. Azərbaycan Respublikası Baş nazirinin müavini – Əli Cavad oğlu Əhmədov;
1.3. Azərbaycan Respublikası Baş nazirinin müavini – Şahin Abdulla oğlu Mustafayev;
1.4. Azərbaycan Respublikasının daxili işlər naziri – Vilayət Süleyman oğlu Eyvazov;
1.5. Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri – Muxtar Bahadur oğlu Babayev;
1.6. Azərbaycan Respublikasının elm və təhsil naziri – Emin Eldar oğlu Əmrullayev;
1.7. Azərbaycan Respublikasının energetika naziri – Pərviz Oqtay oğlu Şahbazov;
1.8. Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri – Sahil Rafiq oğlu Babayev;
1.9. Azərbaycan Respublikasının fövqəladə hallar naziri – Kəmaləddin Fəttah oğlu Heydərov;
1.10. Azərbaycan Respublikasının gənclər və idman naziri – Fərid Fazil oğlu Qayıbov;
1.11. Azərbaycan Respublikasının xarici işlər naziri – Ceyhun Əziz oğlu Bayramov;
1.12. Azərbaycan Respublikasının iqtisadiyyat naziri – Mikayıl Çingiz oğlu Cabbarov;
1.13. Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri – Məcnun Qadir oğlu Məmmədov;
1.14. Azərbaycan Respublikasının maliyyə naziri – Samir Rauf oğlu Şərifov;
1.15. Azərbaycan Respublikasının mədəniyyət naziri – Adil Qabil oğlu Kərimli;
1.16. Azərbaycan Respublikasının müdafiə naziri – Zakir Əsgər oğlu Həsənov;
1.17. Azərbaycan Respublikasının müdafiə sənayesi naziri – Vüqar Valeh oğlu Mustafayev;
1.18. Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat naziri – Rəşad Nəbi oğlu Nəbiyev;
1.19. Azərbaycan Respublikasının səhiyyə naziri – Teymur Yusif oğlu Musayev;
1.20. Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri – Bahar Əvəz qızı Muradova;
1.21. Azərbaycan Respublikası Diaspora İş üzrə Dövlət Komitəsinin sədri – Fuad Rauf oğlu Muradov;
1.22. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri – Şahin Soltan oğlu Bağırov;
1.23. Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin rəisi – Elçin İsağa oğlu Quliyev;
1.24. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin sədri – Tahir Yaqub oğlu Budaqov;
1.25. Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri – Anar Adil oğlu Quliyev;
1.26. Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri – Rövşən Şükür oğlu Rzayev;
1.27. Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin rəisi – Vüsal Əfqan oğlu Hüseynov;
1.28. Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi – Əli Nağı oğlu Nağıyev;
1.29. Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin rəisi – Orxan Sedyar oğlu Sultanov;
1.30. Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi – Mürsəl Qorxmaz oğlu İbrahimov;
1.31. Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri – Zaur Rauf oğlu Mikayılov;
1.32. Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin sədri – Fuad Hümbət oğlu Nağıyev;
1.33. Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin sədri – Qoşqar İlahi oğlu Təhməzli;
1.34. Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin rəisi – Əsgər Adil oğlu Rəsulov.

**2.** Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 16 fevral 2024-cü il**

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Zati-aliləri,**

Yenidən Azərbaycan Prezidenti seçilməyiniz münasibətilə Sizə təbriklərimi çatdırmaqdan böyük məmnunluq hissi duyuram. Sizin liderliyinizlə Azərbaycan 20 il ərzində sabitliyi, iqtisadi inkişafı və dini azadlığı təmin etməyə və qorumağa nail olub. Əminəm ki, Sizin yenidən Prezident seçilməyiniz ölkəniz üçün bundan sonra da parlaq və firavan gələcəyi təmin edəcək.

İsrail Dövləti Azərbaycan Respublikası ilə münasibətləri yüksək dəyərləndirir. Bizim ikitərəfli əlaqələrimiz çox vacib iqtisadi, təhlükəsizlik və siyasi faydalar təmin edir. Biz bu möhkəm və davamlı tərəfdaşlığa sadiqliyimizi bildiririk.

Mən Azərbaycan və İsrail arasında əlaqələrin daha da inkişafı və möhkəmlənməsi üçün Sizinlə birgə işləmək imkanına görə şəxsən minnətdarlığımı bildirirəm. Keçən il Sizin gözəl ölkənizə səfərimiz zamanı Mixala və mənə göstərdiyiniz səmimi qonaqpərvərliyi yüksək qiymətləndirirəm.

Gələcək illərdə qarşılıqlı maraqlarımıza dəstək olaraq ölkələrimiz arasındakı münasibətləri dərinləşdirməyə davam etmək istiqamətində Sizinlə işləməyi səbirsizliklə gözləyirəm.

**Hörmətlə,**

***İsxak HERSOQ,***
***İsrail Dövlətinin Prezidenti***

*

**Zati-aliləri və əziz Qardaşım,**

Dost ölkənizdə bu yaxınlarda keçirilmiş seçkilərdə inamlı qələbə qazanmağınız və yeni müddətə Prezident seçilməyiniz münasibətilə Zati-alinizə ən səmimi təbriklərimi çatdırmaqdan məmnunluq duyuram.

Fürsətdən istifadə edərək, dost Azərbaycan xalqının rifahı naminə tərəqqi və nailiyyət dolu inkişaf kursunu davam etdirməklə yüksək vəzifənizdə uğurlar arzulayıram.

Sizi Əlcəzairdə keçiriləcək 7-ci Qaz İxrac edən Ölkələrin Forumunun Sammitində görməyi səbirsizliklə gözləyirəm.

Zati-aliləri və hörmətli Qardaşım, ən yüksək və səmimi ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

**Hörmətlə,**

***Abdelmacid TEBBUN,***
***Əlcəzair Xalq Demokratik Respublikasının Prezidenti***

*

**Zati-aliləri,**

Azərbaycan Respublikası Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizə Yaponiya hökuməti və Yaponiya xalqı adından səmimi təbriklərimi çatdırıram.

Azərbaycan beynəlxalq enerji təhlükəsizliyi üçün önəmli rola malik ölkə olmaqla yanaşı, regionun sabitliyinin və inkişaf açarının sahibidir. 2022-ci ildə ölkələrimiz arasında diplomatik əlaqələrin qurulmasının 30-cu ildönümü qeyd edilmişdir. Diplomatik münasibətlər qurulandan sonra hökumətlərarası dialoqlar başda olmaqla, yüksək səviyyəli səfərlər, parlamentlərarası, həmçinin regionlarda yerli özünüidarəetmə orqanları arasındakı münasibətlər, iqtisadi və ekoloji sahədə əməkdaşlıq və digər istiqamətlərdə əlaqələr fəallaşmaqdadır.

Yaponiya və Azərbaycan arasındakı önəmli münasibətlərin bundan sonra daha da inkişaf etdiriləməsi üçün Zati-alinizlə əməkdaşlıq etmək niyyətindəyəm.

Azərbaycana, eləcə də Azərbaycan xalqına ürəkdən firavanlıq arzu edirəm.

**Hörmətlə,**

***Fumio KİŞİDA,***
***Yaponiyanın Baş naziri***

*

**Zati-aliləri.**

Sizi Azərbaycan Respublikasının Prezidenti seçkilərində qələbəniz münasibətilə Banqladeş xalqı adından və şəxsən öz adımdan təbrik edirəm. Qələbəniz Azərbaycan xalqının Sizin müdrik liderliyinizə olan yüksək inamını və etimadını nümayiş etdirir.

Azərbaycan və Banqladeş arasında ortaq dəyərlərə, qarşılıqlı anlaşmaya və dostluğa əsaslanan çox yaxşı ikitərəfli münasibətlər mövcuddur. Mən ikitərəfli münasibətlərimizi xalqlarımızın qarşılıqlı maraqları naminə çoxşaxəli tərəfdaşlığa çevirmək istiqamətində Sizinlə birgə işləməkdə davam etməyi səbirsizliklə gözləyirəm.

Bu fürsətdən istifadə edərək Zati-alinizə möhkəm cansağlığı, uzun ömür və xoşbəxtlik, dost Azərbaycan xalqına isə davamlı sülh, inkişaf və rifah arzulayıram.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

**Hörmətlə,**

***Məhəmməd ŞAHABUDDİN,***
***Banqladeş Xalq Respublikasının Prezidenti***

*

**Cənab Prezident.**

Yenidən dövlət başçısı seçilməyiniz münasibətilə Sizə səmimi təbriklərimi çatdırmaqdan şərəf və böyük məmnunluq duyuram.

Sizə yenidən etimad göstərilməsi həmvətənlərinizin ətrafınızda birləşməsinin bariz nümunəsidir. Seçkilərdə qazandığınız qələbə Sizə xalqınızın rifahı və ölkənizin inkişafı ilə bağlı faydalı hesab etdiyiniz islahatları həyata keçirmək üçün lazım olan bütün legitimliyi verir. Sizin uzaqgörən rəhbərliyinizlə Azərbaycan ən mühüm məsələlərdə, o cümlədən ölkə ərazisinin bütövlüyü və iqtisadiyyatının şaxələndirilməsi istiqamətində nəhəng addımlar atmışdır.

Cənab Prezident, əmin olun ki, Siz həmişə Cibuti xalqı və hökuməti tərəfindən ölkələrimiz arasında mövcud olan əlaqələrin möhkəmlənməsinə fayda verən hər cür dəstəyi görəcəksiniz.

Zati-aliləri cənab Prezident, Sizə bir daha müvəffəqiyyətlər arzulayır, qardaşlıq salamlarımı qəbul etməyinizi xahiş edirəm.

**Hörmətlə,**

***İsmail Ömər QELLE,***
***Cibuti Respublikasının Prezidenti***

*

**Zati-aliləri.**

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan Respublikası vətəndaşlarının müasir tarixdə ilk dəfə olaraq öz vətənlərinin bütün ərazisində seçki hüququndan istifadə edə bilmələri əlamətdar hadisədir və bu tarixi hadisə ölkənizin tam suverenliyini təsdiq edir.

Fürsətdən istifadə edərək ölkələrimizin nəinki qoruyub saxladığı, həmçinin sistemli şəkildə dərinləşdirdiyi möhkəm dostluq münasibətlərini vurğulamaq istəyirəm. Slovakiya Azərbaycanla ticari-iqtisadi əlaqələrin inkişafından tutmuş beynəlxalq səviyyədə qarşılıqlı dəstəyə qədər bir sıra sahələrdə əməkdaşlığı yüksək qiymətləndirir.

İnanıram ki, ikitərəfli əməkdaşlığımız qarşılıqlı anlaşma və ümumi maraqlar naminə bundan sonra da inkişaf edəcək və möhkəmlənəcəkdir.

Zati-aliləri, Sizə möhkəm cansağlığı, fəaliyyətinizdə uğurlar arzulayıram.

**Hörmətlə,**

***Riçard RAŞİ,***
***Slovakiya Respublikasının investisiyalar, regional inkişaf və informasiyalaşdırma naziri***

*

**Zati-aliləri.**

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının (BMTİP) adından ən səmimi təbriklərimi çatdırmaq istərdim.

30 ildən artıqdır ki, BMTİP və Azərbaycan Respublikası geniş spektrli inkişaf sahələrində əsaslı əməkdaşlıq edir. BMTİP inklüziv iqtisadi inkişaf, idarəetmə və rəqəmsallaşma, iqlim fəaliyyəti və fəlakətlərin idarə edilməsi və humanitar minalarla mübarizə də daxil olmaqla əsas milli prioritetlərin dəstəklənməsində etibarlı tərəfdaş olmaq imtiyazına layiq görülüb. BMTİP Dayanıqlı İnkişaf Məqsədlərinə uyğun olaraq qarşılıqlı surətdə müəyyən edilmiş bu və digər prioritetlər üzrə Azərbaycan Respublikası Hökuməti ilə strateji əməkdaşlığın dərinləşdirilməsinə sadiqdir.

BMT-nin İnkişaf Proqramı ilə Azərbaycan Respublikası arasında strateji tərəfdaşlığı müzakirə etmək üçün Sizinlə görüşməyi səbirsizliklə gözləyirəm.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

**Hörmətlə,**

***Açim STEYNER,***
***BMT-nin İnkişaf Proqramının Administratoru***

# Milli Məclis Əli Əsədovun Azərbaycanın Baş naziri təyin edilməsinə razılıq verib

(əvvəli 1-ci səhifədə)



Milli Məclis adından möhtərəm cənab Prezidenti yenidən dövlət başçısı seçilməsi münasibəti ilə təbrik etdiyini deyən S.Qafarova Prezidentin andiçmə mərasiminin Milli Məclisdə keçirilməsinin ənənə halını aldığını bildirdi və bunu qürurverici hesab etdi. Qeyd etdi ki, fevralın 14-də andiçmə mərasimində söylədiyi nitqdə möhtərəm Prezident ötən 20 ildən artıq dövrdə ölkəmizin keçdiyi inkişaf yolunu geniş təhlil etdi, bu dövrü uğur və qələbələrlə dolu olan illər kimi dəyərləndirdi. Eyni zamanda, qarşıya çıxan çətinlikləri və problemləri, xüsusən Qarabağın azad edilməsi ilə dövlətimizin ərazi bütövlüyünün və suverenliyinin bərpasının həll edildiyini bildirdi.

"Proqram xarakteri daşıyan dərin məzmunlu nitqində dövlət başçısı yeni tarixi dövrdə qarşıda dayanan vəzifələrə nəzər saldı, dövlətimizin milli təhlükəsizliyinin və müdafiə qabiliyyətinin daha da möhkəmləndirilməsi, işğaldan azad edilmiş torpaqların bərpası, sosial-iqtisadi inkişaf, texnoloji üstünlüyün təmin edilməsi, milli-mənəvi dəyərlərə sadiq olan gənc nəslin yetişdirilməsi, azərbaycançılıq məfkurəsinin gücləndirilməsi və digər sahələrdə görüləcək işlərdən danışdı, xarici siyasət istiqamətində yeni üfüqlərin açılması zərurətini qeyd etdiyini" -deyən S.Qafarova əminliklə bildirdi ki, möhtərəm cənab Prezidentin siyasi məharəti və səriştəsi, yaradıcı təfəkkürü və yenilməz əzmi dövlətimizin inkişafı naminə qarşıya qoyulan bütün hədəfləri əldə etməyə imkan yaradacaqdır. Milli Məclis isə dövlət başçısının uzaqgörən daxili və xarici siyasətini qanunvericilik səviyyəsində dəstəkləmək üçün öhdəsinə düşən vəzifələri layiqincə yerinə yetirməyə çalışacaqdır.

Parlamentin Sədri gündəliyə 8 məsələnin daxil edildiyini və 1-ci məsələnin "Azərbaycan Respublikasının Baş naziri vəzifəsinə namizədlik haqqında" qərar layihəsinin olduğunu bildirdi. O dedi ki, Azərbaycan Respublikası Konstitusiyasının 118-ci maddəsinin II hissəsinə uyğun olaraq, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Baş nazir vəzifəsinə Əli Hidayət oğlu Əsədovun namizədliyinə razılıq verilməsi üçün Milli Məclisə müraciət etdi.

Konstitusiyanın 95-ci maddəsinin I hissəsinin 9-cu bəndinə uyğun olaraq, parlament Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikası Baş nazirinin vəzifəyə təyin edilməsinə razılıq verilməsi məsələsinə dair qərar qəbul etməlidir.

Sonra S.Qafarova Əli Əsədovun əmək fəaliyyəti barədə məlumat verdi. Müzakirələrdən sonra məsələ səsə qoyuldu və Milli Məclis Əli Əsədovun Azərbaycanın Baş naziri təyin edilməsinə razılıq verdi.

İclasda çıxış edən Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov bu vəzifəyə onun namizədliyini irəli sürdüyünə və göstərilən yüksək etimada görə Azərbaycan Respublikasının Prezidenti, Zati-aliləri möhtərəm cənab İlham Heydər oğlu Əliyevə dərin təşəkkürünü bildirib.

Baş nazir müstəqil Azərbaycan Respublikasının tarixində ilk dəfə olaraq bütün suveren ərazilərimizi əhatə edən və şanlı tariximizə Zəfər seçkisi kimi əbədi həkk olunacaq prezident seçkilərində inamlı və möhtəşəm qələbə münasibətilə möhtərəm cənab Prezidenti bu yüksək kürsüdən bir daha təbrik etdi. Baş nazir bildirdi ki, qədirbilən Azərbaycan xalqı şəffaf və demokratik şəraitdə öz layiqli və ədalətli seçimini edərək bir daha dövlət başçımıza yüksək inam və etimadını göstərdi. O qeyd edib ki, müasir tariximizə möhtəşəm 20 il kimi yazılan ötən dövrdə zamanın çağırışları və mürəkkəb geosiyasi şərtlər fonunda həyata keçirilən siyasi kurs Azərbaycanın müstəqilliyinin daha da möhkəmlənməsini, respublikamızın bölgənin Lideri və söz sahibi olan, dünya birliyində öz layiqli yerini tutan, iqtisadi və hərbi gücü ilə öz problemlərini həll edən qüdrətli bir dövlətə çevrilməsini təmin edib.

"Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin müdrik rəhbərliyi ilə rəşadətli Ordumuzun otuz ilə yaxın işğal altında olan torpaqlarımızı 44 günlük Vətən müharibəsində azad etməsi, 2023-cü ilin antiterror tədbirləri nəticəsində ölkəmizin suverenliyinin tam bərpa olunması müstəqil dövlətçilik tariximizin ən şanlı səhifəsidir. Bu gün Azərbaycan postmüharibə dövrünün çağırışlarına uyğun olaraq yeni inkişaf strategiyası ilə inamla irəliləyir, milli dövlət quruculuğunun növbəti şərəfli mərhələsini yaşayır"- deyən Baş nazir bildirib ki, fevral ayının 14-də Milli Məclisdə keçirilmiş andiçmə mərasimində cənab Prezident son 20 ildə Azərbaycanın daxili və xarici siyasətində əldə edilən nailiyyətlər və uğurlar barədə ətraflı danışdı: "Eyni zamanda, andiçmə mərasimində dövlət başçısı ölkəmizin və cəmiyyətimizin hərtərəfli inkişafının əsas istiqamət və hədəflərini müəyyən edən proqram xarakterli geniş çıxış etdi. Növbəti dövrdə müdafiə və milli təhlükəsizliyin daha da gücləndirilməsi, hərbi sahədə texnoloji inkişaf və hərbi sənaye kompleksinin təkmilləşdirilməsi, silahlı qüvvələrin maddi-texniki təminatının yaxşılaşdırılması, sərhədlərimizin toxunulmazlığının təmin edilməsi əsas prioritet olacaqdır. Cəmiyyətimizin həyatının bütün sahələrində, o cümlədən sosial sahədə inkişaf dövlət başçımızın hər zaman diqqət mərkəzində olub və olacaqdır".

Azərbaycan vətəndaşının rifahının yaxşılaşdırılması, o cümlədən şəhid ailələrinin və müharibə əlillərinin sosial müdafiəsinin gücləndirilməsi ən önəmli vəzifə olaraq hökumətin qarşısında duracağını bildirdi. Təbii ki, cənab Prezident öz çıxışında qeyd etdiyi kimi, sosial rifahla bərabər əhalimizin, əsasən gənclərin təhsili, onların milli-mənəvi dəyərlərə və ənənələrə, azərbaycançılıq prinsiplərinə əsaslanaraq formalaşması, müasir çağırışlara və texnologiyalara yiyələnməsi Dördüncü Sənaye İnqilabı dövründə gələcək inkişafımızın təminatçısı olacaqdır.

Baş nazir qeyd edib ki, gələcək illərdə dünyada artan rəqabətə hazır olmaq üçün əsas prioritetlərimizdən biri yüksək rəqabətli insan kapitalının formalaşdırılmasıdır. Bunun üçün müasir təhsilin, sağlam cəmiyyətin, idmanın, mədəniyyətin, innovasiyaların təşviq edilməsi əsas şərtlərdir və bütün bunlara nail olmaq üçün müasir çağırışlara cavab verən dayanıqlı və güclü iqtisadiyyatın, o cümlədən qeyri-neft iqtisadiyyatının sürətli inkişafı, maliyyə müstəqilliyimizin daha da gücləndirilməsi təmin edilməlidir.

Növbəti dövrdə Azərbaycan hökumətinin işinin əsas prioritetlərini bu hədəflərin reallaşdırılması, bununla bağlı qarşıda duran vacib çağırışlara çevik reaksiya verilməsini təşkil edəcəyini bildirən Əli Əsədov deyib ki, bu baxımdan 2030-cu ilədək Milli Prioritetləri özündə ehtiva edən "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası", işğaldan azad olunmuş ərazilərə Böyük Qayıdış Proqramı və digər irimiqyaslı proqramlar bu istiqamətdə fəaliyyətimizin səmərəli şəkildə davam etdirilməsi üçün yaxşı zəmin yaradır: "Bu prioritetlərdən biri "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi"dir. Təsadüfi deyil ki, COP29 kimi mötəbər beynəlxalq tədbir məhz ölkəmizdə elan edilmiş "Yaşıl dünya naminə həmrəylik ili"ndə keçirilir".

Ə.Əsədov 2019-cu ildə cənab Prezident tərəfindən ilk dəfə Baş nazir vəzifəsinə namizədliyinin irəli sürülməsi zamanı bu yüksək kürsüdən çıxışından ötən müddətdə Nazirlər Kabineti ilə Milli Məclis arasında fəal birgə iş aparıldığını diqqətə çatdırıb. O qeyd edib ki, ötən müddət ərzində hökumət və ölkəmizin qanunverici orqanı arasında konstruktiv və səmərəli işbirliyi qurulub, müxtəlif qanun layihələrinin və sənədlərin məhsuldar birgə müzakirəsi keçirilib. Baş nazir buna görə deputatlara təşəkkürünü ifadə edib. O, ümidvar olduğunu bildirib ki, növbəti müddətdə də bu xoş ənənə davam etdiriləcək və birgə səylərlə bundan sonra da ölkəmizin tərəqqisinə və xalqımızın rifahının daha da yaxşılaşmasına xidmət edəcəkdir.

Baş nazir onu da qeyd edib ki, yaxın vaxtlarda Nazirlər Kabinetinin 2023-cü ildə fəaliyyəti haqqında hesabat deputatların diqqətinə təqdim ediləcək və ötən il hökumət tərəfindən görülən işlər və qarşıda duran vəzifələr müzakirə olunacaq.

Ə.Əsədov çıxışının sonunda diqqətə çatdırıb ki, Azərbaycan hökuməti ölkəmizin davamlı inkişafının və xalqımızın firavan həyatının təmin edilməsi ilə bağlı dövlət başçısı cənab İlham Əliyev tərəfindən qarşıya qoyulan vəzifələrin və verilən tapşırıqların vaxtında və yüksək keyfiyyətlə yerinə yetirilməsi üçün bütün səylərini səfərbər edəcəkdir. O, öz çıxışında deputatların qaldırdıqları məsələlərə münasibət bildirib.

Ə.Əsədov ona etimad göstərən cənab Prezidentə, Milli Məclisə minnətdarlığını bildirib və hökumət üzvləri ilə birlikdə verilən tapşırıqların təmin ediləcəyini söyləyib.

Sonra gündəlikdəki digər məsələr müzakirəyə çıxarılıb. Qanun layihələri müzakirələrdən sonra səsə qoyularaq qəbul edilib.

**Əliqismət BƏDƏLOV**
**XQ**

# Münxen səfəri və Prezidentin diplomatik zəfəri

(əvvəli 1-ci səhifədə)

Bəli, Prezidentin Münxen Təhlükəsizlik Konfransı çərçivəsində keçirdiyi görüşlər dünyaya Azərbaycan adlı regional gücü göstərir. Bu anlamda beynəlxalq aləmin aparıcı qütblərinin ölkəmizə hədsiz marağı qarşılıqlı faydanın artan miqyasının önəmini nümayiş etdirir. Ən başlıca məqam isə dünya ictimaiyyətinin İlham Əliyev siyasi fenomenini şəksiz qəbul etməsidir. Bu, ölkəmizin müstəsna siyasi-diplomatik dividentidir.

Bir də diqqətçəkən odur ki indiki təhlükəsizlik zirvəsində də dünya liderləri Prezident İlham Əliyevlə təmaslara can atırlar. Özü də Münxen Təhlükəsizlik Konfransı çərçivəsində keçirilən görüşlərin təşəbbüskarı onlardır. Onlar yaxşı anlayırlar ki, dövlətimizin başçısı proqmatikdir, rasionaldır, tərəfdaşlıqda etibarlıdır. Onu da gözəl dərk edirlər ki, Prezident İlham Əliyevin şəxsində Azərbaycan dövləti əməkdaşlığa sadiqdir və bu sabit mövqe qarşılıqlı fayda amilinə əsaslanır. İlham Əliyev liderliyindəki əməkdaşlıq həm ölkəsinə qazandırır, həm də tərəfdaşlarına. Bu əməkdaşlıqdakı hər fikir, hər söz reallıqla ciddi şəkildə fiksasiya olunur. Çünki dövlətimizin başçısının sözü onun dönə-dönə bəyan etdiyi kimi, imzası qədər dəyərlidir.

Prezident İlham Əliyevin Münxen Təhlükəsizlik Konfransı çərçivəsindəki görüşləri ölkəmizin xarici siyasət kursunun qloballıq göstəricisidir. Buyüksək səviyyə, sanki, nümunədir. Dövlətimizin başçısı artıq çoxdan qlobal siyasətin səmimiyyət etalonu sayılır. İlham Əliyev şəxsiyyətinin səmimiyyət amili özündə sabitqədəmliklə çevikliyi birləşdirir. Hər iki cəhətin vəhdəti müasir lider obrazını canlandırır. Elə bir lider ki, dünyanın bir çox ölkələri ona ancaq qibtə hissi ilə yanaşa bilər. Əlbəttə, qibtənin qısqanclıqla əvəzləndiyini də görürük. Təəssüf ki, belə hallar var. Ancaq bu, ümumi təəssürata təsir etmək gücündə deyil. Münxen Təhlükəsizlik Konfransı bunu bir daha təsdiqlədi.

Bəli, Azərbaycanın xarici siyasət konturları, kifayət qədər, aydındır. Dövlətimizin başçısı mövcud siyasətin ana xəttini andiçmə mərasimində də bəyan etdi, yeni strateji yol xəritəsi cızdı. Ölkəmiz, ilk növbədə, ikitərəfli formatda əməkdaşlığın tərəfdarıdır. Konkret olaraq, xarici siyasətimizə gəldikdə, o, bərabərhüquqlu xoş münasibətlərə, qarşılıqlı hörmətə, bir-birinin işinə qarışmamaq prinsiplərinə əsaslanır. Burada da son dərəcə ciddi səmimiyyət faktoru ön plandadır.

Münxen Təhlükəsizlik Konfransı, eyni zamanda, Azərbaycanın xarici siyasətinin yaşadığımız Cənubi Qafqaz regionunun hüdudlarını xeyli aşdığının növbəti əyani təsviridir. Ən maraqlı məqam isə ondadır ki, İlham Əliyev liderliyi regionumuzu ənənəvi klişelərdən çıxarır, onu, obrazlı desək, dünyanın döyünən ürəyinə çevirir. Bu ürəkdə güc, cəsarət, sədaqət prinsipiallıqla üzvü surətdə bağlıdır. Bu ürək inkişaf naminə döyünür, özündə daim ona can atan potensialı yaşadır.

Onu da əminliklə vurğulaya bilərik ki, Prezident İlham Əliyev Münxen Təhlükəsizlik Konfransında Azərbaycanın potensialını yenidən göstərməklə, ölkəmizin bəyan etdiyi əməkdaşlıq və inkişaf prioritetlərinin alternativsizliyini təsdiqləyir. Bu təsdiqlənmə özü ayrıca statusdur və onunla qürur duymağa, fəxarət hissi keçirməyə dəyər.

**XQ**

# Baş Prokurorluqda mükafatlar təqdim olunub



**Dünən Baş Prokurorluqda ölkə Prezidentinin 2023-cü il 30 sentyabr tarixli sərəncamına əsasən təltif edilmiş, Baş prokuror tərəfindən həvəsləndirilmiş, habelə "İlin ən yaxşı müstəntiqi" və "İlin ən yaxşı dövlət ittihamçısı" müsabiqələrinin qalibi olmuş prokurorluq işçilərinə, eləcə də "Prokurorluğun dostu" mükafatına layiq görülmüş media nümayəndələrinə mükafatlar təntənəli surərdə təqdim olunub.**

Mərasimdə Baş prokuror Kamran Əliyev ölkə başçısı İlham Əliyevin Milli Məclisdə andiçmə mərasimi zamanı proqram xarakterli çıxışında ölkəmizin gələcək inkişafına hesablanmış konseptual məsələlər və həlli vacib olan proseslərlə bağlı səsləndirdiyi fikirlərin müasir dövrdə respublikada qanunçuluq və hüquq qaydalarının möhkəmləndirilməsi, cinayətkarlığa qarşı mübarizə, ictimai təhlükəsizlik və asayişin təmin olunması sahəsində prokurorluq orqanları qarşısında yeni vəzifələr qoymasını qeyd edib.

Sonra xidməti vəzifələrinin icrasında fərqləndiklərinə və və peşəkarlıq göstərdiklərinə görə təltif edilmiş prokurorluq əməkdaşlarına layiq görüldükləri medallar təqdim olunub. Baş Prokurorluqda keçirilən müsabiqələrinin nəticələrinə əsasən, "İlin ən yaxşı müstəntiqi" seçilmiş Tural Hümmətzadəyə və "İlin ən yaxşı dövlət ittihamçısı" olmuş Zamil Mehralıyevə isə diplom və mükafatlar verilib. Azad Azərbaycan Müstəqil Teleradio Şirkəti, "Bakinski raboçi" qəzeti və "e-huquq.az" informasiya portalı "Prokurorluğun dostu" mükafatı ilə təltif olunub.

Mərasimdə "Heydər Əliyev və prokurorluq" kitabının təqdimatı da olub. Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar yeni nəşrin faydalı və sanballı məlumat mənbəyi olduğunu söyləyib.

Mərasimdə prokurorluq orqanlarında görülən işlər və əldə olunan nailiyyətlər barədə hesabat xarakterli videoçarx nümayiş olunub.

**XQ**

# Baş nazirin həmkarları ilə telefon danışığı

**Fevralın 16-da Rusiya Federasiyası Hökumətinin sədri Mixail Mişustin Azərbaycan Respublikasının Baş naziri Əli Əsədova zəng edib.**

Nazirlər Kabinetinin mətbuat xidməti xəbər verir ki, Mixail Mişustin Azərbaycan Respublikasının Baş naziri vəzifəsinə təyin olunması münasibətilə Əli Əsədovu təbrik edib.

Telefon danışığı əsnasında tərəflər Azərbaycan ilə Rusiya arasında dostluq münasibətlərinin və qarşılıqlı faydalı əməkdaşlığın inkişafını yüksək qiymətləndirib, strateji tərəfdaşlığın gələcəkdə də möhkəmləndirilməsinə ümidvar olduqlarını bildiriblər.

*

**Azərbaycanın Baş naziri Əli Əsədov ilə Qırğızıstan Nazirlər Kabinetinin sədri Akılbek Japarov arasında telefon danışığı olub**

Fevralın 16-da Qırğız Respublikası Nazirlər Kabinetinin sədri Akılbek Japarov Azərbaycan Respublikasının Baş naziri Əli Əsədova telefonla zəng edib.

Nazirlər Kabinetinin mətbuat xidmətindən bildiriblər ki, Akılbek Japarov Əli Əsədovu Azərbaycan Respublikasının Baş naziri təyin olunması münasibətilə təbrik edib.

Söhbət zamanı Azərbaycan ilə Qırğızıstan arasında strateji tərəfdaşlığın hərtərəfli inkişafından məmnunluq ifadə olunub.

Tərəflər Azərbaycan-Qırğızıstan qarşılıqlı faydalı əməkdaşlığının inkişaf perspektivlərini də müzakirə ediblər.

**XQ**

# Azərbaycan Ordusunun mövqeləri yenə atəşə tutulub

**Dünən saat 12:50-də Ermənistan silahlı qüvvələrinin bölmələri Basarkeçər rayonunun Günəşli yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Ordumuzun Daşkəsən rayonunun Təzəkənd yaşayış məntəqəsi istiqamətindəki mövqelərini iriçaplı silahlardan atəşə tutub.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, Ordumuzun bölmələri tərəfindən qeyd olunan istiqamətdə adekvat cavab tədbirləri görülüb.

**XQ**

# Qazaxıstanın daxili işlər naziri Azərbaycanda

**Azərbaycanın Daxili işlər naziri, general–polkovnik Vilayət Eyvazov və Qazaxıstanın daxili işlər naziri, polis general-leytenantı Erjan Sadenov birgə əməkdaşlıq məsələlərini müzakirə ediblər.**



V.Eyvazov iki qardaş ölkənin xalqlarını sıx dostluq, qarşılıqlı inam və hörmət tellərinin bağladığını, Azərbaycan və Qazaxıstan arasındakı əlaqələrin strateji tərəfdaşlıq xarakteri daşıdığını xatırladaraq, Azərbaycan və Qazaxıstan DİN-ləri arasındakı əməkdaşlığın da dərinləşdiyini diqqətə çatdırıb. Nazir ikitərəfli əlaqələrin, xüsusilə də transmilli mütəşəkkil cinayətkarlıqla mübarizə sahəsində birgə səylərin, qabaqcıl təcrübə və operativ informasiya mübadiləsinin, həmçinin yaradılmış normativ-hüquqi bazanın xalqlarımızın və dövlətlərimizin mənafelərinə, bölgədə təhlükəsizliyə xidmət etdiyini vurğulayıb.

Qazaxıstan daxili işlər naziri polis general-leytenantı Erjan Sadenov səmimi qəbula və yüksək qonaqpərvərliyə görə azərbaycanlı həmkarına təşəkkürünü bildirərək ölkəsində ictimai asayişin qorunması ilə bağlı həyata keçirilən tədbirlər barədə məlumat verib. O, rəhbərlik etdiyi qurumun Azərbaycanın Daxili İşlər Nazirliyi ilə əməkdaşlığı daha da genişləndirməkdə maraqlı olduğunu və səfərin bu məqsədə xidmət edəcəyini bildirib.

Səmimilik və işgüzarlıq şəraitində keçən görüşdə tərəfləri maraqlandıran bir sıra digər məsələlər barəsində də ətraflı fikir mübadiləsi aparılıb.

Səfər çərçivəsində qonaqlar DİN-in Daxili Qoşunlarının "N" saylı hərbi hissəsinə, Polis Akademiyasına, Təhlükəsiz Şəhər Xidmətinə və Nəqliyyatı İntellektual İdarəetmə Mərkəzinə gedərək həmin qurumların fəaliyyəti ilə yaxından tanış olublar.

**XQ**

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Hörmətli İlham Heydər oğlu!**

Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizə Rusiyanın TASS İnformasiya Agentliyinin kollektivi adından səmimi təbriklərimizi çatdırırıq.

Seçkilər Sizin siyasi kursunuza ümumxalq dəstəyini inamlı şəkildə nümayiş etdirdi. Əminik ki, Sizin dövlət başçısı vəzifəsində fəaliyyətiniz gələcəkdə də ölkələrimiz arasında konstruktiv əlaqələrin və tərəfdaşlıq və qarşılıqlı fəaliyyətinin davam etməsinə kömək edəcək.

TASS Azərbaycan Respublikası, onun aparıcı kütləvi informasiya vasitələri, siyasi, ictimai, mədəni və elmi dairələri ilə sıx əməkdaşlıq tarixinə malikdir. Bizim mövqeyimiz ondan ibarətdir ki, Rusiya və Azərbaycanın informasiya sahəsində əməkdaşlığı dövlətlərimiz və xalqlarımız arasında sıx əlaqələrin inkişafında mühüm rol oynasın. Bununla əlaqədar agentliyimizin Azərbaycan Respublikasında fəaliyyətinə Sizin davamlı dəstəyinizə və köməyinizə güvənirik.

**Hörmətlə,**

***Andrey KONDRAŞOV,***
***Rusiyanın TASS İnformasiya Agentliyinin baş direktoru***
***Mixail QUSMAN,***
***Baş direktorun birinci müavini***

*

**Hörmətli cənab Prezident!**

Növbəti dəfə Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi təbrik edirik. Azərbaycanın Qafqazın parlayan ulduzuna çevrilməsində Sizin nailiyyətləriniz təqdirəlayiqdir.

Bölgədə sabitliyin və etimadın qorunub saxlanması üçün Sizin yenidən Prezident seçilməyiniz Türkiyədə və Türk Dünyasında böyük sevinclə qarşılanmışdır.

Cənab Prezident, Sizə möhkəm cansağlığı, gələcək fəaliyyətinizdə uğurlar arzulayırıq.

**Hörmətlə,**

***Səfər QARAQOYUNLU,***
***Türkiyə–Azərbaycan Həmrəylik və Mədəniyyət Dərnəyinin sədri***

**Türkiyə Respublikası, İstanbul şəhəri**

*

**Hörmətli cənab Prezident!**

İcazə verin, yenidən Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Qazaxıstan Respublikasının Aktau şəhərində fəaliyyət göstərən "Dostluq" Etno-mədəni Birliyinin üzvləri adından ən səmimi təbriklərimi çatdırım. Seçkilərdə inamlı qələbəniz Azərbaycan xalqının Sizə inamını və etimadını, rəhbərliyinizlə ölkədə həyata keçirilən inkişaf kursuna dəstəyini əks etdirir.

Xalqımız əmindir ki, Sizin rəhbərliyinizlə Azərbaycan üçün strateji əhəmiyyət kəsb edən qərarların qəbulunda yenə də müdriklik, cəsarət və qətiyyət müşayiət olunacaq. Biz fəxr edirik ki, Azərbaycan üçün tarixi əhəmiyyətli bu məqamda ölkəmizə rəhbərlik edirsiniz və çətinlikləri, qarşıya çıxan maneələri qətiyyətlə dəf edirsiniz.

Sizin rəhbərliyinizlə ötən 20 il ərzində ölkəmiz böyük inkişaf yolu keçmiş, tarixi hadisələrə, zəfərlərə şahidlik etmişdir. Sizin zəngin təcrübəniz və əzmkarlığınız bundan sonra da ölkəmizin çiçəklənməsinə, mövqelərinin və nüfuzunun beynəlxalq aləmdə möhkəmlənməsinə xidmət edəcəkdir.

Bu əlamətdar günlərdə Sizə möhkəm cansağlığı, səmərəli fəaliyyət və Azərbaycanın inkişaf yolunda yeni nailiyyətlər arzulayırıq!

**Hörmətlə,**

***Hüseynov ŞƏMSƏDDİN,***
***Aktau şəhərindəki "Dostluq" Etno-mədəni Birliyinin sədri***

**Qazaxıstan Respublikası**

*

**Möhtərəm cənab Prezident!**

Zati-alilərinizi Azərbaycan Respublikasının Prezidenti seçkilərində inamlı qələbə münasibətilə təbrik etməkdən şərəf duyur, Uca Allahdan Azərbaycan naminə misilsiz fəaliyyətinizdə Sizə yeni nailiyyətlər və zəfərlər diləyirəm.

Sizin Allah-Təalanın nəzərində və Azərbaycan xalqının qəlbində ucaldığınız zirvə bütün qələbələrizin mənbəyidir. Xalqın müqəddəs arzu və mübarək niyyətlərinin gerçəkləşməsi yolunda dərin zəka və müdrik dövlətçilik təfəkkürü ilə həyata keçirdiyiniz qalibiyyətli siyasi xətt Azərbaycanı bütün istiqamətlər üzrə zirvələrdə bərqərar etmişdir. Azərbaycanın ərazi bütövlüyünü və əzəli torpaqları üzərində suveren hüququnu tam təsbit etmiş Cənabınızın Azərbaycan xalqına bəxş etdiyi Qarabağ Zəfəri, Şuşa ərməğanı, Xankəndi Zəfəri uğurlu dövlət xadiminin, qalib sərkərdənin doğma xalqına əvəzsiz töhfəsidir. Uca Yaradan doğru yolda olanların səy və əməllərinə rəvac verir! Bütün bu uğurlara görə xalq Zati-alilərinizə siyasi lider olaraq verdiyi dəyər, bəslədiyi sədaqət və minnətdarlığını ilk dəfə bütün Azərbaycan ərazisində keçirilmiş Zəfər abı-havalı seçkilərdə bir daha əyani şəkildə bəyan və nümayiş etdirdi.

44 günlük Vətən müharibəsində müzəffər Ali Baş Komandan, 20 il ərzində müstəqil Azərbaycanı dünya miqyasında sürətlə inkişaf edən dövlətlər sırasına yüksəldən, iqtisadi qüdrətimizin artmasına aparan siyasətin memarı, milli-mənəvi, dini dəyərlərimizin himayədarı olaraq, qlobal müstəvidə bəşəri əhəmiyyətli ideya və təşəbbüslərin müəllifi kimi dünya miqyasında dövlət başçısı statusunda olan şəxslər sırasında Sizin xüsusi yeriniz və məqamınız danılmazdır.

Qədirbilən Azərbaycan xaqlı, o cümlədən, dindarlar Sizin qalib Azərbaycanın qalib Lideri olaraq məqamınıza böyük ehtiram duyur və bu seçimlərin də xalqımız və dövlətimiz üçün xeyirlərə vəsilə olduğuna ürəkdən inanır. Xalq əmindir ki, bu qalibiyyətli yol bizi yeni zirvələrə aparacaq, tarixi əhəmiyyətli hədəflərimizə yetirəcək, beynəlxalq müstəvidə yerimizi daha da möhkəmlədəcəkdir. Ölkəmizin tərəqqi və çiçəklənməsinə xidmət edən, bölgəmizin siyasi gələcəyini formalaşdıran, dünya miqyasında insan həmrəyliyinə xidmət edən ideya və əməllər müəllifinə Uca

Allah yardımçı olsun!

Möhtərəm cənab Prezident! Sizin qalib Azərbaycanın müasir tarixində yeni mərhələ olan növbəti Prezidentlik dönəminiz xeyirli-uğurlu olsun! Əminəm ki, Sizin yeni dövr üçün yeni milli ideya barədə müdrik fikirləriniz cəmiyyətimizin və dövlətimizin yeni uğurlarının möhkəm zəmini olacaqdır. Tarixi ədaləti, beynəlxalq hüququ öz gücü ilə bərpa etmiş Azərbaycanın yeni hədəfləri mübarək olsun! Öz milli-mənəvi irsinə sahib çıxan, dini abidələrini dövlət qayğı ilə bərpa və yenidən quran, məscid və məbədlər inşa edən, multikultural ənənə və dəyərlərini, etnik, dini müxtəlifliyini göz bəbəyi kimi qoruyan Azərbaycan hər zaman ucalacaqdır, inşallah. Milli dəyər, mənəvi zərurət və tarixi əhəmiyyət kəsb edən bütün hədəf və istiqamətləri ehtiva edən yeni milli ideyamızın Sizin rəhbərliyinizlə ölkəmizi yeni zirvələrə ucaltmağı üçün bütün Azərbaycan dindarları səmimi qəlbdən dualar edir, Uca Allahdan Sizin öndər şəxsiyyət olaraq xalqımız və dövlətçiliyimiz naminə mübarək missiyanızın təntənəsinə rəvac verməsini diləyirlər.

Zati-aliləri! Azərbaycan Respublikasının Prezidenti məqamında qarşıdakı fəaliyyətinizə Şeyxülislam olaraq xeyir-dualar verir, ölkə dindarlarının iradəsini ifadə edərək Zati-alilərinizə və dəyərli ailənizə can sağlığı, xoşbəxtlik, dövlətçiliyimiz naminə fəaliyyətinizə yeni uğurlar diləyirəm. Allah-Təala yeni prezidentlik dönəminizi mübarək, xalqımız üçün xeyirli-uğurlu qərar versin! Uca Rəbbimiz hər zaman yardımçınız olsun, öz lütf və mərhəmətini Azərbaycan xalqı, dövləti və onun müdrik dövlət rəhbəri üzərində bərqərar etsin, Sizi və Azərbaycanı hifz etsin!Amin!

**Dərin hörmət və ehtiramla,**

***Şeyxülislam Allahşükür PAŞAZADƏ,***
***Qafqaz Müsəlmanları İdarəsinin sədri***

**Azərbaycan Respublikası, Bakı şəhəri**

*

**Zati-aliləri!**

Möhtərəm cənab Prezident,

İcazə verin Sizi növbədənkənar seçkilərdə inamlı qələbəniz münasibətilə Azərbaycan katolikləri adından və şəxsən öz adımdan ürəkdən təbrik edim.

Öz milli adət-ənənələrinə və siyasi mədəniyyətinə sadiq, ölkəsinin müstəqilliyini müqəddəs sayan Azərbaycan xalqı Sizə – suverenliyin, milli təhlükəsizliyin və xalq birliyinin təmin edilməsi, ərazi bütövlüyünün bərpası, dinamik dövlət quruculuğu və iqtisadi inkişaf kimi ölkə və cəmiyyət qarşısında duran əsas strateji vəzifələri ardıcıl və yüksək səmərəliliklə həll edən müdrik və uzaqgörən rəhbərə bir daha etimad göstərdi.

Sizin rəhbərliyinizlə Azərbaycan müxtəlif millətlərin və dinlərin nümayəndələrinin sülh və əmin-amanlıq şəraitində yaşadığı, ölkənin etnik, dini, dil və mədəni müxtəlifliyinin qorunub saxlanılması və artırılmasının dövlət siyasəti səviyyəsində həyata keçirildiyi müasir, sürətlə inkişaf edən ölkə nümunəsinə çevrilib.

Azərbaycanın sivilizasiyalararası və dinlərarası dialoq sahəsində rolu və əldə etdiyi nailiyyətlər haqlı olaraq beynəlxalq aləmdə ən yüksək qiymətə layiq görülüb. Azərbaycan ilə Müqəddəs Taxt-Tac arasında yüksəksəviyyəli qarşılıqlı etimad və əməkdaşlıq xüsusi sevinc və qürur hissi yaradır və bu Müqəddəs Ata Fransisk və Katolik Kilsəsinin digər iyerarxları tərəfindən dəfələrlə qeyd olunub.

Katolik xristian icması Azərbaycanda Katolik Kilsəsinin ehtiyaclarına göstərdiyiniz qayğıya görə Sizə dərin minnətdarlığını bildirir, Sizi və Sizin simanızda bütün Azərbaycan xalqını əmin edir ki, biz bundan sonra da Azərbaycan cəmiyyətində dinlərarası sülhün, çoxmillətli və çoxkonfessiyalı Azərbaycan xalqının dini-mənəvi dəyərlərinin qorunub saxlanılması, təşviqi və möhkəmləndirilməsi, xalq birliyinin təmin edilməsi işinə öz imkanlarımız daxilində töhfə verəcəyik.

Zati-aliləri,

Azərbaycanda Katolik Kilsəsinin ruhaniləri, rahibləri və bütün dindarları Allaha dua edərək, Sizə möhkəm cansağlığı, uzun ömür, uğurlar, Azərbaycanın çiçəklənməsi naminə qarşıya qoyduğunuz bütün vəzifələrin həyata keçirilməsində səbir, ruhani və cismani güc arzulayırlar.

Uca Yaradan Sizi və ailənizi qorusun, Azərbaycanı sülh içində saxlasın!

**Dərin hörmətlə,**

***Vladimir FEKETE,***
***Azərbaycanda Katolik Kilsəsinin apostol prefekti, Munisipin titulyar yepiskopu***

**Azərbaycan Respublikası, Bakı şəhəri**

*

**Hörmətli İlham Heydər oğlu!**

Biz - Qırğız Respublikasında fəaliyyət göstərən Azərbaycan diasporunun üzvləri böyük məmnuniyyətlə Sizi Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə təbrik edir, Sizə uzun ömür arzulayır, hörmətimizi və tam dəstəyimizi bildiririk!

Siz atanızın - Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin layiqli övladı kimi iki yüz ildən sonra ilk dəfə olaraq xalqımıza öz tarixi ata-baba torpaqlarını qaytarmış Rəhbərsiniz.

Cənab Prezident, məhz Sizin sayənizdə bütün dünyada azərbaycanlılar başı dik, qürurlu gəzirlər. Biz - xaricdə yaşayan azərbaycanlılar hər zaman tarixi Vətənimizin dəstəyini hiss edir və fəxr edirik ki, Sizin prezidentliyinizlə Azərbaycan bütün dünya ölkələrinin hesablaşdığı, həm iqtisadi, həm də hərbi cəhətdən güclü dövlətə çevrilib.

Bütün bunlar Sizin - Azərbaycan Respublikası Prezidentinin, Ali Baş Komandanının, xalqımızın müzəffər Liderinin uzaqgörən və ağıllı siyasəti sayəsində baş verib.

**Hörmətlə,**

***Baxşəliyev XANSIVAR,***
***Qırğızıstandakı "Birlik" Azərbaycanlıların İctimai Birliyinin sədri***

**Qırğız Respublikası, Bişkek şəhəri**

*

**Hörmətli cənab Prezident!**

Sizi yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə səmimi-qəlbdən təbrik edir, Azərbaycan Respublikasının dövlət müstəqilliyinin qorunub saxlanılmasında, ölkənin iqtisadi, siyasi və hərbi cəhətdən regionun qlobal güc mərkəzinə çevrilməsində şəxsən Sizə və Azərbaycan xalqına yeni uğurlar arzulayıram.

İşğal altında olmuş torpaqlarımızın Sizin rəhbərliyinizlə düşmən tapdağından təmamilə azad edilməsi hamımızı sevindirdi, fərəhləndirdi. Biz Sizinlə qürur duyuruq! Azərbaycana və onun rəhbərinə yalnız qələbə yaraşır!

Sizə möhkəm cansağlığı, xalqımızın rifahı naminə fəaliyyətinizdə uğurlar arzulayıram!

**Dərin hörmətlə,**

***Musayev YAŞAR,***
***Almaniyanın "BalticNet-PlasmaNet" və "Baku-Nürnberg e.V." Cəmiyyətləri İdarə Heyətinin sədri, Almaniyanın Sosial-Demokrat Partiyası (SPD) Nürnberq şəhəri Nord üzrə İdarə Heyətinin üzvü, texnika elmləri doktoru***

**Almaniya Federativ Respublikası**

*

**Möhtərəm cənab Prezident!**

Zati-alinizi yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Azərbaycanın Provaslav icması adından təbrik edirəm.

Prezident seçkilərində qazandığınız inamlı və əsaslı qələbə ardıcıl strateji siyasəti ilə cəmiyyətin möhkəmlənməsini, ərazi bütövlüyünü və dövlətin dinamik inkişafını təmin edən müdrik və uzaqgörən Lider kimi xalqın Sizə olan sonsuz inamından xəbər verir.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən dövlət siyasətinin əsası kimi qoyulmuş multikulturalizm və dini tolerantlıq ideyaları Sizin tərəfinizdən fəal şəkildə həyata keçirilir. Bu gün Azərbaycan Vətənin rifahı və firavanlığı ideyaları altında birləşən müxtəlif millətlərin və dini baxışların nümayəndələrinin sülh və əmin-amanlıq şəraitində yaşadığı dövlətin bariz nümunəsidir.

Ölkənin ərazi bütövlüyünün bərpası dövlətin inkişafı və Azərbaycanın beynəlxalq aləmdə mövqelərinin möhkəmlənməsi üçün yeni üfüqlər açdı. Uzun müddətli müharibə şəraitindən sonra ölkəmizdə sülh və quruculuq dövrü başlayır. Xalqımızın Azərbaycanı yeni, dinc qələbələrə aparacaq güclü və müdrik lider olan Sizi bir daha Prezident kimi görmək arzusu həyata keçdi.

Sizə ölkəmizin çiçəklənməsi naminə nəzərdə tutduğunuz bütün planların və təşəbbüslərin uğurla həyata keçirmənizi arzulayırıq.

Allah Sizi və ailənizi qorusun!

Allah Azərbaycanı qorusun!

**Dərin hörmət və ehtiramla,**

***Arximandrit Aleksiy NİKONOROV,***
***Rus Pravoslav Kilsəsinin və Azərbaycan Yeparxiyasının katibi***

**Azərbaycan Respublikası, Bakı şəhəri**

*

**Çox hörmətli cənab Prezident!**

"Ulyanovsk Regional Azərbaycan Milli-Mədəni Muxtariyyəti" İctimai Təşkilatının üzvləri adından Sizi Azərbaycan Respublikasının Prezidenti seçkilərində inamlı qələbəniz münasibətilə təbrik edirəm.

Sizin layiqli qələbəniz ölkə vətəndaşlarının dəstəyini və etimadını qazanan, gücünü və enerjisini vətəndaşların firavanlığı və rifahı naminə yönəltməyi bacaran bacarıqlı və təcrübəli rəhbərin nüfuzuna xalqın etimadını təsdiq edir.

Sizə Azərbaycan Respublikasının inkişafındakı sürəti qoruyub saxlamaqla yanaşı hədəflərinizə doğru inamla addımlamağı arzu edirəm. Sizin təcrübəniz, cari problemlərin ən xırda məqamlarını dərindən təhlil qabiliyyətiniz, komandanızın peşəkarlığı qarşıya qoyulan vəzifələrin uğurla həllinə öz töhfəsini verəcək və seçicilərin göstərdiyi etimad, əlbəttə ki, yaxşı nəticələrə çevriləcəkdir!

Biz Sizin Rusiya-Azərbaycan münasibətlərinin möhkəmlənməsinə şəxsi töhfənizi yüksək qiymətləndiririk. Azərbaycanla Ulyanovsk vilayəti arasında dostluq münasibətlərinin və işgüzar tərəfdaşlığın inkişafına göstərdiyiniz diqqət və dəstəyə görə xüsusi minnətdarlığımızı bildirmək istərdik. Əminik ki, Siz fəaliyyətinizlə bundan sonra da ikitərəfli münasibətlərin inkişafına və qarşılıqlı faydalı əməkdaşlığın möhkəmlənməsinə əsaslı töhfə verəcəksiniz.

Hörmətli Prezident, Sizə şərəfli işinizdə parlaq qələbələr, planlarınızın həyata keçirilməsində uğurlar, yeni nailiyyətlər, Sizə və yaxınlarınıza cansağlığı, əmin-amanlıq və xeyirxahlıq arzulayırıq!

**Hörmətlə,**

***Hüseynov İSLAM,***
***Rusiyanın Ulyanovsk vilayəti qubernatorunun milli məsələlər üzrə müşaviri, "Ulyanovsk Regional Azərbaycan Milli-Mədəni Muxtariyyəti" İctimai Təşkilatının sədri***

**Rusiya Federasiyası, Ulyanovsk şəhəri**

*

**Hörmətli cənab Prezident!**

Biz, "Kanada Azərbaycanlı Tələbələr Assosiasiyası" olaraq 2024-cü ilin fevralın 7-də növbədənkənar prezident seçkilərində əldə etdiyiniz üstün qələbə münasibətilə Sizi ürəkdən təbrik edirik.

Siz Azərbaycanın inkişafı naminə atdığınız addımlarda daim güclü bir liderlik sərgiləmiş, xalqımızın rifahı və ölkəmizin beynəlxalq arenadakı təsirini artırmaq üçün var gücü ilə çalışmışsınız. Sizin idarəetmə təcrübəniz sayəsində Azərbaycan tarixi nailiyyətlər əldə etmiş, ərazi bütövlüyünü və suverenliyini bərpa etmişdir. Xalqımız Sizin rəhbərliyinizlə gələcəyə ümid və qürur hissi ilə baxır. Bunu Azərbaycan xalqı, növbədənkənar prezident seçkilərində Sizin liderliyinizə olan etimadını açıq şəkildə nümayiş etdirərək sübut etmişdir.

Qələbələri ilə Azərbaycanın yolunu açan lider olaraq Sizinlə fəxr edir, başçılığınız altında ölkəmizin daim inkişaf etməsini, hər zaman sülhün, sabitliyin olmasını arzulayır.

Cənab Prezident, növbəti illərdə də qazanılacaq uğurların ölkəmizin davamlı inkişafına önəmli töhfə verəcəyinə inanırıq.

**Hörmətlə,**

***"Kanada Azərbaycanlı Tələbələr Assosiasiyası"***

**Kanada, Ottava şəhəri**

*

**Cənab Prezident!**

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibəti ilə Sizi bütün diaspor üzvlərimiz və öz adımdan ürəkdən təbrik edirəm.

Sizin bir daha Prezidentimiz olmağınızdan çox sevincliyik və ürəkdən inanırıq ki, hər zaman olduğu kimi Siz xalqımıza, millətimizə, dövlətimizə layiqincə başçılıq edəcək, ölkəmizin müstəqilliyini daha da möhkəmləndirəcək, iqtisadiyyatımızın inkişafının sürətləndirilməsi istiqamətində fəaliyyətinizi davam etdirəcəksiniz.

Cənab Prezident, fürsətdən istifadə edərək Sizə bu çətin yolda uğurlar və hər işinizdə müvəffəq olmanızı, xalqımıza əmin-amanlıq arzu edirəm.

Allah Sizi və ailənizi qorusun, yar və yardımçınız olsun.

**Hörmətlə,**

***Könül HACIZADƏ,***
***"Vətənsevər" Azərbaycan Küveyt Mədəniyyət və Dostluq Cəmiyyətinin sədri.***

**Küveyt Dövləti, Əl-Küveyt şəhəri**

*

**Hörmətli cənab Prezident!**

Növbədənkənar prezident seçkilərində əldə etdiyiniz qələbə münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Bu qələbə xalqın Sizə olan etimadının bariz nümunəsidir. Sizin Azərbaycanın inkişafı və işıqlı gələcəyi naminə atdığınız addımlar, xalqımızın rifahı və ölkəmizin beynəlxalq aləmdə nüfuzunun artması üçün bütün səylər bizi hər zaman qürurlandırıb.

Sizin komandanlığınızla qəhrəman Vətən övladlarının şücaəti sayəsində Azərbaycan xalqı öz tarixi torpaqlarına qayıdaraq xalqımız Zəfər sevinci yaşadı və tariximizin şanlı səhifəsinə şahidlik etdi. Bütün bunlar Azərbaycan xalqının öz layiqli liderini müəyyən etməsində tərəddüd yaratmadı.

Cənab Prezident, prezidentlik fəaliyyətinizin yeni dövründə Sizə uğurlar arzulayır və bu uğurların ölkəmizin davamlı inkişafında müstəsna rol oynayacağına əminliyimi bildirirəm. Çox şadam ki, Qalib Xalqımız öz Qalib Liderini seçdi. Sizə bu yolda hər zaman olduğu kimi əmin adımlarla irəliləməyi arzu edirəm.

Biz azərbaycanlılar, dünyanın hər yerində daim Sizinlə qürur duyuruq və yanınızdayıq.

Yaşasın müstəqil və bütöv Azərbaycan!

**Hörmətlə,**

***Lalin HƏSƏNOVA,***
***Kanada "Vətən" Azərbaycan Mədəniyyət və İncəsənət Mərkəzinin rəhbəri***

**Kanada, Toronto şəhəri**

*

**Hörmətli cənab Prezident!**

Böyük Azərbaycan xalqının öz layiqli Liderinə səs verdiyi seçkilərdə qazandığınız növbəti möhtəşəm qələbə münasibətilə Sizi Dərbənd şəhərində yaşayan azərbaycanlıları adından təbrik edirəm.

Siz, cənab Prezident, Heydər Əliyev siyasətini davam etdirərək, Azərbaycan Respublikasının siyasi və iqtisadi imkanlarını bütün dünyaya göstərdiniz.

Sizin məqsədyönlü siyasətiniz sayəsində Azərbaycanın nüfuzu beynəlxalq aləmdə ən yüksək zirvələrə çatmışdır.

Əminəm ki, Sizin kimi liderlə Azərbaycan xalqı firavan, xoşbəxt yaçayacaq. Mən də Sizə və xalqınıza səadət, rifah arzulayıram.

**Hörmətlə,**

***Panayev QƏNİ,***
***Dərbənd şəhər Deputatlar Soveti sədrinin köməkçisi***

**Rusiya Federasiyası, Dağıstan Respublikası, Dərbənd şəhəri**

*

**Əziz Prezidentimiz!**

Sizi yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə təbrik edirəm. Bu seçki Azərbaycan xalqının Sizə sonsuz inamını və dəstəyini bir daha nümayiş etdirdi. Seçkidəki qalibiyyətiniz Azərbaycanın inkişaf yolunda irəliləyişini təmin edir. Biz inanırıq ki, Sizin rəhbərliyinizlə ölkəmiz daha da inkişaf edəcək və Azərbaycanın daha da parlaq gələcəyi olacaq.

Siz müdrik rəhbər kimi beynəlxalq aləmdə nüfuz qazanmış müasir Azərbaycan dövlətinin tərəqqisi üçün çox işlər görürsünüz. Ölkəmizin hüdudlarından kənarda yaşayan Azərbaycan vətəndaşları olaraq qalib xalqımızın qalib Lideri ilə qürur duyuruq!

Doğma Vətənimizin yüksəlişi və xalqımızın rifahı naminə bundan sonrakı fəaliyyətinizdə də Sizə yeni-yeni zəfərlər, tükənməz eneri, uğurlar arzulayıram. Sizə və ailənizə möhkəm cansağlığı və xoşbəxtlik diləyirəm.

**Hörmətlə,**

***Solmaz RƏHİMOVA***

**Kosta-Rika Respublikası**

*

**Cənab Prezident, qalib xalqın qalib Lideri!**

Sizi yenidən Prezident seçilməyiniz münasibətilə səmimi-qəlbdən təbrik edirəm. Seçkilərdə qələbəniz Azərbaycan xalqının Sizin liderliyinizə olan inamının göstəricisidir. Can Azərbaycanı daha da inkişaf etdirəcəyinizə, xalqın firavanlığını daha da artıracağınıza tam əminəm.

Sizin rəhbərliyinizlə Azərbaycanın beynəlxalq miqyasda təsirli rolu və regionda sülhə töhfələri təqdirlə qarşılanır.

Türkmən elinin Azərbaycanla qardaşlıq bağlarını daha da möhkəmləndirmək əzmimiz və iradəmiz daim yüksəkdir.

Cənab Prezident, Azərbaycanın tərəqqisi və xalqın rifahı naminə fəaliyyətinizdə Sizə uğurlar arzulayıram.

**Hörmətlə,**

***Erşad SALİHİ,***
***İraq Nümayəndələr Şurasının İnsan hüquqları komitəsinin sədri, İraq Türkmən Cəbhəsinin Kərkük millət vəkili***

*

**Möhtərəm cənab Prezident!**

Prezident seçkilərində inamlı qələbəniz münasibətilə Qırğızıstan Həmkarlar İttifaqları Federasiyası adından səmimi təbriklərimizi qəbul etməyinizi xahiş edirəm.

Bu qələbə Sizin Azərbaycan Prezidenti vəzifəsində fədakar fəaliyyətinizin məntiqi nəticəsi və xalqın gələcəkdə də respublikanın sosial-iqtisadi inkişafı, suverenliyinin möhkəmləndirilməsi və beynəlxalq arenada nüfuzunun yüksəldilməsi kursuna dəstəyinin təzahürüdür.

Əminik ki, Sizin rəhbərliyiniz altında qardaş xalqlarımız arasında mədəni və mənəvi bağlar daha da möhkəmləndiriləcək, ikitərəfli əməkdaşlıq, o cümlədən respublikalarımızın milli həmkarlar ittifaqları arasında əlaqələr inkişaf edəcəkdir.

Qırğızıstan Həmkarlar İttifaqları Federasiyası Sizin şəxsinizdə bütün Azərbaycan xalqını demokratiyanın, ədalətin və həmrəyliyin təntənəsi münasibətilə təbrik edir, Sizə möhkəm cansağlığı və ali dövləti fəaliyyətinizdə yeni nailiyyətlər, qardaş Azərbaycan xalqına isə sülh və əmin-amanlıq arzulayır.

**Hörmətlə,**

***Emil KIZAYEV,***
***Qırğızıstan Həmkarlar İttifaqları Federasiyasının sədri***

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Zati-aliləri!**

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının (BMTİP) Azərbaycan nümayəndəliyindəki həmkarlarım adından və şəxsən öz adımdan Sizə ən səmimi təbriklərimizi və arzularımızı çatdırmaqdan məmnunluq duyuram. Bu qələbə ölkənin inkişafına və Azərbaycan xalqının rifahına xidmət edən uğurlu rəhbərliyinizin və uzaqgörənliyinizin bariz göstəricisidir. Fürsətdən istifadə edərək Azərbaycan xalqına daimi firavanlıq, xoşbəxtlik və dayanıqlı inkişaf arzulayıram.

Sizi bir daha əmin etmək istərdim ki, BMT-nin inkişaf Proqramının Azərbaycandakı nümayəndəliyi Dayanıqlı İnkişaf üzrə 2030-cu il Gündəliyinə verdiyi töhfədə Azərbaycan hökumətini dəstəkləməyə sadiqdir. BMTİP, həmçinin Azərbaycan xalqının firavan və təhlükəsiz gələcəyi ilə bağlı göstərdiyiniz səyləri dəstəkləmək üçün hökumətlə sıx tərəfdaşlıq şəraitində işləri davam etdirməyə hazırdır.

Zati-aliləri, xahiş edirəm dərin hörmət və ehtiramımı qəbul edəsiniz.

**Hörmətlə,**

***Alessandra ROKKASALVO,***
***BMT-nin İnkişaf Proqramının Azərbaycandakı rezident nümayəndəsinin səlahiyyətlərini icra edən***

*

**Zati-aliləri!**

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz və vəzifənizi icra etməyə başlamağınız münasibətilə BMT-nin Azərbaycandakı nümayəndəliyi adından səmimi təbriklərimi qəbul etməyinizi xahiş edirəm.

Bu fürsətdən istifadə edərək BMT-nin Azərbaycandakı nümayəndəliyinin 2021-2025-ci illər üçün Dayanıqlı İnkişaf üzrə Əməkdaşlığa dair Çərçivə Sənədinə uyğun olaraq Azərbaycanın dayanıqlı inkişafla bağlı milli prioritetlərini dəstəkləməyə davamlı sadiqliyini bildirirəm. Biz BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) ev sahibliyi etməsində Azərbaycana dəstəyimizi təklif edirik.

Azərbaycan Respublikası hökuməti və BMT-nin Azərbaycandakı nümayəndəliyi arasında tərəfdaşlıq və əməkdaşlığın bundan sonra da davam edəcəyinə inanıram.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

**Səmimiyyətlə,**

***Vladanka ANDREYEVA,***
***BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi***

*

**Zati aliləri!**

Bosniya və Herseqovinanın vətəndaşları adından və şəxsən öz adımdan Sizi Azərbaycan Respublikasının Prezidenti seçkilərində qələbəniz münasibətilə təbrik edirəm.

Uzun illərdir ki, ölkələrimiz arasında səmimiyyət və dostluq üzərində qurulmuş münasibətlər yaxşı əməkdaşlıqla səciyyələnir. İkitərəfli münasibətlərin ümumi maraq doğuran bütün sahələrdə bundan sonra da dostluq ruhunda inkişaf edəcəyinə inandığımı, ölkələrimizin və xalqlarımızın rifahı naminə tərəfdaşlığın qorunub saxlanmasına və genişləndirilməsinə sadiq qaldığımı bildirirəm. Bu xüsusda mən Sizinlə yeni görüşlərimizi və əməkdaşlığımızın davamını səbirsizliklə gözləyirəm.

Zati-aliləri, Sizə və Azərbaycan Respublikasının vətəndaşlarına ən xoş arzularımı və ehtiramımı bildirirəm.

**Dərin hörmətlə,**

***Denis BEÇİROVİÇ,***
***Bosniya və Herseqovinanın Rəyasət Heyətinin üzvü***

*

**Möhtərəm cənab Prezident!**

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Zati-alinizə ən səmimi təbriklərimizi çatdırır və ali dövləti fəaliyyətinizdə uğurlar arzulayırıq.

2004-cü ildə Bakıda İslam Əməkdaşlıq Təşkilatı Gənclər Forumunun (İƏTGF) təsis edilməsi ilə bağlı Baş Assambleyanın keçirilməsinə mühüm dəstəyiniz İƏT ölkələri gənclərinin inkişafı və birliyinin gücləndirilməsində Zati-alinizin qəti mövqeyinin göstəricisidir. 2010-cu ildə Azərbaycan hökuməti tərəfindən İslam Əməkdaşlıq Təşkilatına bağlı beynəlxalq qurum kimi İƏTGF-nin Avrasiya Regional Mərkəzinə Bakıda ev sahibliyinin edilməsi və dəstəklənməsi regionumuzun liderləri üçün gözəl nümunədir. Zati-alinizin İƏTGF-nin beynəlxalq təşkilat kimi yaradılması və institusionallaşması üçün verdiyi dəstəkdən qürur duyur, bunu Azərbaycan Respublikasının İƏT-ə mühüm töhfəsi hesab edirik. Biz İƏTGF Avrasiya Regional Mərkəzinin İdarə Heyəti olaraq Zati-alinizin etimadı, dəstəyi və qardaş Azərbaycana rəhbərliyi ilə fəxr edir və davamlı olaraq bu etimadı doğrultmaq üçün çalışırıq.

Sizin Azərbaycanda 2017-ci ili "İslam Həmrəyliyi İli" elan etməyiniz və həmin il Bakıda İslam Həmrəyliyi Oyunlarının keçirilməsi İslam coğrafiyası üçün mühüm hadisələrdən biri idi.

Sizin müdrik siyasətiniz sayəsində Azərbaycanın bütün əraziləri üzərində tam suverenliyini və hüquqi nəzarətini bərpa etməsi təkcə Azərbaycan tarixində deyil, İslam ölkələri tarixində də son iki yüz ildə əldə edilmiş ilk və böyük uğurdur.

Şuşa şəhərinin bu il İslam dünyasının mədəniyyət paytaxtı və İslam Əməkdaşlıq Təşkilatının gənclər paytaxtı seçilməsi Sizin müsəlman dünyasında nüfuzunuzun bariz göstəricisidir. İnanırıq ki, bu il Azərbaycan, xüsusilə Şuşa şəhəri müsəlman gənclərinin həmrəylik mərkəzinə çevriləcəkdir.

Möhtərəm Prezident, İƏT ölkələrinin həmrəyliyinə dəstək verən və qardaş Azərbaycanı inkişaf etdirən fəaliyyətinizə görə Sizə təşəkkür edir, ən xoş arzularımızı bildirmək şərəfinə nail oluruq.

Zati-alinizi bir daha təbrik edir, Sizə və ailənizə möhkəm cansağlığı, uğurlar diləyirik. Ən yüksək ehtiramımızı və xoş arzularımızı qəbul etməyinizi xahiş edirik.

**Hörmətlə,**

**İslam Əməkdaşlıq Təşkilatı Gənclər Forumunun Avrasiya Regional Mərkəzinin İdarə Heyəti:**
**İdarə Heyətinin sədri –** ***Elçin ƏSGƏROV***
**İdarə Heyətinin üzvləri:**
***Abdulaziz MUMİNOV (Özbəkistan)***
***Askar ŞAİKİDİNOV (Qırğızıstan)***
***Vajiha HARİS (Rumıniya)***
***Janat ÇUKEYEV (Qazaxıstan)***
***Akerke İSKANDEROVA (Qazaxıstan)***
***Fsahat Ul-HASSAN (Pakistan)***
***Aygül QABDRAHMANOVA (Tatarıstan)***
***Rafiq İSMAYILOV – baş direktor***
***Vüsal QURBANOV – baş direktor***

*

**Zati-aliləri!**

Allahın salamı, mərhəməti və bərəkəti üzərinizdə olsun!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə səmimi təbriklərimi çatdırmaqdan məmnunluq duyuram. Seçkilərdəki qələbəniz Azərbaycan vətəndaşlarının Zati-alinizə olan etimadını və onların əldə edilmiş nailiyyətləri qorumaq, inkişaf etdirmək istəklərini nümayiş etdirir.

Sizə uğurlar arzulayır, ölkələrimizin maraqlarını qorumaq və qardaş xalqlarımız üçün hərtərəfli inkişaf imkanlarını artırmaq naminə ikitərəfli əməkdaşlıq əlaqələrini möhkəmləndirmək əzmimizi ifadə edirik.

Ən yüksək ehtiramımızı qəbul etməyinizi xahiş edirəm.

**Hörmətlə,**

***Ammar Əl-HAKİM,***
***İraqın Milli Dövlət Qüvvələri Alyansının prezidenti***

*

**Zati-aliləri!**

Yenidən Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

İnanıram ki, Sizin liderliyinizlə Azərbaycan inkişafa doğru daha sürətlə irəliləyəcək, ölkədə sosial və iqtisadi sabitlik dərinləşəcək, xalqınızın rifahı naminə yeni nailiyyətlər əldə ediləcək.

Əminəm ki, ölkələrimiz arasındakı ənənəvi dostluq münasibətləri dərinləşəcək və ikitərəfli əməkdaşlığın yeni sahələri üzrə daha da inkişaf edəcək. Mən bu münasibətlərin hərtərəfli yüksəlməsində, o cümlədən iqtisadi-ticari sahədə daha yaxşı nəticələr əldə olunmasında maraqlıyam. Buna görə də bu fürsətdən istifadə edərək yaxın gələcəkdə Sizinlə şəxsən görüşmək və ölkənizə rəsmi səfər etmək istədiyimi bildirirəm.

Hörmətli cənab Prezident, Sizə möhkəm cansağlığı və məsul vəzifənizin icrasında uğurlar arzulayır və görüşümüzü səbirsizliklə gözləyirəm.

**Hörmətlə,**

***Robert FİTSO,***
***Slovakiya Respublikasının Baş naziri***

*

**Hörmətli cənab Prezident!**

Yenidən dost və qardaş Azərbaycanın Prezidenti seçilməyiniz münasibətilə Sizi Türkiyə Vəkillər Kollegiyasının İdarə Heyəti adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik etməkdən və fəaliyyətinizdə uğurlar arzulamaqdan məmnunluğumu bildirirəm.

İnanıram ki, ölkələrimizin daha parlaq, firavan gələcəyi naminə dostluq və qardaşlıq münasibətlərimizi daha da möhkəmləndirmək üçün yeni fəaliyyətiniz dövründə də səylərinizi davam etdirəcəksiniz. Həmçinin ölkələrimizdə vəkillik fəaliyyətinin inkişafı, qanunun aliliyinin və insan haqlarının qorunması istiqamətində görülən işlərin bundan sonra da davam etdiriləcəyinə əminəm.

Azərbaycan və Türkiyə xalqları arasındakı münasibətlərin tarixi uzaq keçmişə gedib çıxır. Qırılmaz tellərlə bir-birinə bağlı olan xalqlarımız ortaq mədəni mirasa sahibdir.

Cənab Prezident, seçkilərdə qələbəniz münasibətilə Sizi bir daha təbrik edir, qardaş Azərbaycana uğurlar arzulayıram.

**Hörmətlə,**

***Erinç SAĞKAN***
***Türkiyə Vəkillər Kollegiyasının sədri***

*

**Hörmətli cənab Prezident!**

Azərbaycanda keçirilən prezident seçkilərində qələbə qazanaraq yenidən dövlət başçısı seçilməyiniz münasibətilə Sizə təbriklərimi çatdırır, fəaliyyətinizdə uğurlar arzulayıram.

Azərbaycanın inkişafı və xalqın rifahının yüksəlməsi, eləcə də ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin daha da möhkəmləndirilməsi istiqamətində səylərinizi xüsusi olaraq qeyd edirəm.

Sizi, dost və qardaş Azərbaycan xalqını bir daha təbrik edir, xoş arzularımı bildirirəm.

**Hörmətlə,**

***İbrahim KÖŞDƏRƏ,***
***Türkiyə Böyük Millət Məclisinin Ədalət və İnkişaf Partiyasından olan deputatı***

*

**Hörmətli cənab Prezident!**

Azərbaycanda keçirilən seçkilərdə qalib gələrək yenidən Prezident seçilməyiniz münasibətilə Zati-alinizi Hak İşçi Sindikatları Konfederasiyası adından təbrik edir, seçkilərin nəticələrinin dost və qardaş Azərbaycan xalqı və bölgəmiz üçün xeyirli olmasını diləyirəm.

Konfederasiyamız "Bir millət, iki dövlət" şüarı ilə Türkiyə və Azərbaycanın həmkarlar ittifaqları arasında əməkdaşlığın inkişafını ölkələrimizin ictimai əlaqələrinin və tərəqqinin bir vasitəsi hesab edir. Bu əməkdaşlığın həm ölkələr arasındakı dostluğu daha da möhkəmləndirəcəyinə, həm də davamlı inkişaf hədəfinə töhfə verəcəyinə inanırıq.

Cənab Prezident, Sizin uğurlu fəaliyyətinizin Azərbaycan xalqına tərəqqi, rifah və əmin-amanlıq gətirməkdə davam edəcəyinə inanırıq.

**Hörmətlə,**

***Mahmud ARSLAN,***
***Türkiyənin Hak İşçi Sendikaları Konfederasiyasının baş direktoru***

*

**Möhtərəm cənab Prezident!**

Fədakar rəhbərliyinizlə tam azad edilmiş ərazilər də daxil olmaqla ilk dəfə bütün Azərbaycanda fevralın 7-də keçirilən prezident seçkilərində parlaq qələbəniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan xalqı Sizi – çox böyük nüfuza malik, dərin inam və sevgi bəslədiyi Müzəffər Ali Baş Komandanı, təhlükəsiz və firavan gələcəyin təminatçısını seçdi.

Dünyanın ən nüfuzlu, güclü liderlərindən biri olaraq Siz ölkənin ərazi bütövlüyünü, suverenliyini tam bərpa etmisiniz, iqtisadiyyatını, mədəniyyətini, incəsənətini inkişaf etdirmisiniz. Bir sözlə, Siz Azərbaycanın bütün vətəndaşlarının arzu və istəklərini həyata keçirirsiniz. Sizə sonsuz təşəkkür edirəm.

**Dərin ehtiramla,**

***Adilə ƏLİYEVA,***
***Azərbaycanın Əməkdar artisti, pianoçu, Azərbaycanın "Dostluq" ordeni, Fransanın "Fəxri Legion" ordeni ilə təltif edilmiş, BMT nəzdində Universal Sülh Federasiyasının sülh səfiri, Fransa Respublikası***

*

**Çox hörmətli cənab Prezident!**

Suverenliyimizi tam bərpa etdikdən sonra Azərbaycanın bütün ərazisində, o cümlədən Sizin rəhbərliyiniz altında azad edilən torpaqlarda ilk dəfə keçirilən Azərbaycan Respublikasının Prezidenti seçkilərində inamlı qələbəniz münasibətilə Azərbaycan Avropa Yəhudiləri İcması adından Sizi ürəkdən təbrik edirik.

Seçicilərin yekdil dəstəyi Azərbaycan xalqının Sizin yüksək nüfuzunuza tam etimad göstərdiyini təsdiq etdi.

Sizin Azərbaycanda yaşayan bütün xalqların həyat səviyyəsinin yaxşılaşmasına verdiyiniz töhfə göz qabağındadır. Sizin davamlı əməyiniz sayəsində ölkə vətəndaşlarının həyatı hər gün daha da yaxşılaşır, daha keyfiyyətli, xoşbəxt olur. Bu, Azərbaycanın böyük yəhudi icmasında da tam hiss olunur. Sizin rəhbərliyiniz sayəsində ölkəmizdə hamı üçün əlverişli, tolerant mühit yaradılmışdır.

Sizə - möhtərəm Prezidentimizə Azərbaycan xalqının rifahı naminə planlarınızı həyata keçirmək üçün səmimi qəlbdən davamlı uğurlar, möhkəm cansağlığı, əsl xoşbəxtlik və tükənməz güc, qüvvət arzulayırıq.

**Hörmətlə,**

***Aleksandr ŞAROVSKİ,***
***Avropa yəhudilərinin Bakı dini icmasının sədri***
***Yevgeni BRENNEYSEN,***
***Avropa yəhudilərinin Bakı dini icması sədrinin müavini Şneor SEQAL,***
***Avropa yəhudilərinin Bakı dini icmasının baş ravvini***

**Azərbaycan Respublikası, Bakı şəhəri**

*

**Hörmətli cənab Prezident!**

Şimali Osetiya-Alaniya Respublikası "Azərbaycanlılar Konqresi" adından Azərbaycan Respublikasında keçirilmiş növbədənkənar Prezident seçkilərində qazandığınız parlaq qələbə münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirik. Bu qələbə Azərbaycan vətəndaşlarının Sizin liderliyinizə olan sonsuz etimadının təzahürüdür.

Sizin müdrik siyasətiniz sayəsində Azərbaycan sosial və iqtisadi inkişaf istiqamətində ciddi irəliləyişə nail olmuş, hər bir vətəndaşın təhlükəsizliyi və firavanlığı təmin edilmiş, ölkəniz regional liderə çevrilərək beynəlxalq nüfuza sahib olmuşdur.

Əminik ki, Sizin davamlı müdrik rəhbərliyiniz və liderliyiniz sayəsində Azərbaycan və Rusiya arasında dostluq, tərəfdaşlıq münasibətləri daha da güclənəcək və inkişaf edəcəkdir.

Möhtərəm Prezident, Sizə möhkəm cansağlığı, ali dövləti vəzifənizdə yeni-yeni uğurlar, Azərbaycan xalqına isə sülh və əmin-amanlıq arzu edirik.

**Hörmətlə,**

**Şahin MƏMMƏDOV,**
**Şimali Osetiya-Alaniya Respublikası "Azərbaycanlılar Konqresinin" fəxri prezidenti,**
**Murtuza GÜLMƏMMƏDOV,**
**Konqresin sədri.**

**Rusiya Federasiyası, Şimali Osetiya-Alaniya Respublikası, Vladiqafqaz şəhəri**

*

**Hörmətli cənab Prezident!**

Növbədənkənar prezident seçkilərində qazandığınız parlaq qələbə münasibətilə Sizi təbrik edir, yeni-yeni uğurlar arzulayırıq.

Azərbaycan xalqının rifahının, xoşbəxt gələcəyinin təmin olunması, torpaqlarımızın işğaldan azad olunması, dünya ölkələri arasında nüfuzunun artması, siyasi sabitliyin qorunub saxlanması Sizin apardığınız müdrik, düşünülmüş daxili və xarici siyasətin nəticəsidir.

Cənab Prezident, xaricdə yaşayan dünya azərbaycanlıları kimi biz də Sizin siyasətinizi dəstəkləyir, Azərbaycan həqiqətlərini beynəlxalq ictimaiyyətə çatdırmaq üçün əlimizdən gələni edirik.

Fürsətdən istifadə edərək Sizə möhkəm cansağlığı, sağlam həyat, ölkəmizin tərəqqisi, xalqımızın rifahı naminə fəaliyyətinizdə müvəffəqiyyətlər diləyirik.

Tanrı Sizi qorusun!

**Hörmətlə,**

***Azər KƏRİMOV,***
***professor, Çexiya Azərbaycan Elm və Mədəniyyət Mərkəzinin sədri***

**Çex Respublikası**

*

**Hörmətli cənab Prezident!**

Ərazi bütövlüyümüzün bərpasında rolunuza yekun siyasi qiymət vermiş növbədənkənar prezident seçkisində qələbəniz münasibətilə Sizi təbrik edirik. Bu qələbəniz bir daha sübut etdi ki, xalqımızın Sizə olan inamı, güvəni sarsılmaz və daimidir.

Müasir dövrün tələblərinə uyğun apardığınız uğurlu siyasət Azərbaycanın inkişafına böyük töhfəsini verir və ölkəmiz bir çox sahələrdə dünyada və regionda lider qismində öz sözünü deyir.

Ulu Öndər Heydər Əliyevin siyasi xəttinin layiqli davamçısı olaraq Sizə növbəti Prezidentlik dönəmində müvəffəqiyyətlər arzulayırıq!

Prezidentimiz xalqa, xalqımız isə Prezidentimizə dayaqdır!

**Hörmətlə,**

***Ceyran QURBANOVA,***
***Gürcüstanda yaşayan Azərbaycanlı Məktəbli Gənclərin Mədəniyyət Mərkəzinin sədri***

**Gürcüstan, Tbilisi şəhəri**

*

**Hörmətli cənab Prezident!**

2024-cü il fevralın 7-də keçirilən növbədənkənar prezident seçkilərində qələbəniz münasibətilə Sizi – Ümummilli Lider Heydər Əliyevin siyasətini uğurla davam etdirən qalib Liderimizi Gürcüstanda fəaliyyət göstərən "Qanun" Hüquqi Yardım Mərkəzinin kollektivi adından təbrik edirəm.

Dünya azərbaycanlılarının adını qalib xalqlar siyahısına qızıl hərflərlə yazan, Azərbaycanın ərazi bütövlüyünü tam bərpa edən Liderin qələbə qazanması təbii idi. Bu Sizin siyasətinizin müdrikliyinə Azərbaycan xalqının inamını bir daha sübut etdi.

Gürcüstanda yaşayan azərbaycanlılar olaraq biz Sizi çox sevirik.

Sizə möhkəm cansağlığı və uzun ömür arzulayırıq!

**Hörmətlə,**

***Əli BƏDİROV,***
***"Qanun" Hüquqi Yardım Mərkəzinin baş direktoru***

**Gürcüstan, Tbilisi şəhəri**

*

**Hörmətli cənab Prezident!**

Azərbaycan Respublikasında keçirilmiş növbədənkənar prezident seçkilərində qazandığınız inamlı qələbə münasibətilə Sizi ürəkdən təbrik edirik.

Yeritdiyiniz uğurlu siyasi xətti davam etdirmək üçün Sizə möhkəm cansağlığı, tükənməz enerji və daha çox əzm diləyirik.

Norveçin azərbaycanlı gəncləri olaraq bu düşüncələrlə zəfərinizin həm xalqımız, həm də bölgəmiz üçün xeyirli olmasını diləyir, Sizə ali vəzifənizdə müvəffəqiyyətlər arzu edirik.

**Hörmətlə,**

***Fariz RZAYEV,***
***Norveç Azərbaycanlıları Gənclər Təşkilatının sədri***

**Norveç Krallığı, Oslo şəhəri**

*

**Hörmətli cənab Prezident!**

Müzəffər Ali Baş Komandan!

Sizi, Avstriya Respublikasında yaşayan azərbaycanlılar adından ürəkdən salamlayır və fevralın 7-də keçirilən növbədənkənar prezident seçkilərində qazandığınız qələbə münasibətilə böyük fəxr hissi ilə səmimi-qəlbdən təbrik edirəm.

Cənab Prezident, bu gün qürur hissi ilə deyirik ki, Azərbaycanın hər qarış torpağında xalqımız səs verdi, qalib Liderini dəstəklədi.

Dünyada yaşayan əlli milyondan çox azərbaycanlını müzəffər Lider olaraq Sizin atdığınız hər bir addım sevindirir, ruhlandırır. Əminliklə deyə bilərik ki, Azərbaycan bundan sonra daha da qüdrətlənəcək, güclənəcək. Biz Avstriyada yaşayan azərbaycanlılar olaraq buna bütün qəlbimizlə inanırıq, çünki bu gün bütün dünya Sizin həm cəbhədə, həm də siyasi arenada qazandığınız misilsiz qələbələrdən danışır. Qələbə Sizə və xalqımıza çox yaraşır.

Möhtərəm Prezident, Sizə ali vəzifənizdə müvəffəqiyyətlər, tükənməz güc-qüvvət, möhkəm cansağlığı, xalqımıza isə sülh və əmin-amanlıq arzulayırıq.

**Hörmətlə,**

***Fərid ƏZİZOV,***
***Avstriya Azərbaycanlıları Cəmiyyəti və Zalsburq Azərbaycan Evinin rəhbəri, Kempo-Karate idman növü üzrə 6 qat Dünya və Avropa çempionu***

**Avstriya Respublikası, Zalsburq şəhəri**

*

**Xalqının qəhrəman Prezidenti!**

Sizin rəhbərliyiniz dövründə Azərbaycan Respublikası beynəlxalq hüququn prinsipləri və BMT nizamnaməsinə sadiqliyini qorumaq, ölkənin ərazi bütövlüyünü və suverenliyini bərpa etmək istiqamətində əzmkar mövqe nümayiş etdirmiş və buna nail olmuşdur.

Sizin strateji siyasətiniz və sadiqliyiniz sayəsində Azərbaycan sosial və iqtisadi inkişaf istiqamətində ciddi şəkildə irəliləmiş, hər bir vətəndaşın təhlükəsizliyi və firavanlığı təmin edilmiş, ölkəniz regional liderə çevrilərək beynəlxalq nüfuza sahib olmuşdur.

Sizi Azərbaycan Respublikasında keçirilmiş növbədənkənar prezident seçkilərində qazandığınız parlaq qələbə münasibətilə səmimi-qəlbdən təbrik edirik. Bu qələbə Azərbaycan vətəndaşlarının Sizin liderliyinizə olan hədsiz etimadının təzahürüdür.

Möhtərəm Prezidentimiz, Sizə möhkəm cansağlığı, ali dövləti vəzifənizdə yeni-yeni uğurlar, Azərbaycan xalqına isə sülh və əmin-amanlıq arzu edirik.

***Rəhmətulla BABAYEV,***
***İnquşetiya Azərbaycanlıları Şuşa Regional Milli-Mədəni Mərkəzinin fəxri prezidenti***

**Rusiya Federasiyası, İnquşetiya Respublikası, Malqabek şəhəri**

*

**Hörmətli cənab Prezident!**

2024-cü ilin fevralın 7-də keçirilmiş növbədənkənar prezident seçkilərində qazandığınız inamlı qələbə münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Müstəqillik tarixində ilk dəfə olaraq Azərbaycanın bütün suveren ərazisində keçirilən seçkilər ölkə vətəndaşlarının Sizə olan yüksək etimadını bir daha nümayiş etdirdi.

İnanıram ki, müdrik rəhbərliyiniz nəinki Azərbaycanda, eləcə də bütün bölgədə sülhün və əmin-amanlığın qarantı olacaqdır.

Cənab Prezident, Sizə Azərbaycan xalqının rifahı naminə, həmçinin dünya azərbaycanlılarının birliyi və inkişafı yolunda qarşıya qoyduğunuz ali məqsədlərə nail olmağınızı arzulayıram.

Allah Sizi qorusun!

**Hörmətlə,**

***Ruslan HACIYEV,***
***Gürcüstanın sabiq deputatı***

**Gürcüstan**

# Ermənistan vaxtında cəzalandırılsaydı...

## Lakin havadarları hayları yeni müharibəyə qısqırdırlar

**Azərbaycan dövləti və xalqı torpaqlarının uzun illər ərzində işğal altında qalması ilə barışmayaraq, 2020-ci ilin payızında 44 günlük Vətən müharibəsi apararaq ərazilərinin böyük bir hissəsini, təxminən 10 min kvadratkilometri işğaldan azad etdi. 2023-cü ilin sentyabrın 19-da başlayan lokal xarakterli antiterror tədbirləri nəticəsində isə qanunsuz xunta rejiminin sığındığı digər ərazilər də separatçılardan təmizləndi. Bir sutkadan az davam edən antiterror tədbirləri nəticəsində Azərbaycan həm öz ərazi bütövlüyünü, həm də dövlət suverenliyini tam bərpa etdi.**



Prezident İlham Əliyevin fevralın 14-də Milli Məclisdə keçirilən andiçmə mərasimində dediyi kimi, antiterror tədbirləri bir daha Silahlı Qüvvələrimizin gücünü göstərdi. Dövlətimizin başçısı bildirdi ki, cəmi bir neçə saat ərzində Ermənistan ordusunun təxminən 15 minlik ekspedisiya korpusu tamamilə iflic vəziyyətinə salındı və onlar ikinci dəfə kapitulyasiya aktına imza atmağa məcbur oldular. Bununla da Azərbaycan ərazisində separatizmin kökü kəsildi.

Ancaq həm Vətən müharibəsi, həm də antiterror tədbirləri baş verməyə də bilərdi. Əlbəttə, əgər özünü "beynəlxalq ictimaiyyət" adlandıran, dünya ölkələrinin hamısının adından danışmağa cəhd edən bir neçə böyük dövlət Ermənistana havadarlıq etməsəydi, onun işğalçılıq siyasətini pisləsəydi bütün bu qanlı-qadalı hadisələr də baş verməzdi. Özlərini dünyada sülh və əmin-amanlığın təmin olunmasına cavabdeh kimi aparan həmin ölkələr isə ötən müddət ərzində İrəvana nəinki hansısa sanksiya tətbiq etdilər, heç ona "gözün üstə qaşın var" da demədilər.

Hadisələrin 1988-ci ildən üzü bəri xronoloji ardıcıllığına baxdıqda da, hayların torpaqlarımızı xarici havadarlarının köməyi ilə işğal etdiyini aydın görmək olar. Həmin dövrdə "yenidənqurma" adı altında, əslində, SSRİ-nin dağılması prosesi başlamışdı. Moskvadakı bəzi ermənipərəst mərkəzlər o dövrdə mövcud olan Dağlıq Qarabağ Muxtar Vilayətinin Azərbaycandan ayrılması prosesini hər vəchlə dəstəkləyirdilər. Qarabağın idarəçiliyi Azərbaycan SSR-in mərkəzi hakimiyyətindən alınaraq Xüsusi İdarəetmə Komitəsinə verilmişdi. Bilavasitə Mixail Qorbaçovun tapşırığı ilə 1988–1990-cı illərdə bədnam Arkadi Volski Xüsusi İdarəetmə Komitəsinə rəhbərlik edirdi.

Ancaq ermənilərin havadarları təkcə sovet rejimi deyildi. Onları Avropada, okeanın o tayında da kifayət qədər dəstəkləyən var idi. Təsadüfi deyil ki, Qarabağın Azərbaycandan ayrılması ilə bağlı ilk mənfur çıxış hazırda ermənilərdən çox ermənilik edən Fransa qəzetində edilib. Prezident İlham Əliyevin qeyd etdiyi Fransa qəzeti isə həmin ölkədə çap olunan "Humanite" qəzetidir. 1987-ci ilin noyabrın 18-də Parisdə çıxan "Humanite" qəzetində M.Qorbaçovun iqtisadi məsələlər üzrə müşaviri Abel Aqanbekyanın müsahibəsi dərc olunub. Bədnam müşavir–akademik həmin müsahibəsində deyib: "Mən Qarabağın Ermənistanın tərkibində olmağını istəyirəm. Bir iqtisadçı kimi hesab edirəm ki, Qarabağ iqtisadi cəhətdən Azərbaycandan çox Ermənistana bağlıdır".

Yeri gəlmişkən, qeyd edək ki, Qərbin Qarabağdakı erməni separatizmini, eləcə də, bütövlükdə, erməniləri dəstəkləməkdə üç niyyəti var idi. Qərb İttifaq daxilində etnik separatizm ocaqlarının, millətlərarası münaqişənin yaradılmasına ilk növbədə SSRİ-nin dağılmasını sürətləndirəcək katalizator kimi yanaşırdı. Təsadüfi deyil ki, hazırda siyasi elmlər üzrə araşdırmaçılar SSRİ-nin dağılmasının səbəblərindən biri kimi etnik münaqişləri və millətlərarası münasibətlərin pisləşməsini qeyd edirlər. Qərbli siyasətçilərin ikinci məqsədi həmin ölkələrdə yaşayan erməni əsilli seçicilərin səslərini qazanmaq, üçüncüsü isə "üç tərəfdən müsəlman dövlətləri ilə əhatə olunmuş Şərqdə xristianlığın qalası"nı qorumaq idi.

Bu gün Azərbaycana hücumlar edən, əsassız ittihamlar irəli sürən Avropa Parlamenti hələ 1989-cu ilin yanvarında Qarabağda gərginləşən münaqişə ilə bağlı qəbul etdiyi qətnamədə ölkəmizi suçlamışdı.

Okeanın o tayındakı siyasətçilər, xüsusilə demokratlar da cidd-cəhdlə erməniləri dəstəkləmək işinə girişmişdilər. Onlar erməniləri məmnun etmək üçün onların separatçılığına və işğalçılıq əməllərinə göz yumurdular. ABŞ-dakı erməni lobbisinin gücü ilə bağlı 39-cu prezident Cimmi Karterin milli təhlükəsizlik məsələləri üzrə müşaviri olmuş polyak əsilli Zbiqnev Bjezinskinin sözlərini burada xatırlatmaq yerinə düşər. Bjezinski 2006-cı ildə "Foreign Policy" jurnalına müsahibəsində bildirmişdi ki, erməni lobbisi Amerikada ən təsirli, ən efefktiv işləyən etnik lobbilərdən biridir. Məhz erməni lobbisinin səyləri nəticəsində 1992-ci ildə Azərbaycana ABŞ-ın birbaşa yardımlarını qadağan edən bədnam 907-ci düzəliş qəbul edilmişdi.

Düzdür, 1993-cü ildə BMT Təhlükəsizlik Şurasında Azərbaycan torpaqlarının qeyd-şərtsiz işğaldan azad edilməsi ilə bağlı qətnamə qəbul olundu. Ancaq ötən 27 il ərzində həmin qətnamələr icra olunmamış qaldı. Böyük dövlətlər Ermənistanın işğalçılıq siyasətini pisləmədilər, ona silah satışını qadağan etmədilər. Əksinə, ATƏT-in Minsk qrupu adlanan mənasız qurum yaradaraq vaxtı uzatmaqla, status-kvonu möhkəmləndirməklə məşğul oldular. Həmsədr ölkələr 2009-cu ildə BMT Baş Assambleyasında Azərbaycanın ərazi bütövlüyü ilə bağlı keçirilən səsvermədə ölkəmizin əleyhinə səs verdilər. Uzun, yorucu və səmərəsiz danışıqalr prosesi zamanı bəzi hallarda Azərbaycana təzyiq göstərərək reallıqla barışmağa çağırdılar. Əgər onlar fərqli mövqe tutsaydılar, Ermənistana sülhə gəlmək üçün təzyiq etsəydilər, İkinci Qarabağ müharibəsinə də ehtiyac qalmazdı.

Bu məqamlar Prezident İlham Əliyevin andiçmə mərasimindəki proqram xarakterli nitqində də özünə yer tapmışdı. Dövlətimizin başçısı bildiridi ki, İkinci Qarabağ müharibəsi şanlı tariximizdir. Ancaq müharibə olmaya bilərdi, əgər Ermənistan və onun rəhbərliyi, ermənilərin arxasında dayanan qüvvələr beynəlxalq hüquqa, BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsinə əməl etsəydilər: "Əgər böyük dövlətlər Ermənistana onun işğalçılıq siyasətinə görə sanksiyalar tətbiq etsəydilər, heç olmasa, onların işğalçılıq siyasətini pisləsəydilər, bəlkə də müharibəyə ehtiyac qalmazdı. Azərbaycan dövləti uzun illər ərzində təmkinlilik göstərirdi, eyni zamanda aparılan danışıqlara sadiqlik göstərirdi. Baxmayaraq ki, illər keçdikcə bizim ümidlərimiz də tükənirdi, işğalçı dövlət daha da azğınlaşırdı, hesab edirdi ki, bizim torpaqlarımızı əbədi işğal altında saxlaya bilər.

O inamı onlara verənlər Ermənistan rəhbərliyi ilə bərabər bütün məsuliyyəti daşıyırlar və bölüşürlər. Mən dəfələrlə müxtəlif tədbirlərdə, eyni zamanda Ermənistan rəhbərliyi ilə, onlara dəstək verən böyük dövlətlərin rəhbərləri ilə söhbətlər əsnasında deyirdim ki, Azərbaycan heç vaxt bu vəziyyətlə barışmayacaq. Deyirdim ki, nə qədər gec deyil, Ermənistanı inandırın və özünüz də lazımi addımlar atın ki, bu işğala son qoyulsun. Ancaq əfsuslar olsun ki, bütün çağırışlarım, bütün xəbərdarlıqlarım havada qaldı. Sanki kimsə hesab edirdi ki, Azərbaycan xalqı bu işğalla barışmalı olacaq. Biz isə döyüş meydanında göstərdik ki, nəyə qadirik. Biz döyüş meydanında cəmi 44 gün ərzində Ermənistan ordusunu tamamilə darmadağın etmişdik..."

Bəli, Ermənistanın müharibə zamanı verdiyi itkilərdə, sonradan Qarabağdan köçüb getmələrində, daha sonra Ermənistanda da qalmayıb Rusiyaya, dünyanın dörd bir yanına səpələnmələrində hayların xəstə təxəyyülləri ilə yanaşı onlara dəstəvuz verən, arxasında dayanan qüvvələr məsuliyyət daşıyırlar. Bu gün onlar haylara "canıyananlıq" etməyə çalışırlar. Prosesin əsas istiqaməti qismində isə Azərbaycana əsassız hücumlar etməyi seçirlər. Ancaq onlar bilməlidirlər ki, bu günün Azərbaycanı 30 il əvvəlki ölkə deyil.

**Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin şöbə müdiri, politoloq Cavid Vəliyev də bu fikirdədir ki,** İkinci Qarabağ müharibəsinin baş verməsində beynəlxalq sistemin və düzənin, beynəlxalq hüququn qorunmasında başlıca rol oynamalı olan təşkilatların, o cümlədən özlərini "böyük" hesab edən dövlətlərin birbaşa rolu var. O, "XQ"-yə açıqlamasında bildirdi ki, söhbət ilk növbədə BMT TŞ-nin 4 qətnaməsinin icra olunmamasından gedir. Həmin qətnamələrdə Qarabağın Azərbaycan əraziləri olduğu və işğal edildiyi açıqca bildirilib. Lakin buna baxmayaraq, qətnamələr



yerinə yetirilmədi və nəticədə Azərbaycan öz hərbi gücü hesabına qətnamələri yerinə yetirməyə məcbur oldu: "Yəni Azərbaycan, əslində, beynəlxalq hüququn prinsipini yerinə yetirdi. Qətnamələr bunun birbaşa sübutudur. Digər tərəfdən, qətnamələrin yerinə yetirilmədiyini bir yana qoyaq, hətta işğalçı dövlət cəzalandırılmadı. Nəinki cəzalandırılmadı, əksinə ödüllərdirildi. Beynəlxalq hüquqa, BMT Nizamnaməsinə görə, əgər bir dövlət işğalçıdırsa, ona sanksiya tətbiq olunmalı, cəzalandırılmalıdır".

Politoloqun sözlərinə görə, biz gördük ki, Ermənistan ötən 30 ilə yaxın dövr ərzində mükafatlandırıldı. Ona maddi, hərbi yardımlar edildi, siyasi imkanlar yaradıldı: "Əksinə, Azərbaycana təzyiq etməyə çalışdılar. Mən bunu çox yaxşı xatırlayıram. Ermənistan ərazilərimizi işğal altında saxladığı halda Bakı–Tbilisi–Ceyhan əsas neft kəmərinin, Bakı–Tbilisi–Qars dəmir yolunun çəkilişlərinin müzakirəsi zamanı ölkəmizə təzyiq edirdilər ki, bu xətlər Ermənistandan keçsin. Təbii ki, bütün bunlar Azərbaycanın məsələnin sülh yolu ilə həllini tapacağına olan ümidlərini tamamilə yox etdi. Nəticədə müharibəyə doğru yol göründü. Əslində, müharibə ikili standartların nəticəsi kimi meydana çıxdı".

C.Vəliyev əlavə etdi ki, Minsk qrupunun vasitəsilə davam edən danışıqlar zamanı tərəflərə layihələr təqdim olunurdu. Hər dəfə təklif edilənlər isə beynəlxalq hüququn kobud şəkildə pozulması idi: "Onlar deyirdilər ki, Azərbaycan tarixi torpaqlarından vaz keçsin və ermənilər orada öz dövlətlərini qursunlar. Əlbəttə, Azərbaycan bunu qəbul edə bilməzdi və etmədi. Nikol Paşinyan iqtidarı dövründə – müharibəyədək törədilən təxribatlara görə də Ermənistana heç bir sanksiya tətbiq olunmadı. Azərbaycan müstəqil, güclü dövlət olaraq beynəlxalq hüquqdan irəli gələn vəzifələri yerinə yetirdi və BMT Nizamnaməsinin 51-ci maddəsinə uyğun olaraq işğal altındakı ərazilərini azad etdi".

**Səxavət HƏMİD**
**XQ**

**Tarixi hadisələr onların müəllifi və şahidi olan insanların, eləcə də sonrakı nəsillərin hafizəsinə həm də özünəməxsus rəmzləri, atributları ilə daxil olur. Bəzən də günün qəhrəmanının dilindən səslənən bir kəlmə söz, etdiyi jest həmin hadisəni daha əlamətdar və unudulmaz edir.**

2024-cü il 7 fevral növbədənkənar prezident seçkilərini yaddaqalan edən atributlar yüksək seçici fəallığı, xalqın dilində əsl Zəfər seçkisinə çevrilməsi ilə yanaşı, eyni zamanda heç vaxt unudulmayacaq an və məqamlarla, çıxış və jestlərlə müşayiət olunması idi. Ağsuda 101 yaşlı ağbirçəyin öz ayağı ilə, Şabranda birinci qrup əlilin, daşınma qutusunu gözləmədən əlil arabasında seçki məntəqələrinə gəlmələri o coşqulu günün salnaməsinə yazıldı.

Amma həmin günün yaddaşına qızıl hərflərlə həkk olunan və Azərbaycan durduqca daim xatırlanacaq bir hadisə də baş verdi. Məhz tarixi hadisə adlandırılmağa layiq həmin jestin müəllifi xalqın beşinci dəfə böyük etimadını qazanmış və bunu haqq etmiş İlham Əliyev idi. Budəfəki seçkilərin əsas əlaməti, atributu ondan ibarət idi ki, müstəqillik dövründə ilk dəfə ölkəmizin bütün ərazilərində keçirilirdi.

"Mən, bildiyiniz kimi, səsvermə prosesində Xankəndidə iştirak etmişdim. Azərbaycanın istənilən yerində səs verə bilərdim, ancaq hesab etdim ki, Xankəndidə səs verməyim daha düzgün olar. Məhz Xankəndidə hələ 1980-ci illərin sonlarında xalqımıza qarşı qanlı cinayətlər başlamışdır. Məhz Xankəndidə səs verdiyim binada xalqımıza qarşı soyqırımı planlaşdırılırdı və oradan idarə olunurdu. Məhz səs verdiyim binanın önündə yerləşən meydanda erməni millətçiləri və ondan sonra Ermənistan dövləti bizə qarşı ərazi iddialarını irəli sürmüşdü. Məhz o binada Qarabağı Azərbaycandan ayırmaq üçün hələ sovet dövründə xüsusi komitə yerləşdirilmişdi və o komitənin əsas məqsədi Qarabağı Azərbaycandan ayırmaq idi, bunu hər kəs bilir. Ona görə məhz orada otuz il bizim tarixi yerimizi, Pənahəli xan tərəfindən salınan o məkanı qanunsuz zəbt edən şeytanlar məhz orada da öz süqutunu özləri təsdiq etmişlər. Təbii ki, məcburən. Orada verdiyim səs, o qutuya atdığım bülleten, sadəcə olaraq, bülleten deyildi. Bu, erməni separatçılarının tabutuna vurulan son mismar idi".

# Sonuncu aşırım

## Yaxud separatçıların tabutuna vurulan dördüncü mismar



Fevralın 14-də Prezident İlham Əliyevin andiçmə mərasimindəki çıxışında söylədiyi bu sözləri həyəcansız dinləmək mümkün deyildi. Beş ay bundan əvvəl separatçıların tarixin "morq" adlı arxivinə göndərilmək üçün hazırlanmış tabutuna sonuncu – dördüncü mismarı seçki bülleteni formasında məhz cənab Prezident İlham Əliyev vurdu. Bu, ədalətin təntənəsi idi ki, buna bizimlə bərabər tarixin özü də şahidlik edirdi. Amma buna qədər artıq üç mismar separatçıların tabutunun qapağına vurulmuşdu. Əslində, bunu birmənalı olaraq deyə bilərik ki, 2020-ci ilin noyabrında ünvana çatdırılmış həmin qara tabutun dörd mismarının hamısının sifarişçisi "dəmir yumruq"lu Ali Baş Komandandır.

Xankəndidəki revanşist-separatçı rejimin "tərcümeyi-halına" qara günlərinin nişanəsi kimi yazılacaq qara tabutun birinci mismarı 2020-ci il noyabrın 10-da vurulmuşdu. Şuşanın azad edilməsi müasir hərb tarixinə yazılan əməliyyat planı olmaqla yanaşı, faktiki surətdə, İkinci Qarabağ müharibəsinə son qoydu. Qarabağın ən uca nöqtəsində qərar tutmuş bu qala–şəhərimizdə beli qırılan Ermənistan kapitulyasiya aktına imza atmağa məcbur oldu.

Möhtəşəm zəfərimizlə başa çatmış 44 günlük qurtuluş savaşının məntiqi yekunu Lider-Xalq-Ordu vəhdətinin yaradıcılıq emalatxanasında döyülmüş o mismar oldu. Hülqumu ipdən nazilmiş, yarıcan edilmiş daşnak tör-töküntüləri Qarabağımızdan çıxmağa tələsmir, rəsmi İrəvan imzası ilə boynuna götürdüyü öhdəliyi – fərari ordusunu torpağımızdan geri çəkməyi yerinə yetirməkdən boyun qaçırırdı. Onların Avropadakı "bacılarının", Asiyadakı "qardaşlarının" ucuz vədlərinə uyaraq boş ümidlərə qapılmasına, siyasi cığallığına, yersiz şıltaqlığına xalq kimi onun lideri də üç il dözdü. Səbrin və dözümün kasası 2023-cü il sentyabrın 19-da daşdı. İntizarla "sahibini" gözləyən qara tabutun ikinci mismarı həmin 23 saatlıq antiterror tədbirindən sonra vuruldu.

Yəqin, Azərbaycanın 2023-cü il noyabrın 8-də Xankəndinin mərkəzi meydanında keçirdiyi Zəfər paradını şərti sərhədin o üzündə əllərində durbin tamaşasına növbəyə durmuş erməni generalları daha maraqla izləyirdilər. Onlar həmin anlarda müzəffər nizami ordumuzun Zəfər paradını qəbul edən Ali Baş Komandanın göyə ucalmış dəmir yumruğunda tutduğu üçüncü mismarı da görməmiş deyildilər. Prezident İlham Əliyevin "bundan sonra bu torpaqlarda Azərbaycan Bayrağı əbədi dalğalanacaq. Biz azərbaycanlılar burada əbədi yaşayacağıq!" – sözləri erməni hərbi-siyasi rəhbərliyinin qulaqlarında sırğaya dönən həmin gün qara tabutun üçüncü mismarı vuruldu.

Dövlətinə və torpağına sahib çıxmış Azərbaycan xalqı indi öz doğma yurdunda alnıaçıq, üzüağ, qürurla yaşayır, qollarını çırmayıb xoşbəxt gələcəyinin binasını hörməyə başlayıb. Tarix durduqca duracaq bu möhtəşəm bina-qalanın memarı iyirmi ildən çoxdur gücünü, səriştəsini, zehnini Vətəninin və xalqının yolunda fəda etmiş, ata vəsiyyətini milli doktrina kimi yerinə yetirmiş İlham Heydər oğlu Əliyevdir!

Biz daha tabut sifariş vermək istəmirik. Umu-küsüyə son qoyub, qonşu ölkələrlə, bütün dünya ilə sülh və əmin-amanlıq içərisində yaşamaq istəyirik.

Fevralın 7-də cənab Prezidentin əlində mismara dönmüş həmin seçki bülleteni həm də ermənilərin keçilməz istehkama çevirdikləri sandıqları sonuncu aşırımın – "miatsum qalası"nın açarı oldu. Daha qarşımızda nə keçilməli aşırım, nə də fəth olunmalı qala qalıb. Prezidentliyinin 21-ci baharını qeyd etməyə hazırlaşan İlham Əliyevin üç gün bundan əvvəl andiçmə mərasimindəki nitqinin sonunda dediyi kimi:

"Biz öz məsələmizi həll etmişik. Biz bu gün Ağdamdayıq, Füzulidəyik, Laçındayıq, Cəbrayıldayıq, Zəngilandayıq, Qubadlıdayıq, Kəlbəcərdəyik, Şuşadayıq, Hadrutdayıq, Xocalıdayıq, Ağdərədəyik, Əsgərandayıq, Xankəndidəyik! Bu yeni dövr uğurla başlayır. Əminəm ki, uğurla da davam edəcək. Bu yolda hamımıza uğurlar! Yolumuz açıq olsun!".

**İmran BƏDİRXANLI**
**XQ**

**ARAYIŞ: 101 il əvvəl Xankəndinin Stepanakert olub şeytan yuvasına çevrilməsindən 2023-cü il sentyabrın 20-də üçrəngli bayrağımız asılana qədər keçilən tarixə qısa nəzər:**

Muxtar Dağlıq Qarabağ Vilayəti (MDQV) 1923-cü il iyulun 7-də Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinin dekreti ilə yaradılıb. 1981-ci il iyunun 16-da Azərbaycan Ali Soveti "Dağlıq Qarabağ Muxtar Vilayəti haqqında" (DQMV) qanun qəbul edib. 1988-ci il fevralın 13-dən Stepanakert şəhəri, Mardakert, Əsgəran, Martuni, Hadrut, Şuşa rayonlarından ibarət muxtar vilayətin Ermənistana verilməsi tələbi ilə separatçı hərəkat başlayıb. Fevralın 20-də DQMV-nin dövlət hakimiyyəti orqanı – Xalq Deputatları Soveti SSRİ, Azərbaycan və Ermənistan hakimiyyətləri qarşısında vəsatət qaldırıb. Vəsatətdə vilayətin Ermənistana birləşdirilməsi istəyi yer alıb. Bununla separatçı hərəkat açıq hərbi təcavüzə çevrilib. 1989-cu il yanvarın 12-də SSRİ Ali Sovetinin qərarı ilə DQMV Azərbaycanın idarəçiliyindən çıxarılaraq birbaşa Moskvaya bağlanıb və başında Arkadi Volskinin dayandığı Xüsusi İdarəetmə Komitəsi yaradılıb. Həmin il noyabrın 28-də Xüsusi İdarəetmə Komitəsi Azərbaycan xalq hərəkatının təzyiqləri nəticəsində ləğv edilib. 1990–1991-ci illərdə bölgə Bakının yaratdığı Respublika Təşkilat Komitəsi (rəhbəri – Viktor Polyaniçko) vasitəsilə idarə olunub. 1991-ci il sentyabrın 2-də Dağlıq Qarabağ erməniləri bölgəni "müstəqil dövlət" elan edib. Noyabrın 26-da Azərbaycan Ali Soveti DQMV-ni milli ərazi qurumu kimi ləğv edib. Həm 1923-cü il iyulun 7-də Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin qəbul etdiyi dekret, həm də 1981-ci il iyunun 16-da Azərbaycan SSR Ali Sovetinin qanunu qüvvədən salınıb.

1994-cü ildə atəşkəslə dayanan Birinci Qarabağ müharibəsində Xankəndi şəhəri, Şuşa, Xocalı, Laçın, Kəlbəcər, Qubadlı, Zəngilan rayonları tam, Xocavənd, Ağdərə, Ağdam, Füzuli, Cəbrayıl rayonları qismən işğal edilib. Həmçinin Sədərək rayonunun Kərki, Qazax rayonunun Aşağı Əskipara, Bağanıs Ayrım, Barxudarlı, Xeyrimli, Qızılhacılı, Sofulu, Yuxarı Əskipara kəndləri ələ keçirilib.

2020-ci il sentyabrın 27-dən noyabrın 10-dək davam edən İkinci Qarabağ savaşı nəticəsində Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı, Ağdam, Kəlbəcər, Laçın rayonları tam, Şuşa, Xocavənd, Xocalı, Ağdərə rayonları qismən azad olunub. 2023-cü il sentyabrın 19-da Azərbaycan Xankəndi, Xocalı, Ağdərə, Xocavənd şəhərləri, Şuşa, Xocalı, Xocavənd və Ağdərə rayonlarının bir hissəsinə nəzarət edən işğalçı rejimə qarşı antiterror tədbirinə başlayıb, ertəsi gün rejim tərksilah olmaq öhdəliyi götürüb, sentyabrın 28-də özünü buraxıb.

# Erməni siyasi düşüncəsində azğınlaşma etüdləri



(əvvəli 1-ci səhifədə)

Yeri gəlmişkən, bir məqamı da xatırladaq ki, hazırda erməni siyasi cameəsində Azərbaycan hərbçilərinin dayandıqları mövqelərin də Ermənistan olduğunu iddia edən və hərbi toqquşmanın ölkə ərazisində yaşandığını bildirənlər fəallaşıblar. Bu təsadüf sayıla bilməz. Axı Borrel sərhəd insidentinə münasibət bildirərkən onu da demişdi ki, hadisə hər iki tərəfdən qoşunların geri çəkilməsi zərurətini aktuallaşdırmaqdadır. Deməli, təxribatın əsas məqsədi elə budur. Və deməli, Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanın ötən ilin sonlarına doğru səsləndirdiyi fikir məqsədli siyasi düşüncə halına gətirilir.

**

Sərhəd toqquşması fonunda erməni politoloqların qabartdıqları növbəti məqama keçid alaq. Onlar bildirirlər ki, Bakı münasibətlərin qaydaya salınmasının konkret formulunu vermir, İrəvana qarşı uzunmüddətli təzyiqlərin gündəmdə saxlanılmasına çalışır. Ammaheç də belə deyil. Ölkəmizin rəhbəriyi, şəxsən Prezident İlham Əliyev mövqeyini qəti və aydın şəkildə açıqlayır: İşğal altında qalan səkkiz kəndimiz geri qaytarılmalıdır, 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanata uyğun olaraq, Azərbaycanın digər ərazilərini Naxçıvanla birləşdirən quru yolu təmin edilməlidir.

Ermənistan müharibə məğlubu kimi sözügedən üçtərəfli bəyanatla üzərinə götürdüyü öhdəliyi yerinə yetirməlidir. Yerinə yetirmir və erməni siyasilər, məsələn, bunu bildirirlər: Azərbaycan Ermənistandan 8 kənd tələb etsə də, bu tələbi hansı xəritə ilə irəli sürdüyünü açıqlamır. Onlar mövcud müstəvidə Bakının konkretlikdən qaçdığını vurğulayır və əlavə edirlər ki, guya, sərhədlərin delimitasiyası və demarkasiyası üçün hansısa xəritənin seçilməsi Bakını İrəvana qarşı hərbi hücumlar üçün saxta bəhanələr uydurmaq imkanından məhrum duruma salacaq.

Əlbəttə, bu tezis də cəfəngiyyatdır. Məsələ ondadır ki, Azərbaycan Ermənistanın nə üçün 1970-ci illərin xəritələrini əsas götürdüyünü sorğulayır. Bu barədə Prezident İlham Əliyevin də mövqeyi var. Dövlətimizin başçısı bildirib ki, 1918-ci ildə qədim Azərbaycan şəhəri olan İrəvan Ermənistana paytaxt kimi verildi. Lakin ermənilər bununla razılaşmayıb, keçmiş Sovetlər Birliyi dönəmində ərazi iddialarından daşınmadılar. 1969-cu ilin mayınadək Ermənistana torpaq peşkəşləri edildi. Yalnız ulu öndər Heydər Əliyev respublikamızda rəhbərliyə gəldikdən sonra proses dayandı.

Belə olan halda nə üçün 1970-ci illərin xəritələrinə istinad olunmalıdır? Hansı əsasla? Heç bir əsas yoxdur. Ona görə Azərbaycan sərhədlərin müəyyənləşdirilməsinin fərqli metodologiya ilə həyata keçirilməsini tələb edir. Bu, tam ədalətli mövqedir. Sərhədlər qarış-qarış müəyyənləşməli, mövcud istiqamətdə ekspert qrupları fəaliyyət göstərməlidirlər. Erməni tərəfi haqqın və ədalətin bərpasında maraqlı olmalıdır. Çünki Azərbaycanın irəli sürdüyü ədalət formulu ilə Ermənistan adlı dövlətin mövcudluğu davamlı ola, ən əsası isə onun varlığı təsdiqlənə bilər. Paşinyanın təbirincə desək, ölkə özünə “doğum şəhadətnaməsi” alar. İndiki durumda Ermənistanın bic doğulmuş uşaqdan heç bir fərqi yoxdur.

*

Erməni ekspertlər “uzaqgörənliklə” də məşğuldurlar. Onlar bildirirlər ki, guya, Azərbaycan sərhədlərin demarkasiyası ilə bağlı qeyri-müəyyənliyi saxlamaqla, Donald Trampın ABŞ prezidenti seçilməsinə ümid bəsləyir. Bu yerdə onlar Birləşmiş Ştatların eks prezidentinə yüklənirlər və bildirirlər ki, o, Azərbaycan Türkiyə və Rusiya ilə razılaşaraq, 2020-ci ildə Qarabağa hərbi hücum həyata keçirməyə icazə verdi.

Göründüyü kimi, ortada son dərəcə absurd yanaşma var. Erməni siyasilər, elə Ermənistan rəsmiləri kimi, “Azərbaycanın Qarabağa hücumu” məntiqini qabardırlar. Onlar üçün heç bir beynəlxalq hüquq normaları yoxdur. Bu adamlar bir tərəfdən Ermənistanın ərazi bütövlüyünün və suverenliyinin toxunulmazlığından söz açırlar, digər yandan əsaslandırma aparırkən, Qarabağı Ermənistan kimi göstərməyi qanunauyğunluq sayırlar.

*

Erməni siyasi istableşmentinin hazırkı anti-Azərbaycan ritorikasının tərkibində yer alan mövzulardan biri də haqqında söz açdığımız Naxçıvana yol məsələsidir. Məlumdur ki, ölkəmiz mövcud xüsusda “Azərbaycandan – Azərbaycana yol” məntiqini irəli sürür və bildirir ki, həmin yolda sərhəd və gömrük nəzarəti tətbiq edilməməlidir. Eyni zamanda, üçtərəfli bəyanata uyğun olaraq, ərazidə təhlükəsizlik Rusiya Federal Təhlükəsizlik Xidməti tərəfindən həyata keçirilməlidir.

İrəvan bu məsələ ilə razılaşmır və üçtərəfli bəyanatın doqquzuncu bəndini inkar edir. Nə üçün? Bu, sırf Rusiyaya inaddır? Əlbəttə, Moskva ilə münasibətləri gərginləşdirmək Qərbin Ermənistan qarşısında qoyduğu tələbdir. Ancaq onu da nəzərə alaq ki, hazırda Ermənistanın Türkiyə ilə sərhədində rus hərbçiləri var. Eləcə də ölkənin İranla sərhədində. Belə olan halda, onların Naxçıvana gedən yolda görünmələri nə üçün Ermənistanın ərazi bütövlüyünün və suverenliyinin pozulması kimi qiymətləndirilməlidir? İrəvan Moskvadan Gümrüdəki 102-ci hərbi bazanı çıxarmağı tələb edə bilərmi? Bu bazanın mövcudluğu ölkənin ərazi bütövlüyünün pozulması deyil, bəs nədir? Deməli, əsas məqsəd Azərbaycana qarşı çıxmaqdır, qalan şeylər bəhanə təfərrüatlardır.

Erməni siyasilərin anti-Azərbaycan ritorikasındakı daha bir gülməli arqumentə baxın. Sən demə, Azərbaycanın “Zəngəzur dəhlizi” ideyası Qərbin sanksiyalarından yayınmağa ümid bəsləyən Rusiya üçün sərfəlidir. Əlbəttə, Moskva sözügedən ideyanın gerçəkləşməsinə iqtisadi maraqları müstəvisində yanaşa bilər. Ancaq təkcə Kremlmi təşəbbüsün reallaşmasında səy göstərib iqtisadi maraq güdür?

Deməli, gəlinən qənaət budur ki, İrəvan anti-Azərbaycan ritorikasına anti-Rusiya məntiqini əlavə etməklə,



ölkəmizi Rusiyanı dəstəkləyən tərəf kimi göstərməyə çalışır. İstəyir ki, Qərb Bakını Kremlin tərəfində təsəvvürə gətirib mübarizə hədəfinə çevirsin. Yəni, ortada bu dərəcədə primitiv düşüncə var.

Nəzərə alaq ki, Azərbaycan Rusiya ilə bərabərtərəfli münasibətlərə malikdir. Ancaq bu günün Ermənistanı özünün müəyyən iqtisadi inkişafına görə Moskvaya borcludur. Yəni, el dilində ifadə etsək, yenə də it arabanın kölgəsində yatır, elə bilir ki, öz gölgəsidir.

Erməni siyasi dairələrin müzakirə mövzusuna çevirdiyi məsələlərdən biri də “Qarabağın gələcəyi” kimi adlandırdıqları azğınlıqdır. Bununla bağlı Qarabağ ermənilərinin qayıdışı kimi sərsəm ritorika gündəmdədir. Əlbəttə, Azərbaycan dövləti bölgənin erməni sakinlərinin əraziyə qayıtmalarına etiraz etmir. Üstəlik, hazırda nəinki Qarabağın, ümumən Azərbaycanın müxtəlif yerlərində ermənilər yaşayırlar. Ancaq bir halda ki, qayıdış məsələsi xüsusi prinsipial məqam kimi qoyulur, o zaman bu, nə üçün qarşılıqlı olmamalıdır? Yəni, Qarabağ ermənilərinin Azərbaycan ərazisinə qayıtmaları əsas götürülürsə, vaxtilə Ermənistanda yaşamış azərbaycanlıların da doğma yurd-yuvalarına qayıtmaları eyni prinsipiallıqla nəzərə alınmalıdır. Erməni siyasi dairələrini əndişələndirən də məhz bu məqamdır.

Məlum olduğu kimi, erməni müxaliflər qeyd etdiyimiz xüsusda baş nazir Paşinyanı ittiham edirlər. Onların bildirdiklərinə görə, Nikol Qarabağ ermənilərinin qayıdışı məsələsini ona görə qaldırmır ki, Bakı azərbaycanlıların Ermənistana qayıtmalarını tələb etməsin. Guya ki, bunlar fərqli-fərqli məsələlərdir. Halbuki, elə deyil. Ortada insan amili varsa, yanaşma eyni olmalıdır.

*

Bəli, Azərbaycan Prezidentinin andiçmə mərasimində səsləndirdiyi fikirlər xüsusunda Ermənistanda konstitusiya islahatları mövzusu da aktiv müzakirə predmetinə çevrilməkdədir. Ölkəmizin lideri Ermənistanın öz qanunvericiliyini normal vəziyyətə gətirməsinin vacibliyini Bakı–İrəvan sülh müqaviləsi kontekstinə gətirir və mövqeyində haqlıdır. Ona görə ki, Ermənistan konstitusiyasının istinad etdiyi istiqlaliyyət bəyannaməsində Azərbaycana qarşı ərazi iddiaları var.

Erməni siyasiləri isə bildirirlər ki, sözügedən bəyannamə, guya ki, xüsusi tarixi əhəmiyyət daşıyan sənəddir və keçmişə qayıdıb Qarabağın və Ermənistanın birləşdirilməsi müddəasını ləğv etmək mümkün deyil. Bu fikri ortaya atan rəsmi İrəvana yaxın ekspertlər, eyni zamanda, onu da vurğulayırlar ki, istiqlaliyyət bəyannaməsinə daxil edilmiş keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistana birləşdirilməsi haqqında 1989-cu il dekabrın 1-də qəbul edilmiş birgə qərar SSRİ dövründə hüquqi qüvvəsini itirmişdi. Çünki 1991-ci ilin noyabrında SSRİ Konstitusiya Nəzarəti Komitəsi həmin qərarı ləğv etmişdi. Ən əsası isə qərarın etibarsızlığı bununla əsaslandırılır: Dağlıq Qarabağda 1991-ci il dekabrın 12-də “referendum” keçirilmiş və bölgənin müstəqilliyi elan edilmişdi.

Erməni siyasilər, həmçinin Azərbaycan SSR rəhbərliyinin Dağlıq Qarabağ Muxtar Vilayətinin ləğvi ilə bağlı qərarının keçmiş SSRİ konstitusiyasına zidd olduğunu və ləğv olunduğunu bildirirlər. O zaman necə ola bilər ki, dekabrın 12-də keçirilmiş saxta, Qarabağın ancaq erməni əhalisinin qatıldığı, azərbaycanlıların boykot etdikləri “referendum” əsas götürülür, ancaq DQMV-nin ləğvi ilə bağlı Azərbaycan SSR-in çıxardığı qərar SSRİ konstitusiyasına zidd sayılır? Əgər söhbət qanunsuzluqdan gedirsə, o zaman bir müttəfiq respublikanın ərazisindəki inzibati ərazi vahidini ləğv etməsi, yoxsa, həmin ərazinin özünü tamamilə müstəqil elan etməsi qeyri-qanunidir?

Göründüyü kimi, erməni siyasilər belə spekulyasiyalara baş vururlar və bu şəxslər birbaşa N.Paşinyan administrasiyası tərəfindən hərəkətə gətirilir. Onlar nəinki daxildəki ictimai rəyə, eyni zamanda, beynəlxalq aləmə də təsir göstərmək yolu tuturlar. Nəticədə İrəvanın realllıqların təhrifi oyununda ideoloji katalizatora çevrilirlər.

Bəli, hiss olunur ki, Ermənistan Azərbaycanla münasibətləri gərginləşdirmək yolu tutur və mövcud prosesdə başlıca rolu həm də rəsmi İrəvana yaxın politoloqlar və ekspertlər oynamaqdadırlar. Onlar, faktiki olaraq, erməni cəmiyyətinə reallıqlarla barışmamağı təbliğ edir, Azərbaycanı təcavüzkar kimi göstərirlər. Belə yanaşma, əlbəttə, sülh prosesinə zərbə vurur.

Erməni politoloq və ekspertlər, eyni zamanda, ABŞ və Fransa başda olmaqla, beynəlxalq dairələrin ölkəmizə qarşı sərt tədbirlərə əl atması ideyasını da gündəmə gətirirlər. Beləliklə, erməni cəmiyyətini bunun baş verəcəyinə inandırmağa çalışaraq onda illüziya hissini doğururlar.

Sonda Ermənistan daxilində qaldırılan bir mövzunu da diqqətə çatdıraq. Məlum olduğu kimi, rəsmi İrəvan Azərbaycanın və Ermənistanın bir-birinin silahlanmasına nəzarəti həyata keçirmələrinə dair mexanizmin formalaşdırılması təşəbbüsünü ortaya atıb. Təşəbbüsün müəllifi baş nazir Nikol Paşinyandır. Paşinyan, hətta, iki ölkə arasında hücum etməmək haqqında müqavilənin imzalanmasının zəruriliyindən də söz açıb. Əlbəttə, belə bir cəfəng məsələyə hansısa formada müsbət reaksiya verməyi qeyri-mümkündür.

Qeyd edək ki, Nikolun fikirləri Ermənistan daxilində də məsxərə predmetinə çevrilib. Bundan sonra rəsmi İrəvan tərəfindən qondarılmış xüsus dəyişdirilib. Necə? İndi bildirilir ki, Cənubi Qafqazda sülhə nail olmağın yeganə yolu regionda qüvvələr arasında balans yaratmaqdır. Hazırda erməni siyasi ekspertlər də mövcud istiqamətdə “uzaqgörən” nəticələr çıxarmaqdadırlar. Bu, nə deməkdir? Cavab çox sadədir.

Ermənistan hakimiyyəti Azərbaycanı işğalçı kimi təqdim edir və mövcud fonda qüvvələr nisbətini eyniləşdirmək cəhdləri baş qaldırırsa, deməli, Ermənistan beynəlxalq aləmdən özünün silahlandırılması istiqamətində yardım istəyir. O həddə qədər ki, hərbi güc baxımından Azərbaycanla eyniləşsin.

İrəvanın hərbi güc nöqteyi-nəzərindən ölkəmizdən üstünlüyünün vaxtilə hansı faciəli nəticələr doğurduğunu yaxşı gördük, otuz ilə yaxın müddətdə həmin durumun məhrumiyyətlərini yaşadıq. Belə nəticəyə gəlirik ki, Ermənistanın silahlandırılması Cənubi Qafqazda münaqişə ocağı yaratmaq, bölgəni qan çanağına çevirmək niyyətindən başqa bir şey deyil. Azərbaycan buna qəti şəkildə yol verməyəcək!

*Ə.CAHANGİROĞLU*
*XQ*

# ABŞ Libertas və Femidanın adı ilə alver edir

## Dünyaya “demokratiya” ixrac edən ölkənin “Azadlıq” heykəli hegemonluq saçır

**Söhbət fransalı heykəltaraş Frederik Oqüst Bartoldinin 1886-cı ildə Nyu-York yaxınlığında ucaltdığı “Azadlıq” heykəli adlı möhtəşəm sənət əsərindən gedir. İndi həmin heykəltaraşın soydaşları dünyada qan tökülməsi üçün dəridən-qabıqdan çıxırlar. İndiyədək tökdükləri qanlar da heç zaman qurumayacaq. ABŞ rəsmilərinin isə “demokratiya” və “azadlıq” gətirdiyi ölkələrin hərəsi əlli-altmış il geriyə düşüb. Üstəlik, həmin ölkələrin əksəriyyətində hələ də qan “dizə çıxır” və ya vətəndaş müharibəsinin sonu görünmür.**

Neoklassisizm üslubunda, tökmə texnikası ilə ərsəyə gəlmiş həmin heykəlin sənətkarlıq baxımından mükəmməliyi böyükdür. Elə ona görə də hər il onu üç milyondan çox turist ziyarət edir. Amma təəssüf ki, heykəlin dili yoxdur. Əgər dili olsaydı, o, “həmyerlilərinin” Vyetnamda, İraqda, Suriyada, Liviyada, Əfqanıstanda, Gürcüstanda, Ukraynada və onlarca başqa ölkədə törətdiklərinə görə xəcalət çəkər, metal canı əriyib gedər və ya haray çəkərdi ki, mənim adımı dəyişdirin.

Ad demişkən, bu sənət əsərinə Roma azadlıq ilahəsi Libertasın şərəfinə “Azadlıq” adı verilib. Heykəl bir əlində azadlıq məşəlini, digərində isə üzərində ABŞ Müstəqillik Bəyannaməsinin elan edildiyi 4 iyul 1776-cı il tarixinin yazıldığı tabulanı (qanunların yazıldığı tablet) tutmuşdur. Bu sənət əsəri haqqında olan məlumatlarda qeyd edilir ki, azadlığın və ABŞ-nin simvollarından biri olan heykəl, xaricdən gələn qonaqlara “xoş gəldin deyir!”.

Bir az mistik görünsə də, xatırladılmalı bir məqam da var, Belə ki, bu heykəl bir neçə dəfə təmir olunmuş, təmirdən sonrakı açılışın ertəsi günü isə qasırğa səbəbindən bağlanmışdır. Başqa bir məlumatda bildirilir ki, heykəltaraş bu əsərin modelini milyonçu aktyor İsaak Zinger Merrittin həyat yoldaşı İzabella Yugen Boyerin duruşuna (bədəninə) baxaraq yaratmışdır. Ancaq burada Şərq xalqlarına – bəlkə elə İslam dininə hörmətsizlik əlaməti olan bir element də xatırladılır.

Bartoldinin özünün dediklərinə əsaslanan mənbələr yazırlar ki, heykəltaraş həmin dövrdə Misir rəhbərliyinin Süveyş kanalının şimal girişindəki Port-Səiddə kəndli Misir qadını formasında və əlində məşəl tutmuş nəhəng mayak layihəsi hazırlamaq sifarişini də qəbul etmişdi. Eskiz və modellər, əslində, həmin layihə üçün hazırlansa da, həyata keçirilməmiş qalmışdı. Yəni “Azadlığ”ın kökündə qısqanclıq və ayrı-seçkilik də dayanırdı.

Həmin qısqanclıq, ayrı-seçkilik bu gün daha kəskin, daha ciddi şəkildə davam edir. ABŞ rəsmiləri, sözün həqiqi mənasında, hansısa ölkənin bir addım irəli getməsini, tərəqqisini, müstəqil siyasət yeritməsini qəbul edə bilmirlər. Kim ötən illərdəkinə nisbətən bir azca inkişaf edirsə və ya öz azadlığına, müstəqilliyinə nail olmağa çalışırsa, dərhal Ağ evdə həmin ölkə üçün qara resept yazılır və oraya özünəməxsus “demokratiya” ixrac olunur.

Bu gün Avropanın inkişaf etmiş ölkələrinin Ağ ev istehsalı olan iki çətirin altına yığışdırılması da ( NATO və Avropa İttifaqı) , Rusiya və Çinin düşmən elan edilməsi də başa düşüləndir. Yəni avropalılar ABŞ-ın dedikləri ilə durub oturmalı, Pekin və Moskva isə Ağ evin siyasi nüfuzuna və ya iqtisadi maraqlarına mane ola bilməməlidir. Bunlar aydındır. Bəs ABŞ rəsmiləri Azərbaycan kimi yeni müstəqillik əldə etmiş və öz problemlərinin həllinə nail olmağı bacaran ölkəyə nə üçün qara yaxmaqla məşğuldur? Bakı ABŞ-ın maraqlarına əngəl törətmək və ya qazancına ortaq olmaq iqtidarında və hətta fikrində deyilsə, onda Ağ ev nə üçün ədalət prinsiplərini ayaq altına ataraq gənc müstəqil dövlətin haqlı səsini eşitməkdən imtina edir? Məgər Ermənistanın son otuz ildə törətdiyi vandallıqları, vəhşilikləri, soyqırımlarını görmədilərmi? Fikrimcə, bu da çətin sual deyil. Sadəcə, Azərbaycanın müstəqil siyasət yeritməsini həzm edə bilmirlər. İmperialist düşüncəsi onlardan tələb edir ki, bütün ölkələr günəbaxan kimi eyni istiqamətə baxsınlar. Ancaq bu xülyaların zamanı artıq arxada qalmışdır. Azərbaycanın qüdrətli lideri də var, beynəlxalq aləmdə kifayət qədər dəstəyi də. Sonda bir səfərdə rastlaşdığım faktı yada salmaq istəyirəm. 2000-ci ildə İraqda səfərdə idik. Bağdaddakı Saat meydanının yanında – beşmərtəbəli binanın pəncərələr olmayan bir tərəfinə elə binanın özü boyda – Femidanın şəkili olan plakat vurulmuşdu. Femidanın əlindəki tərəzinin bir gözündə qanlı xəncər, digər gözündə isə qanun kitabı əks olunmuşdu. Xəncər daha ağır gəlmişdi. Çünki İlahənin gözlərini rəvayətdəki ənənəvi dəsmalla yox, ABŞ bayrağı ilə bağlamışdılar. Yəni imperialistlər Libertas və Femidanın adı ilə alver edirlər. O zaman mən mərhum şair Oqtay Rzanın “Dünya, yaman yiyəsizsən...” şeirini xatırlamışdım.



*İttifaq MİRZƏBƏYLİ,*
*Əməkdar jurnalist*

# Tərəqqinin “bolluq nəbzi” kənddə döyünür



## *Dövlət dəstəyi isə torpağa güc-bərəkət gətirir*

**Ölkəmizdə iqtisadiyyatın şaxələndirilməsi istiqamətində həyata keçirilən tədbirlər digər sahələr kimi, aqrar bölmənin də inkişafı üçün əlverişli imkanlar yaradıb. Bunun nəticəsində respublikamızın kənd təsərrüfatı məhsullarına olan tələbatı ödənilməklə bərabər, ixracın strukturunda da qeyri-neft sektorunun, o cümlədən kənd təsərrüfatının xüsusi çəkisi artıb, bu bölmə iqtisadiyyatın prioritet sahələrindən biri kimi tanınıb.**

Kənd təsərrüfatının inkişafından bəhs edərkən, ilk növbədə, ərzaq təhlükəsizliyinin gerçəkləşməsi ilə bağlı görülən tədbirlərə diqqət yetirmək istərdik. Bununla əlaqədar xatırladaq ki, hökumət ərzaqlıq buğda istehsalçılarının aldığı kreditlərə dövlət zəmanəti, həmçinin faiz subsidiyası ödəməyə qərar verib. Prezident İlham Əliyev bununla bağlı “Kənd təsərrüfatına dövlət dəstəyinin və aqrar sahədə lizinq fəaliyyətinin təkmilləşdirilməsi haqqında” 19 dekabr 2018-ci il tarixli fərman imzalayıb. Bundan başqa, 2023-cü ildə respublikada ərzaqlıq buğdanın dövlət tədarük qiyməti 2022-ci illə müqayisədə 22,4 faiz az – 450 manat/ton müəyyənləşdirilib. Əvəzində fermerlərdən alınan şəkər çuğundurunun qiyməti artırılıb. “Azərsun Holdinq”ə məxsus “Azərbaycan Şəkər İstehsalat Birliyi” MMC tərəfindən 2023–2024-cü təsərrüfat ilində qış və yaz mövsümü üzrə şəkər çuğundurunun hər tonunu şəkərlilik faizinə uyğun olaraq 4 manat baha – 485 manata almağa qərar verilib.

Ötən il Nazirlər Kabineti kənd təsərrüfatının siyahıya alınmasına hazırlıq və onun həyata keçirilməsi haqqında qərar qəbul edib. Baş nazir Əli Əsədovun imzaladığı qərara əsasən, siyahıyaalınma gələn il iyulun 15-dən avqustun 15-nə qədər kənd təsərrüfatı istehsalı ilə məşğul olan hüquqi şəxslər tərəfindən siyahıyaalma vərəqələrinin Dövlət Statistika Komitəsinin elektron informasiya sistemində real vaxt rejimində doldurulması yolu ilə, fərdi sahibkarlar, ailə kəndli və ev təsərrüfatları üzrə isə siyahıyaalmaya cəlb ediləcək şəxslər (sayıcılar) tərəfindən planşet tipli kompüterlərdən istifadə olunmaqla sorğu yolu ilə reallaşdırılması nəzərdə tutulub.

Azərbaycanda 3 il əvvəl tətbiqinə başlanılan aqrar sığortanın əhatə dairəsi də ötən il daha da genişləndirilib. Aqrar Sığorta Fondunun fermerlərə ödənişləri isə rekord həddə çatdırılıb. Hesabat dövründə fermerlərə bu fonddan 2021–2022-ci illərlə müqayisədə təxminən 2 dəfə çox – 4 milyon manat civarında sığorta ödənilib.

Kənd təsərrüfatının inkişafını sürətləndirmək üçün hazırda bu sahədə əlverişli investisiya mühiti yaratmaq diqqətdə saxlanılır. Kənd təsərrüfatı naziri Məcnun Məmmədovun mediaya bildirdiyinə görə, bu məqsədlə sektora subsidiyalar ayrılır, kənd təsərrüfatı texnikaları lizinqə verilir. Sahibkarlara güzəştli şərtlərlə ayrılan kreditlər hesabına yeni aqrar istehsal və emal sahələri yaradılır. Bununla bərabər, Prezident İlham Əliyevin müəyyənləşdirdiyi siyasi-iqtisadi kursa uyğun olaraq kənd təsərrüfatında innovativ həllərin tətbiqi genişləndirilir.

Ümumiyyətlə, bu gün respublikamızda innovasiyaların tətbiqi dövlət səviyyəsində dəstəklənir. Çünki innovasiyalar hesabına məhsuldarlıq dəfələrlə artır, torpaq və su resurslarından daha səmərəli istifadə olunur, məhsulun maya dəyəri azalır, bununla da fermer təsərrüfatlarında daha çox gəlir əldə edilir.

Dövrümüzün tələblərinə uyğun olaraq rəqəmsal kənd təsərrüfatının inkişafına da xüsusi diqqət yetirilir. İstifadəyə verilmiş Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemi vasitəsi ilə fermerlər üçün şəffaflıq prinsipi əsasında aqrar xidmətlərə asan çıxış imkanı yaradılır. Müasir metodlara əsaslanan elektron xidmətlərlə aqrar sahədə zaman itkisinin qarşısını almaqla yanaşı, fermerlərə operativ xidmət göstərilir.

Respublikamızda meliorasiya-irriqasiya sisteminin yenidən qurulması və təkmilləşdirilməsi üçün dövlət büdcəsi vəsaitləri hesabına son 10 il ərzində 390 min hektardan çox sahədə torpaqların su təminatı yaxşılaşdırılıb, 188 min hektar sahə yeni suvarılan torpaqlar qrupuna əlavə edilib. Həmçinin suvarılan sahələrdə müvafiq dövlət dəstəyi hesabına tətbiq olunan müasir suvarma sistemlərinin payı artıq 5 faizdən çox yüksəlib.

Aqrar sahədə həyata keçirilən bütün bu və digər tədbirlər nəticəsində 2022-ci illə müqayisədə 2023-cü ildə müəyyən artım göstəriciləri qeydə alınıb. Məsələn, statistik rəqəmlərə diqqət yetirəndə görürük ki, hesabat dövründə respublikada, təqribən, 12 milyard manat dəyərində kənd təsərrüfatı məhsulu istehsal edilib. Bu rəqəm ötən ilin eyni dövrü ilə müqayisədə 3,1 faiz çox olub. Bundan başqa, son bir ildə ölkədə istehsal olunan bitkiçilik məhsullarının dəyəri 2,8 faiz artaraq 5 milyard 842 milyon manat, heyvandarlıq məhsullarının dəyəri isə 3,3 faiz artaraq 5 milyard 728 milyon manata yüksəlib.

Kənd Təsərrüfatı Nazirliyi bu gün Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında kənd təsərrüfatı potensialından daha səmərəli istifadə etməyi, bu ərazilərdən maksimum həcmdə məhsul götürməyi qarşıya mühüm vəzifə kimi qoyub. Bunun üçün işğaldan təmizlənmiş torpaqların ciddi şəkildə araşdırılması, əkin yerləri minalardan təmizləndikcə sahələrin əkin dövriyyəsinə daxil olunması prioritet kimi qəbul edilib.

Artıq böyük potensiala malik ərazilərin yenidən əkin dövriyyəsinə qaytarılması ölkədə aqrar sahənin inkişafına yeni təkan verməklə bərabər, həm xaricdən idxal olunan kənd təsərrüfatı məhsullarının qarşısını xeyli dərəcədə alacaqdır. Bu istiqamətdə layihələr həyata keçirilir. Regionda tarixən mövcud olan üzümçülük, tütünçülük, baramaçılıq və arıçılıq sahələrinin bərpası və genişləndirilməsi ilə yanaşı, intensiv meyvəçilik sahəsi inkişaf etdirilir. Bu işlər işğaldan azad edilmiş ərazilərdə minaların təmizlənməsi prosesi ilə paralel həyata keçirilir.

Hazırda həmin ərazilərdə su mənbələri müəyyənləşdirilir. Bu prosesin yekunlaşması ilə paralel olaraq əkin planlanması həyata keçirilir. Eyni zamanda düşmənin dağıtdığı aqrar infrastrukturun bərpasına başlanılıb.

***XQ***

# Azərbaycanın yeni sənaye xəritəsi

## Ötən il bölgələrdə 12 müasir istehsalat yaradılıb

**2023-cü ildə İqtisadi Zonaların İnkişafı Agentliyinin idarəçiliyində olan sənaye zonalarında 26 sahibkarlıq subyektinə rezidentlik statusu verilib. Həmin sahibkarlıq subyektləri tərəfindən sənaye zonalarına 471 milyon manat investisiyanın yatırılması, 3100-dən çox iş yerinin yaradılması nəzərdə tutulur. Bu və digər məsələlər barədə dünən İqtisadi Zonaların İnkişafı Agentliyinin (İZİA) 2023-cü il üzrə fəaliyyətinin yekunlarına və qarşıda duran vəziifələrə həsr olunmuş mətbuat konfransında bildirilib.**



Ötən il sənaye zonalarında və aqroparklarda görülmüş işlər və nəzərdə tutulan tədbirlər barədə media nümayəndələrinə ətraflı məlumat verən İZİA-nın İdarə Heyətinin sədri Seymur Adıgözəlov deyib ki, il ərzində Sumqayıt Kimya Sənaye Parkında 8, Ağdam Sənaye Parkında 7, “Araz Vadisi İqtisadi Zonası” Sənaye Parkında 5, Pirallahı Sənaye Parkında 3, Sabirabad Sənaye Məhəlləsində 2 və Hacıqabul Sənaye Məhəlləsində 1 sahibkarlıq subyekti rezidenti kimi qeydiyyata alınıb. Onun sözlərinə görə, həmin rezidentlər sənaye zonalarında baza yağların, kompozit armaturların, güzgülərin, birdəfəlik üçkomponentli şprislərin, müxtəlif təyinatlı dərmanların, süd məhsullarının, qazobeton blokların, əmtəə beton və quru yapışdırıcıların və s. məhsulların istehsalını həyata keçirəcəklər.

Qeyd olunub ki, 2023-cü ildə İqtisadi Zonaların İnkişafı Agentliyinin idarəçiliyində olan sənaye zonalarında 12 müəssisə fəaliyyətə başlayıb. Həmin müəssisələrdə polimer qatqıları, keramik plitələr, qablaşdırma məhsulları, istilik izolyasiya lövhələri, nəqliyyat vasitələri üçün əyləc bəndləri və s. məhsullar istehsal olunur. İl ərzində rezidentlər tərəfindən sənaye zonalarına 135 milyon manatdan artıq investisiya yatırılıb, 744 daimi iş yeri yaradılıb. Ötən il sənaye zonalarının rezidentləri tərəfindən 3,3 milyard manat dəyərində məhsul satışı həyata keçirilib ki, bunun da 989 milyon manatı ixracın payına düşür. Əvvəlki illə müqayisədə satışın 12,5 faiz artdığını bildirən agentlik sədrinin sözlərinə görə, bu dövrdə sənaye zonalarının qeyri-neft sənayesi məhsulları istehsalında xüsusi çəkisi 18,6 faiz, ixracında isə 23,6 faiz təşkil edib. İndiyədək sənaye zonaları üzrə 142 subyektə rezidentlik statusunun verildiyini diqqətə çatdıran agentlik sədri deyib ki, ötən müddətdə sahibkarlar tərəfindən sənaye zonalarına 6,6 milyard manatdan çox investisiya yatırılıb, 10 mindən artıq daimi iş yeri yaradılıb. Bütövlükdə isə, ötən qısa qısa müddətdə ölkənin sənaye zonalarında 12,1 milyard manatlıq məhsul istehsal edilib ki, bunun da 3,9 milyard manatlıq və ya 32,2 faizə yaxın hissəsi ixrac olunub. Sənaye zonalarında istehsal olunan məhsullar Kanada, ABŞ, Birləşmiş Ərəb Əmirlikləri, Çin, Hindistan, İsrail, İspaniya, İtaliya, Avstriya, İngiltərə, Brazilya və s. olmaqla dünyanın 70-dək ölkəsinə göndərilib.

Agentlik sədri, həmçinin deyib ki, mövcud layihələr üzrə növbəti mərhələdə sənaye zonalarına əlavə 830 milyon manatadək investisiyanın yatırılması, 7000-dən artıq yeni iş yerinin yaradılması nəzərdə tutulur. Onun sözlərinə görə, 2024-cü il ərzində İZİA-nın idarəçiliyində olan sənaye zonalarında 10-a yaxın müəssisənin fəaliyyətə başlaması planlaşdırılır ki, bu da, təqribən, 1000 nəfərin daimi işlə təmin edilməsinə imkan yaradacaq.

Mətbuat konfransında işğaldan azad edilmiş ərazilərimizdə yaradılan Ağdam və “Araz Vadisi İqtisadi Zonası” sənaye parkları barədə də məlumat verilib. Qeyd olunub ki, hazırda sözügedən sənaye parklarında infrastruktur işləri görülür, inzibati binanın, yarımstansiyanın və su anbarlarının tikintisi aparılır.

Diqqətə çatdırılıb ki, indiyədək Ağdam Sənaye Parkında 20 sahibkarlıq subyektinə rezidentlik, 6 sahibkara isə qeyri-rezidentlik statusu verilib. Həmin rezidentlər tərəfindən sözügedən sənaye parkına 190 milyon manatdan çox investisiyanın yatırılması və 1700-dən çox iş yerinin yaradılması nəzərdə tutulur. Bugünədək isə rezidentlər tərəfindən Ağdam Sənaye Parkına 15,3 milyon manatdan çox investisiya yatırılıb, 120-yə yaxın daimi iş yeri yaradılıb. Cari ildə burada divar kağızlarının, bir neçə növdə ayaqqabıların, dam örtüklərinin, boru və qutu profillərin, havalandırma, yanğınsöndürmə avadanlıqları, müxtəlif metal məmulatlarının və digər məhsulların istehsalını həyata keçirəcək 5-dən çox müəssisənin fəaliyyətə başlaması planlaşdırılır. Bu sənaye müəssisələrində istehsal olunacaq məhsullar, ilk növbədə, daxili tələbatın ödənilməsinə yönəldiləcək, sonrakı mərhələdə isə “Made In Azerbaijan” brendi altında ixrac ediləcək.

Şərqi Zərgəzur iqtisadi rayonunda yaradılmış “Araz Vadisi İqtisadi Zonası” Sənaye Parkının isə hazırda 10 rezidenti və 1 qeyri-rezident var. Bugünədək rezidentlər tərəfindən adı çəkilən sənaye parkına 10 milyon manata yaxın investisiya yatırılıb. İnvestorlar tərəfindən “Araz Vadisi İqtisadi Zonası” Sənaye Parkına, ümumilikdə, 67 milyon manatdan çox investisiyanın yatırılması və 700-dən artıq daimi iş yerinin yaradılmasının nəzərdə tutulduğunu bildirən agenlik sədrinin dediyinə görə, 2024-cü ildə burada 2 min tonluq sement terminalının, minatəmizləyən, xüsusi təyinatlı texnika və metal məmulatlarının, müxtəlif növdə yapışqan lentlərin istehsalı müəssisələri fəaliyyətə başlayacaq.

Mətbuat konfransında, həmçinin agentliyin idarəçiliyində olan aqroparklarda, o cümlədən Yevlax və Sabirabad aqroparklarında görülmüş işlər və qarşıda duran hədəflər barədə də məlumat verilib. Qeyd olunub ki, ölkə Prezidentinin müvafiq fərmanı ilə təsdiq olunmuş “Aqroparklar haqqında Nümunəvi Əsasnamə”nin tələblərinə uyğun olaraq ötən il 2-si dövlət, 22-si özəl olmaqla, ümumilikdə, 24 aqropark qeydiyyata alınıb. Hazırda aqroparklarda 2660-dan çox daimi və 4300 nəfər mövsümi işlərə cəlb edilib. Gələcəkdə isə əlavə 2300-dən çox daimi iş yerinin yaradılması nəzərdə tutulur. Bundan əlavə, hazırda daha 2 aqroparkda tikinti-quraşdırma işləri aparılır.

Hazırda ölkənin 22 rayonu üzrə 66 min hektar ərazidə 24 aqroparkın yaradılması istiqamətində işlərin görüldüyünü diqqətə çatdıran Seymur Adıgözəlovun sözlərinə görə, indiyədək 58,6 min hektar ərazidə 22 aqropark fəaliyyətə başlayıb. Bunun da 6-sı heyvandarlıq, 6-sı meyvəçilik, 11-i əkinçilik, 1-i isə çeşidləmə, qablaşdırma və logistika üzrə ixtisaslaşıb. 2023-cü ildə aqroparklar tərəfindən 96 milyon manatlıq məhsul satışı həyata keçirilib. Aqroparkların ümumi layihə dəyərinin 1,2 milyard manat təşkil etdiyini vurğulayan agentlik sədri bildirib ki, ötən müddətdə 14 aqroparkın yaradılmasına Sahibkarlığın İnkişafı Fondu tərəfindən 131 milyon manat güzəştli kredit ayrılıb, həmçinin investisiya təşviqi sənədi verilmiş 18 aqropark tərəfindən texnika, texnoloji avadanlıqlar və qurğuların idxalına görə 16,1 milyon manat dəyərində güzəşt əldə edilib.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Yeni yol Kəlbəcəri Laçına qovuşdurur

**Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində icrası həyata keçirilən mühüm əhəmiyyətə malik yol infrastrukturu layihələrindən biri də Kəlbəcər–Laçın avtomobil yolunun tikintisidir. Uzunluğu 75,8 kilometr olan bu yol üzərində tunellərin inşası davam etdirilir.**



Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin məlumatına əsasən, hazırda yolun müəyyən hissələrində qazma-dolğu işləri icra edilir, yeni torpaq yatağı inşa olunur. Bundan başqa, düzbucaqlı və dairəvi suötürücü boruların, həmçinin su kanallarının tikintisi, drenaj işləri, həmçinin daş divarın inşası aparılır. Yolboyu tikintisi nəzərdə tutulan 17 avtomobil tunelindən 10-da tikinti işləri davam etdirilir.

Dolaylardan keçən mövcud yoldan istifadə ediləcəyi təqdirdə həddindən artıq sürüşmə zonalarına rast gəlinir. Bundan başqa, qış fəslində güclü qar və şaxtalı hava şəraitində yolun təhlükəsiz istismarı mümkün olmaya bilər. Bununla əlaqədar dolayların birbaşa tunellər vasitəsilə keçilməsi qərara alınıb. Tunellərdə hərəkət hissəsi 11,6 metr enində olacaq. Tunellərin ümumi uzunluğu 13 min 300 metr təşkil edəcək.

Kəlbəcər–Laçın avtomobil yolu başlanğıcını Kəlbəcər rayonunun Qamışlı kəndindən götürməklə işğaldan azad edilmiş Laçın rayonunun ərazisindən keçir. Yeni yol bu rayonların bir çox yaşayış məntəqələri ilə yanaşı, rayon mərkəzinə və inşası reallaşdırılan Laçın Beynəlxalq Hava Limanına qədər rahat gediş-gəlişi təmin edəcək.

***XQ***

# 2 ilə ölkənin “yaşıl enerji”si 17 faizdən 24 faizə çatacaq

**Bakıda keçirilən “Vergi sistemi yeni inkişaf dövründə: davamlı iqtisadiyyat üçün strateji hədəflər” adlı forumda İqtisadiyyat Nazirliyinin şöbə müdiri Hüseyn Hüseynov bildirib ki, “2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”na əsasən, orta müddətli dövrdə Azərbaycanda iqtisadi artımın 3-4 faiz ətrafında saxlanılması qarşıya mühüm vəzifə kimi qoyulub. Bununla bağlı ekoloji sahəyə, xüsusilə “yaşıl enerji”yə investisiyaların artırılması istiqamətində məqsədlər müəyyənləşdirilib.**



Beləliklə, 2026-cı ilə qədər ümumi qoyuluş gücündə bərpaolunan enerjinin payının 17 faizdən 24 faizə çatdırılması hədəf götürülüb. 2030-cu ildə bu hədəfin 30 faizə çatdırılması sosial-iqtisadi inkişaf strategiyasının başlıca prioritetlərindən biridir. Göründüyü kimi, “yaşıl artım” və “yaşıl iqtisadiyyat” istiqamətində strateji sənəd və hədəflər müəyyənləşdirilib. Amma burada əsas məsələlərdən biri məhz nəzərdə tutulan məqsədlərin reallığa çevrilməsini sürətləndirməkdir. Bu, COP-29 prosesi ilə bağlı fəaliyyət planının icrasında diqqət mərkəzində saxlanılacaq.

# Gündəlik neft hasilatı – 598 min barel

**Energetika Nazirliyindən verilən məlumata görə, cari ilin yanvar ayında gündəlik neft (kondensatla birlikdə) hasilatı 598 min barel olub. Bunun 474 min barelini xam neft, 124 min barelini kondensat təşkil edib.**

Məlumata görə, “OPEC+” (OPEC və təşkilata daxil olmayan ölkələri əhatə edən neft istehsalının azaltması üzrə təşəbbüs) ölkələri nazirlərinin 36-cı iclasında əldə edilən razılaşmaya görə, 2024-cü il üçün Azərbaycanın hasilat kvotası gündəlik 551 min barel təşkil edir.

Beləliklə, Azərbaycan yanvar ayında “OPEC+” çərçivəsində kvotasından 77 min barel geridə qalıb.



***XQ***

**Redaksiyanın poçtundan**

# Xalqın təbrik məktubları

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə**

**Möhtərəm cənab Prezident!**

**“Kapital Bank”ın kollektivi Sizi yenidən Azərbaycan Respublikasının prezidenti seçilməyiniz münasibəti ilə ürəkdən təbrik edir, ən xoş arzularını çatdırır. Seçkilərdə qazandığınız parlaq qələbə ölkəmizdə aparılan siyasi, iqtisadi inkişafın məntiqi nəticəsi və Azərbaycan xalqının azad iradəsinin göstəricisidir.**

**Sizin liderliyinizlə ölkəmiz böyük inkişaf yolu keçmiş, xalqımızın ən böyük arzusu – Vətənimizin bütövlüyü təmin olunmuşdur. Biz əminik ki, Sizin qələbəniz dövlətimizin inkişafına və xalqımızın rifahına yeni bir mərhələ açacaq, Azərbaycanın hərtərəfli inkişafı, ölkəmizin beynəlxalq aləmdə imicinin möhkəmləndirilməsi üçün nəzərdə tutduğunuz bütün proqramlar uğurla həyata keçəcək.**

**Cənab Prezident, növbəti səlahiyyət müddətinizdə Azərbaycanın sürətli sosial-iqtisadi inkişafı və Vətənimizin qlobal arenada daha da güclənməsi, ölkəmizin parlaq gələcəyi yolunda apardığınız siyasi kursda Sizə uğurlar arzu edir, yorulmaz fəaliyyətinizdə hər zaman yanınızda olduğumuzu bildirmək istəyirik.**

**Hörmətlə, Fərid HÜSEYNOV,**
**“Kapital Bank”ın İdarə Heyətinin Sədri,**
**Baş icraçı direktor**



**II MƏQALƏ**

**İndi isə yeni dövr başlayır. Biz bu dövrə alnımız açıq, üzümüz ağ, başımız dik daxil oluruq. Bu dövrün böyük nailiyyətləri olacaq, mən buna şübhə etmirəm.**

**Prezident İlham Əliyevin**
**14 fevral 2024-cü ildə**
**andiçmə mərasimindəki nitqindən**

# Yeni tarixi mərhələ: strateji məqsəd və növbəti vəzifələr

## (fəlsəfi-sinergetik təhlil)

### İndiki və gələcək zaman: “ritmlərin qovşağı”nda liderlik nümunəsi

Prezident İlham Əliyevin andiçmə mərasimindəki nitqində indiki mərhələnin lakonik ifadəsi ilə yanaşı, “gələcəkdən gələn notlar” da vardı. Bir mətndə “zaman ritmlərinin sərhədində” fəaliyyətin konkret vəzifələrini dəqiq və aydın ifadə etmək bəzən heç postmodernist filosoflara nəsib olmur. Çünki nə qədər modernist idrakın sərhədlərini, mayaklarını, sərhəd “nişanlarını” ləğv etsələr də, istər-istəməz onlardan fərqli struktur-funksional idraki sərhədlər çərçivəsində düşünməli olurlar. İnsan üçün, ümumiyyətlə, sərhədsiz düşüncə forması mövcud deyildir. Ona görə də müdrik insanlar deyirlər ki, “deyilən kim tərəfindənsə deyiləndir”. Postmodernist isə öncədən bu “kim tərəfindənsə deyilir” fundamental qaydanı inkar etməklə sözün və fikrin istiqamətini itirir.

Azərbaycan Prezidenti bütün bunların fövqündə dayanan və substantiv təhlil aparan, real proqnozlar verən, konkret vəzifələr müəyyən edən liderdir. Bu prizmadan baxanda andiçmə mətninin semantik, qrammatik, funksional, məna və məzmun xüsusiyyətlərinin bir sinergetik effekt yaratdığını görürük. Mətndə uğurlu liderin dövlətin məsələlərinə böyük Vətən və cəmiyyət sevgisi ilə yanaşdığı açıq duyulur.

Bununla yanaşı, Prezident zərrə qədər də sentimental hisslərə qapılmır. Vətəninə və cəmiyyətə olan sevgisini XXI əsrin çağırışları fonunda real siyasi liderlik məntiqinə transformasiya edir. Bu transformasiya nəzəri-konseptual düşüncələrlə praktiki-praqmatik fəaliyyətin sintezi ilə xarakterizə olunur. Həmin əlamətlər İlham Əliyevin hər situasiyanı obyektiv və mövcud faktlar əsasında təhlil etməsində, onun nəticəsi olaraq əldə edilən siyasi uğurları dəqiq və şişirtmədən təqdim etməsində və nəhayət, bu sağlam siyasi-diplomatik təməl əsasında gələcək fəaliyyətin praqmatik-siyasi fəlsəfəsinin başlıca istiqamətlərini inandırıcı formada təqdim etməsində ifadə olunmuşdur.

İlham Əliyevin nitqinin mətnində vurğuladığımız aspektdə fərqli xüsusiyyətlərindən biri fikirlərin semantik, məna və məzmun baxımından sinergizm formasında ifadə edilməsidir. Onlar bir-birini daxili məzmunlarına görə və hədəflənmiş siyasi məqsədə çatmağın optimal yolu aspektində tamamlayırlar. Nümunə göstərə bilərik.

Prezident İlham Əliyev nitqinə xalqına verdiyi vədlərlə başlamışdır. Bu, liderin daim xalqı qarşısında məsuliyyət daşıdığını və hər zaman məhz xalqına hesabat verməyə hazır olduğunu ifadə edir. Eyni zamanda, bu başlanğıcın arxasında siyasi varisliyə daimi sadiqlik dayanır. İlham Əliyev həmin məqamı ona görə açıq ifadə etmir və faktiki olaraq “xalqa verilən vədlər” fikrinin daxili məntiqinə aid edir ki, Azərbaycan dövlətçilik ənənəsinin müasir mərhələsində ulu öndər Heydər Əliyev siyasi varisliyi xalqa xidmətin atributu statusunda məzmunlaşdırmışdır! Yəni siyasi varislik, sözün həqiqi və birbaşa mənasında, xalqa xidmət kontekstində real məzmun kəsb edir. Bunun əsas əlaməti isə siyasi liderin xalqa verdiyi vədlərə əməl etməsi və ona hesabatlı olmaq məsuliyyətini dərk etməsidir. Prezidentin ifadə etdiyi fikrə diqqət yetirək: “İyirmi ildən çoxdur ki, Azərbaycan xalqı mənə öz dəstəyini göstərir”. Bu, o deməkdir ki, İlham Əliyev birbaşa xalqın dəstəyinə arxalanaraq uğurlar əldə etmiş, dövləti və cəmiyyəti yeni mərhələyə hazırlamışdır. Siyasi kontekstdə burada həm yuxarıda vurğuladığımız məqamlar, həm də liderin ancaq öz xalqına arxalanaraq, fəaliyyət göstərdiyinin və məhz bu səbəbdən Azərbaycanın uzun illərdir ki, müstəqil siyasət yeridə bildiyinin aktual mənası və məzmunu, potensial liderlik enerjisinin real sinergizmi mövcuddur.

Prezident fikirlərinə davam edərək, əldə olunan başlıca konkret nəticələri vurğulayır. Bura daxili və xarici siyasətdə 20 il müddətində qazanılan nailiyyətlər daxildir. Bu bağlılıqda Prezidentin “verdiyim vədlər arasında, təbii ki, ilk növbədə ölkəmizin ərazi bütövlüyünün bərpası idi” fikrini xüsusi vurğulaması, fundamental əhəmiyyət daşıyır. Belə ki, bununla İlham Əliyev 20 il müddətində Azərbaycan dövlətçiliyinin inkişafı kontekstində atılan hər addımın və reallaşan bütün proqramların yekunda milli ideyaya – ərazi bütövlüyünün təmininə hədəfləndiyini bəyan edir. Bu, həm liderin strateji düşüncəsini ifadə edir, həm də konkret hədəfə fokuslanmış fəaliyyətinin fəlsəfi-sinergetik mahiyyətini açır. Andiçmə nitqindəki bütün digər faktlar məhz bu mərkəzi prinsip üzərində qurulan semantik-linqvistik sistemin müxtəlif fraqmentləridir! Onlar həm də bütöv halında uğurlu milli liderliyin zaman kontekstində indiki ritmi ilə gələcək ritminin “ortaq sahəsində formalaşmış siyasi mənalarıdır”.

“Ritmlərin qovşağında” aparılan bu təhlildən gələcək liderlik nümunəsinin fəlsəfi-sinergetik obrazını yaratmaq mümkündür.

### Yeni dövrün şərtləri: dövlət quruculuğunun cəmiyyətdaxili sinergizmi

Qoyulan sualın məntiqi çərçivəsində “yeni lider kimdir?” sualı da vardır. Yeni liderliyin Azərbaycan təcrübəsinə əsasən bir tezis irəli sürə bilərik: yeni dövrün lideri yeni şərtlərin turbulentliyində dövlət və millət üçün uğurlu olan dinamik sabit inkişaf xəttini müəyyən edəndir! Yeni şərtlər hər şeydən öncə, liderin meydana çıxan situasiyanı dərin həssaslıq və strateji zəka ilə əvvəlcədən “duya bilməsi” zərurəti ilə bağlıdır. Öncədən



düzgün qiymətləndirmə və proqnozlaşdırma olmadan dövlət və cəmiyyət üçün davamlı uğurlu fəaliyyət modeli hazırlamaq indi imkansızdır. Çünki bütün dünyada müxtəlif xarakterli proseslər elə sürət və intensivliklə gedir ki, onlar, eyni zamanda, məzmunca dəyişirlər. Belə şərtlər daxilində uzunmüddətli proqnozlar vermək olduqca mürəkkəb və çətin məsələdir.

Deməli, Liderin intiusiyası, siyasi, geosiyasi, diplomatik vizyonu ön sıraya çıxır. Təsadüfi deyildir ki, filosflar və politoloqlar XXI əsr liderləri üçün ünsiyyət potensialını, situasiyanı duymaq qabiliyyətini və bütövlükdə, kommunikabellik keyfiyyətini fəaliyyətin həlledici faktorları sırasında görürlər. Təcrübə də göstərir ki, liderin uğuru rasional-məntiqi təhlildən çox şəxsi keyfiyyətlərdən asılıdır. Bu bağlılıqda onun siyasi iradəsi, intellektual və əxlaqi fəzilətliliyi, qətiyyəti, xarizması və cəsarəti əhəmiyyətli rol oynaya bilir.

Azərbaycan təcrübəsi də yeni liderliyin bu özəlliklərini sınaqdan keçirmişdir! Ulu öndər keçən əsrin 1994-1995-ci illərində çox ağır şərtlər daxilində dövlət çevrilişinə cəhd edənlərin qarşısına yüksək siyasi iradə, qətiyyət və cəsarətlə çıxdı. Çıxdı və qalib gəldi! 2003-cü ildə, bütövlükdə, postsovet məkanı, o cümlədən Cənubi Qafqaz üçün olduqca mürəkkəb və ziddiyyətli situasiyada İlham Əliyev dövlətə başçılığı üzərinə götürdü və güclü mübarizə meydanına atıldı! Qarşıya müxtəlif istiqamətlərdən çıxarılan maneələri dəf edərək 20 ildən sonra Qarabağda qalib gəldi.

Nəzərə almaq lazımdır ki, neft strategiyasını Gürcüstan və Ukrayna böhranları fonunda uğurla davam etdirmək üçün də cəsarət lazım idi, Avropa İttifaqı ilə əlaqələri bərabərhüquqlu konstruktiv məcraya yönəltmək də qətiyyət və cəsarət tələb edirdi, II Qarabağ savaşında çoxlu düşmənin hamısını bir yerdə məğlub etmək üçün də cəsarətli, qətiyyətli və müdrik olmaq gərəkdi! Bu çətinliklərin hamısından Azərbaycan lideri dövrün çağırışlarına sinə gərən yüksək keyfiyyətləri sayəsində üzüağ və alnıaçıq çıxdı. Buna görə də andiçmə nitqində Prezidentin biz yeni dövrə “alnımız açıq, üzümüz ağ, başımız dik daxil oluruq” deməyə hərtərəfli haqqı vardır. İlham Əliyev keçən dövrü cəmiyyətdaxili sinergizmin yüksək səviyyəsi ilə başa vurdu.

Məsələnin digər vacib aspekti yeni şərtlərdə liderlik nümunəsinin yaradılması ilə əlaqəlidir. Bu prosesdə artıq ilkin parametrlər özünü göstərməkdədir. Prezidentin andiçmə nitqində bunun nümunələri vardır. Onlardan birinin üzərində dayanaq.

### Bizim ailəmiz Türk dünyasıdır

Yeni liderliyin əsas əlamətlərinə hansı səbəblərdən faktiki olaraq regional və qlobal miqyasların qarşılıqlı əlaqəsi prizmasında geosiyasi kontekstli faktordan başlamağımız səbəbsiz deyil. Məsələnin mahiyyəti ondan ibarətdir ki, yaxın gələcək üçün qlobal kontekst daha çox aparıcı olacaqdır. O cümlədən, liderlikdə dövlətin hansı geosiyasi düşərgədə olmasının prinsipial əhəmiyyəti var. Nümunə üçün deyək ki, Ermənistan kimi kvazidövlətlər hələ də özlərinə geosiyasi düşərgə axtarırlar. Rəsmi İrəvan açıq bəyan edir ki, indiyə qədər arxalandığı təhlükəsizlik modeli özünü doğrultmadı, ona görə də yeni dostlar tapmalıdır. Hələ də onlar üçün “bu dostlar” müəyyən olunmamışdır. Gürcüstanın da geosiyasi düşərgə seçimində risk faktoru qalır. Ukraynadakı vəziyyəti hər kəs görür – rəsmi Kiyev faktiki olaraq iki geosiyasi xəttin arasında qalmışdır. Başqa misallar da göstərmək olar.

Bunlardan çıxa biləcək ümumi nəticə ondan ibarətdir ki, XXI əsrdə dövlətin geosiyasi mövqe seçimi həlledici ola bilər. Həmin bağlılıqda Azərbaycan Prezidentinin andiçmə mərasimində söylədiyi nitqində bir məqamı xüsusi vurğulaması çox əhəmiyyətlidir. İlham Əliyev nitqində bunu belə ifadə etmişdir: “Bu gün dünyada gedən prosesləri hər kəs görür. Dünya, faktiki olaraq, Üçüncü dünya müharibəsinə çox yaxındır. Bəziləri hesab edir ki, artıq bu Üçüncü dünya müharibəsi başlamışdır, müxtəlif fərziyyələr ola bilər. Təbii ki, müasir müharibələr əvvəlki müharibələrdən fərqlənir”.

Deməli, dövlətin təhlükəsizliyi prioritet olaraq qarşıda durur. Onu təmin etmək üçün mütləq doğru geosiyasi seçim etmək lazımdır. Vurğulanan qlobal şərtlərin işığında Prezident İlham Əliyevin aşağıdakı geosiyasi seçimi dövlətçilik baxımından həyati əhəmiyyətlidir. Dövlət başçısı yüksək tribunadan qətiyyətlə və tam açıq ifadə etmişdir: “...İlk növbədə, Türk Dövlətləri Təşkilatı çərçivəsində səylərimizi davam etdirəcəyik. Bu, bizim üçün prioritetdir, mən bunu açıq demək istəyirəm, yəqin ki, indi aparılan siyasət də hər kəsə bunu aydın göstərir. Bu, bizim üçün əsas beynəlxalq təşkilatdır, çünki bu, bizim ailəmizdir. Bizim başqa ailəmiz yoxdur. Bizim ailəmiz Türk dünyasıdır”.

Bu fikrin tarixi, siyasi, geosiyasi, dövləti və toplumsal inkişaf aspektlərində geniş təhlil edilməsinə ciddi ehtiyac vardır. Çünki bu məqam birbaşa Azərbaycanın müstəqil dövlətçiliyinin inkişaf etməsi imkanları ilə sıx bağlıdır. Eyni zamanda, “bir millət, iki dövlət” kəlamının geniş və dərin mənalı aspektləri ilə əlaqəlidir. Azərbaycan müstəqil dövlət quruculuğu prosesini faktiki olaraq yeni mərhələyə yüksəldir. Buna yeni liderlik konsepsiyası ilə gedir. Yeni liderlik yeni liderin növbəti tarixi mərhələdə malik olacağı keyfiyyətlərlə müəyyən olunacaq. Məsələnin bu tərəfini ayrıca nəzərdən keçirəcəyik.

**(ardı var)**

*Füzuli QURBANOV,*
*XQ-nin analitiki,*
*fəlsəfə elmləri doktoru*

Redaksiyanın poçtundan

## Xalqın təbrik məktubları

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə**

**Çox hörmətli, möhtərəm cənab Prezident İlham Əliyev!**

**Sizi "Laran" Məhdud Məsuliyyətli Cəmiyyətinin kollektivi bu il fevralın 7-də keçirilən prezident seçkilərində qazandığınız böyük qələbə münasibətilə səmimi-qəlbdən təbrik edir.**

**2020-ci ildə işğal altında olan Azərbaycan torpaqları Ali Baş Komandan kimi sizin rəhbərliyinizlə Müzəffər Ordumuz tərəfindən tam şəkildə azad edilmişdir. Dünya hərb tarixində ilk olaraq yeni hərbi strategiya və taktikalarla qazanılan böyük Zəfər Azərbaycan tarixinin şanlı səhifələrindən birinə çevrilmişdir.**

**7 fevral prezident seçkilərində Azərbaycan xalqının böyük ruh yüksəkliyi ilə Sizə qazandırdığı Qələbə, bütövlükdə, ölkəmizin zəfəridir. Xalqımız əmindir ki, siz bütün gücünüzü və potensialınızı Azərbaycanın davamlı inkişafı yolunda sərf edəcəksiniz.**

**Hörmətli cənab Prezident!**

**Müstəqil və suveren Azərbaycan dövlətinin inkişafı, güclənməsi naminə fəaliyyətinizdə sizə yeni-yeni uğurlar arzulayırıq!**

**Sizə dərin hörmətlə,**

**Nurlan NURƏLİYEV, "Laran" Məhdud Məsuliyyətli Cəmiyyətinin təsisçisi və direktoru**



# Ordu – xalqımızın qürur və güvənc yeri

**"Biz döyüş meydanında cəmi 44 gün ərzində Ermənistan ordusunu tamamilə darmadağın etmişdik. Elə günə salmışdıq ki, özlərinin etirafına görə, 12 mindən çox fərarisi olmuşdur. Azərbaycan Ordusundan bir nəfər də döyüş meydanını tərk edib qaçmamışdır. Bu, bir daha Azərbaycan xalqının əyilməz ruhunu göstərir".**

**İlham ƏLİYEV**
**Ali Baş Komandan**

**Hər bir xalq öz milli-mənəvi, əxlaqi dəyərləri ilə güclüdür. Zəngin mədəniyyət, ədəbiyyat və incəsənət də toplumların başını uca edir. Amma, millətin torpağını, qeyrət və namusunu qoruyan onun ordusudur. Azərbaycan əsgəri, zabiti, həm qeyrətli, həm də peşəkardır. Bunu Vətən Müharibəsi zamanı gedən ölüm-qalım döyüşləri sübut edib! Xalqımızın bugünkü və gələcək nəsilləri Tarixi Zəfərimizlə fəxr edəcəklər!**

2020-ci ilin noyabrının ilk günlərində Şuşanın sıldırım qayalarına yüngül silahlarla, demək olar ki, əliyalın dırmaşaraq, yağı düşmənin başını əzən Azərbaycan əsgərinin döyüş əzmi, yüksək peşəkarlığı bütün dünyanı heyrətə gətirib. Bəşəriyyət öz hərb tarixində çox nadir hallarda buna bənzər, anoloji mənzərə ilə üzləşib. Şuşanın fəthini isə haqlı olaraq, 1915-1916-cı illərdəki Çanaqqala savaşında qardaş Türkiyə xalqının nümayiş etdirdiyi qəhrəmanlığa bənzədirlər.

Bu il fevralın 14-də Prezident, Ali Baş Komandan İlham Əliyev Azərbaycan Respublikasının Milli Məclisində andiçmə mərasimi zamanı olduqca parlaq nitq söylədi. Dövlətimizin başçısı bütün istiqamətlər üzrə görülən işlər, qarşıda duran vəzifələr barədə dərin məzmunlu, məntiqli fikirlər səsləndirdi. Cənab İlham Əliyev Milli Ordunun qeyrətli əsgər və zabitlərinin son illərdəki hünərindən xüsusi bir şövq və sevgi ilə söz açdı.

Yəqin ki, mənimlə razılaşarsınız, Prezident İlham Əliyev həmin anlarda son dərəcə xoşbəxt insan təsiri bağışlayırdı. Onun buna tam haqqı var! Bəli, gücü, qüdrəti, yüksək peşəkarlığı ilə seçilən, ən başlıcası, milli ruhu və şərəfini hər şeydən uca tutan bir ordunun Ali Baş Komandanı olmaq böyük səadətdir. Ordunun hər bir əsgər və zabitinin öz Komandanına olan sevgi və sədaqəti sonsuzdur!

2020-ci ilin payızında Azərbaycanın mərd, igid əsgər və zabitləri 44 günlük şanlı savaşda qeyri-adi şücaət və qəhrəmanlıqları ilə bütün dünyanı heyrətə gətirdilər. Bununla da Azərbaycan Ordusu Ermənistanın uzun illər ərzində yaratmağa çalışdığı mifləri darmadağın etdi. Dünya belə bir danılmaz həqiqətin şahidi oldu ki, erməni ordusu qorxaq və təslimçilər ordusudur. Prezident sonsuz bir qürur hissilə vurğuladı ki, "bunu bizim cəsur döyüşçülərimiz qan tökərək, irəliyə gedərək, 5-6 müdafiə xəttini aşaraq sübut etmişlər və 44 günlük Vətən müharibəsi bizim əyilməz ruhumuzu göstərmişdir".

Azərbaycan dövləti 2023-cü ilin 19-20 sentyabr tarixlərində Rusiya sülhməramlılarının müvəqqəti nəzarətində olan Xankəndi şəhəri və ətrafındakı ərazilərdə uğurlu antiterror əməliyyatı keçirmişdir. Bu əməliyyatın hər bir detalı zərgər dəqiqliyi ilə hazırlanaraq icra olunmuşdur. Prezident İlham Əliyev həmin əməliyyatla bağlı demişdir: "Sentyabr ayında keçirilmiş antiterror əməliyyatı bir daha Silahlı Qüvvələrimizin gücünü göstərdi. Cəmi bir neçə saat ərzində Ermənistan ordusunun təxminən 15 minlik ekspedisiya korpusu tamamilə iflic vəziyyətinə salınmışdır və onlar ikinci dəfə kapitulyasiya aktına imza atmağa məcbur olmuşlar".

Bu gün ölkəmizin ərazi bütövlüyünü qorumaq istiqamətində Milli Ordunun qarşısında mühüm vəzifələr durur. Azərbaycan xalqı öz əsgər və zabitlərinə güvəndiyi kimi, ordu da daim xalqın və dövlətin hərtərəfli dəstəyini hiss edir. Təsadüfi deyil ki, dövlətimizin başçısı andiçmə mərasimində bildirdi ki, "növbəti illərdə qarşımızda duran əsas vəzifələrdən biri Ordumuzun, Silahlı Qüvvələrimizin daha da gücləndirilməsidir. İkinci Qarabağ müharibəsindən sonra bu istiqamətdə çox böyük addımlar atıldı və mən müxtəlif vaxtlarda bu məsələ ilə bağlı öz sözlərimi demişdim. Demişdim ki, bu gün Azərbaycan Ordusu 2020-ci ildəkindən daha güclüdür və cəmi bir neçə saat davam edən antiterror əməliyyatı bunun bariz nümunəsidir".

Azərbaycan Ordusunun parlaq uğurları dövlətimizin və xalqımızın düşmənlərini çox narahat edir. Onlar rəsmi Bakının milli maraqlarımıza xidmət edən müstəqil siyasətini hər cür vasitələrlə ləkələməyə çalışır, ölkəmizi beynəlxalq aləmdə nüfuzdan salmağa cəhd edirlər. Təəssüf ki, Ermənistandakı revanşist qüvvələr hələ də reallıqları görmək istəmirlər. Onlar xaricdəki havadarlarının, xüsusilə Fransanın dəstəyilə Cənubi Qafqazda sülh və sabitliyin bərqərar olunmasına hər cür maneə olmağa cəhd edirlər.

Amma bütün bu cəhdlər əbəsdir. Ona görə ki, Azərbaycan dövləti bu gün regionda sülh və sabitliyin qarantı rolunda çıxış edir. Yalnız sülh və təhlükəsizlik bölgəyə inkişaf, tərəqqi gətirə bilər! Bunun bəhrəsini isə təkcə Azərbaycan xalqı deyil, Cənubi Qafqazda yaşayan bütün millətlər və xalqlar görəcəklər. Sadəcə, erməni xalqı bunu başa düşməli, sağlam düşüncə və müdriklik nümayiş etdirməlidir.






Ermənistan rəhbərliyi isə hələ də səhv yoldan çəkinmək istəmir. Prezident İlham Əliyev bu yaxınlarda baş verən insident barədə demişdir: "Bu günlərdə Ermənistan tərəfindən törədilmiş yeni təxribata dərhal adekvat cavab verildi, düşmən cəzalandırıldı. Bu, bir daha onlara və əsasən onlara ürək-dirək verən, üstümüzə göndərən qüvvələrə siqnal idi ki, bizim qabağımızda heç kim dura bilməz".

Məlumdur ki, bu gün bütün dünyada hərbi sahədə texnoloji inkişaf və üstünlük böyük əhəmiyyət daşıyır. Azərbaycan dövləti Milli Orduda yüksək mənəvi döyüş ruhunun daha da gücləndirilməsi, onun ən yüksək silahlarla təmin olunması üçün bütün zəruri addımları atır. Azərbaycan Ordusu bu gün döyüş qabiliyyətinə görə, dünyanın ən qüdrətli və yenilməz ordularından biridir.

Ali Baş Komandanın xüsusi vurğu ilə qeyd etdiyi kimi, Qələbəmizin əsas amili Azərbaycan döyüşçüsüdür. Düşməni məhv edən və Bayrağı azad edilmiş torpaqlara sancan insandır, əsgərdir, zabitdir! Azərbaycan xalqı həm də ona görə xoşbəxtdir ki, məhz belə bir yüksək döyüş əzminə malik olan orduya malikdir!

***Məsaim ABDULLAYEV***
***XQ***

**Naxçıvan Muxtar Respublikası – 100**

# Qədim türk yurdu – Azərbaycanın ayrılmaz hissəsi

**Qazanılmış uğurda Azərbaycan diplomatiyasının da böyük rolu var idi. Naxçıvan məsələsinin həllindəki roluna görə, Nəriman Nərimanov Moskva danışıqlarına ezam edilmiş Azərbaycan nümayəndəsi B.Şahtaxtinskiyə yazırdı: "Naxçıvana görə çox sağ ol! Görürsən, sən artıq işin içinə girmisən və işi düzgün aparırsan. Bu, məni sevindirir".**

**(Əvvəli XQ-nin 10, 11, 13 fevral 2024-cü il tarixli saylarında)**

## Qars müqaviləsi və Naxçıvan

Naxçıvanın Azərbaycanın protektoratlığına verilməsindən Sovet Rusiyası və bu prosesdə iştirak edən nümayəndələri peşman olmuşdular. B.Leqran G.Çiçerinə yazırdı ki, Naxçıvanda Azərbaycanın protektoratlığının tanınması tamamilə arzuedilməz nəticələrə gətirib çıxaracaq.

Moskva müqaviləsindən sonra türk diplomatiyasının əsas məqsədlərindən biri Türkiyə hökuməti ilə Cənubi Qafqaz respublikaları arasında ayrı-ayrılıqda müstəqil müqavilə bağlamaq idi. Sovet Rusiyası isə Cənubi Qafqaz respublikalarından tələb edirdi ki, onlar Türkiyə ilə belə müqavilə bağlamasınlar. Rusiya Cənubi Qafqaz Respublikalarını Türkiyə ilə vahid müqavilə bağlamağa məcbur edirdi. Cənubi Qafqaz respublikaları da Rusiyanın mövqeyini müdafiə edirdilər.

Türkiyə ilə Cənubi Qafqaz respublikaları arasında ərazi-sərhəd məsələlərini və münasibətlərin tənzimlənməsi üçün Qars şəhərində konfrans keçirilməsi razılaşdırıldı. AK (b)P MK-nın bürosu Türkiyə ilə müqavilə bağlanması üçün Azərbaycan nümayəndə heyətinə rəhbərliyi B.Şahtaxtinskiyə (1921) son günlərində 13 nəfərlik heyət Qars konfransında iştirak etmək üçün Tiflisə yola düşdü.

B.Şahtaxtinski Azərbaycan xalq fəhlə-kəndli nəzarəti komissarı ilə yanaşı, həm də Naxçıvan İnqilab Komitəsinin sədri idi. Naxçıvanın maraqlarını konfransda müdafiə etmək üçün SSR-in Xalq Komissarları Soveti Tağı Səfiyevi Qarsa ezam etmişdi. RK(b)P MK-nın Qafqaz bürosu Naxçıvanın idarə olumasına müxtəlif yollarla müdaxilə edirdi. Bunları nəzərə alan Azərbaycan rəhbərliyi B.Şahtaxtinskini hələ Qars konfransının gedişində Naxçıvan XKS-in sədri seçmişdi və hökumətin tərkibi yeni kadrlarla möhkəmləndirilmişdi.

Qars konfransı 26 sentyabr – 13 oktyabr 1921-ci ildə keçirildi. Türkiyə tərəfinə Kazım Qarabəkir paşa, Rusiyaya Yakov Qanetski, Ermənistana Aşkanaz Mravyan, Gürcüstan tərəfinə isə Şalva Eliava rəhbərlik edirdi. Konfrans Qars şəhərindəki Ordu küçəsində xüsusi ayrılmış binada keçirildi. Türkiyə heyəti çalışırdı ki, Cənubi Qafqaz respublikaları ilə ayrı-ayrılıqda müqavilə bağlasın, lakin Rusiya nümayəndəsi buna qarşı çıxdı. Konfransda tərəflər arasında siyasi, iqtisadi və mədəni xarakterli müraciətlər aparıldı.

Konfrans zamanı Azərbaycana aid ən mühüm məsələlərdən biri Naxçıvanla bağlı idi. B.Şahtaxtinski konfransda Naxçıvan haqqında məlumat verdi. Naxçıvan məsələsi hüquqi cəhətdən Qars müqaviləsində bu redaktədə verildi: "Türkiyə hökuməti, Azərbaycan və Ermənistan Sovet respublikaları müqavilənin III əlavəsində göstərilən sərhədlər daxilində Naxçıvan vilayətinin Azərbaycanın himayəsi altında muxtar ərazi təşkil etməsi haqqında razılığa gəlirlər".

Məsələnin belə qəbul edilməsi Ermənistanı Naxçıvan vilayətinin Azərbaycan ərazisi olduğunu tanıyır və müqaviləni imzalamaqla öz üzərinə siyasi-hüquqi öhdəlik götürmüş olurdu. Lakin bu halda Moskva müqaviləsindən fərqli olaraq, Azərbaycanın Naxçıvanı "heç bir üçüncü dövlətə güzəştə getməməsi" sənəddə yer almırdı. Lakin müqavilənin 5-ci maddəsində Naxçıvanın statusu məsələsində razılığa gələn tərəflərin müəyyən edilməsidir. Bunlar Türkiyə, Azərbaycan və Ermənistan hökumətləri idi.

Naxçıvan bölgəsinin sahəsi Moskva müqaviləsindəki ilə müqayisədə azaldılmışdı. Bunun nəticəsində Naxçıvanın qərb sərhədləri kiçilmiş, Dəvəli və Arazdəyən Ermənistana verilmişdi. Ümumiyyətlə, Naxçıvanın sərhədi Urmiya kəndindən başlayıb Naxçıvan qəzasının şərq inzibati sərhədində qurtarırdı. Qars müqaviləsi ilə sahəsi 5 min 753 kvadratkilometr oldu.




Qars müqaviləsinin əhəmiyyətli tərəflərindən biri onun müddətsiz imzalanması idi. Ümummilli lider Heydər Əliyev beynəlxalq Qars müqaviləsinin tarixdəki yerini və rolunu yüksək qiymətləndirərək demişdir: "Naxçıvan Azərbaycanın əsas torpağından ayrı düşdüyünə görə Naxçıvanın bütövlüyünü, təhlükəsizliyini, dövlətçiliyini, muxtariyyətini gələcəkdə də təmin etmək üçün Qars müqaviləsi bizim üçün çox böyük, əvəzi olmayan sənəddir".

Moskva və Qars müqavilələrinə görə, Türkiyənin Naxçıvanın statusunda tərəf ölkə kimi müəyyənləşməsi göstərmişdir ki, ermənilər üçün daha bir iş qalmamışdır.

## Naxçıvanın yeni idarəçilik sistemi

Beynəlxalq müqavilələrə aid keçirilən konfranslar dövründə Ermənistan bütün vasitələrdən istifadə edirdi ki, Naxçıvan bölgəsini ələ keçirsin. Hələ 1921-ci ilin yanvarında B.Şahtaxtinski Naxçıvanın fövqəladə komissarı təyin edildi. May ayında isə Əlicabbar İsmayılov partiya və sovet işlərində fövqəladə müvəkkil kimi Naxçıvana ezam edildi. Bu vaxt Naxçıvanda yaranmış mürəkkəb vəziyyətlə əlaqədar D.Bünyatzadə və Ə.Qarayev də Naxçıvana göndərildi. Dekabrın 22-də isə Azərbaycan K (b)P MK-nın siyasi və təşkilat bürosunun qərarı ilə Naxçıvan vilayət partiya komitəsi yaradıldı.

1921-ci ilin sentyabrında Naxçıvan SSR Xalq Komissarları Soveti təşkil edildi. Həmin ilin sonlarında sovetlərə seçkilər keçirildi, inqilab komitələri və yoxsul komitələri ləğv edildi. 1922-ci il yanvarın 25-də Naxçıvan SSR-in birinci Sovetlər qurultayı keçirildi. Qurultay diyarda sovet, təsərrüfat və mədəni quruculuğa dair mühüm qərarlar qəbul etdi. Qurultay Ölkə İnqilab Komitəsini ləğv edib Naxçıvan SSR Mərkəzi İcraiyyə Komitəsi və Naxçıvan SSR Xalq Komissarları Soveti yaratdı.

Naxçıvan 1921-ci ildən Azərbaycanın muxtar qurumu kimi idarə olunurdusa da, 30-cu illərin ortalarına qədər rəsmi sənədlərdə Naxçıvan SSR adlandırılmışdır. 1922-ci il dekabrın 12-də keçirilən Zaqafqaziya Sovetlər Qurultayının Naxçıvanla bağlı qərarında göstərildi ki, "Naxçıvan Respublikası muxtariyyət hüququ ilə Azərbaycanın ayrılmaz tərkib hissəsi hesab edilsin". Aradan bir ay keçməmiş – 1923-cü il yanvarın 18-də RK (b)P Zaqafqaziya Ölkə Komitəsi təklif etdi ki, Naxçıvan muxtar vilayətə, Naxçıvan XKS və Naxçıvan Mərkəzi İcraiyyə Komitəsi isə Naxçıvan Ölkəsinin İcraiyyə Komitəsinə çevrilsin.

1923-cü ilin fevral ayının 27-də III Ümumnaxçıvan Sovetlər Qurultayı Naxçıvan Respublikasını Naxçıvan ölkəsinə çevirdi və Naxçıvan Ölkə İcraiyyə Komitəsini seçdi. İyunun 16-da keçirilən Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin üçüncü sessiyası bu qərarı təsdiq etdi.

## Naxçıvan Muxtar Respublikası

Naxçıvanın statusunda Naxçıvan Muxtar Respublikasının təşkili dəyişikliklərinin edilməsi Türkiyəni ciddi narahat edirdi. Ona görə də Türkiyə hökuməti Sovet hökumətinə etiraz etdi. Etiraz qəbul olundu. Nəticədə, 1923-cü il dekabrın 11-də Azərbaycan K (b)P MK Rəyasət Heyətinin qərarı ilə Naxçıvan Ölkəsi Naxçıvan Respublikasına çevrildi.

Buna müvafiq olaraq Naxçıvan Mərkəzi İcraiyyə Komitəsinin I plenumunun iclası 1924-cü il yanvarın 18-də ölkənin Naxçıvan MSSR-ə çevrilməsi məsələsini müzakirə etdi. Naxçıvan MSSR MİK, XKS və 5 nazirlik yaradıldı. Naxçıvan MSSR inzibati cəhətdən Şərur, Ordubad və Naxçıvan qəzalarına bölündü. MİK-in Rəyasət Heyəti seçildi. B.Talıblı sədr seçildi. 1924-cü il fevralın 9-da Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi Naxçıvan ölkəsini Naxçıvan SSR-yə çevirmək haqqında qərar qəbul etdi.



Beləliklə, Naxçıvanla bağlı qəti qərar qəbul edildi. 1924-cü ilin aprelində Naxçıvan MSSR-in Əsasnaməsi, 1926-cı ilin aprelində isə Naxçıvan Respublikasının Konstitusiyası qəbul edildi. Naxçıvana Azərbaycanın tərkibində muxtariyyət statusunun verilməsi və Naxçıvan Muxtar Respublikasının təşkili onun özünəməxsus coğrafi mövqeyi və Azərbaycandan ayrı düşməsi ilə bağlı idi.

Muxtariyyətin ilk illərindən başlayaraq Naxçıvana erməni-bolşevik həmlələri intensiv xarakter almış, Ulu öndər Heydər Əliyevin dediyi kimi "Naxçıvanın hüquqlarını tam məhdudlaşdırmaq" xətti tutulmuş, Naxçıvanın tarixi torpaqları hesabına Ermənistan ərazisinin süni surətdə artırılması siyasəti yeridilmişdir.

## Ermənilərin Naxçıvana növbəti iddiaları

Moskva və Qars müqavilələrinin ayrı-ayrı maddələri Ermənistanda birmənalı qəbul edilmədi. Xüsusilə, Qars müqaviləsinin nəticələrindən narazı qalan və onun ermənilər üçün xeyirsiz olmasından şikayətlənən müəyyən qüvvələr müxtəlif yollar axtarmağa başladılar. 1921-ci ilin iyununda Millətlər Liqası Cəmiyyətlərinin Cenevrədə keçirilən qurultayında öz xeyirlərinə qətnamə qəbul etdirdilər.

Ermənilər Moskva və Qars beynəlxalq müqavilələrinə məhəl qoymayaraq Azərbaycana və onun Naxçıvan bölgəsinə dair ərazi iddialarını yenə də irəli sürürdülər: "Naxçıvan və Şərursuz Ermənistan yaşaya bilməz". Bu beynəlxalq müqavilələr müddətsiz bağlansa da, ermənilər tərəfindən dəfələrlə onların qüvvədən salınmasına cəhdlər edilmişdi. 1989-cu ilin noyabrında daşnak partiyasının Yerevanda keçirdiyi qurultayında bu müqavilələrə yenidən baxılması, hətta onların ləğvi tələb olunmuşdu.

Ermənistan, daşnaklar Rusiyanın bəzi qüvvələrini, Rusiya Dövlət Dumasının bir neçə deputatını bu prosesə cəlb etməklə Moskva müqaviləsinin ləğvinə çalışır, bununla əlaqədar Rusiya prezidenti və xarici işlər nazirinə müraciət etmişdilər. Bu müqavilələr pozularsa (bu, qeyri-mümkündür). Azərbaycan Naxçıvanın təhlükəsizliyi ilə bağlı Türkiyə ilə ikitərəfli qarantiya müqaviləsi bağlaya bilər. Moskva müqaviləsi ötən müddət ərzində özünün siyasi və tarixi aktuallığını itirməyib, bu müqavilənin ləğvi mümkün deyil.

Qars müqaviləsi ilə Cənubi Qafqaz respublikalarının sərhədləri dəqiqləşsə də, Ermənistan Naxçıvana qarşı torpaq iddialarını səsləndirməkdədir. "Qars" beynəlxalq miqyasda təsdiq olunmuş müqavilədir. Bu müqavilə ləğv olunarsa, bu, ermənilər üçün acınacaqlı vəziyyət yaradar. Onda Türkiyə Gümrü müqaviləsinə istinad edəcək. Rəsmi Moskvanın isə Qars müqaviləsindən imtina etmək və ya bu məsələyə yenidən baxmaq fikri yoxdur.

Ermənistan 90-cı illərin əvvəllərində Naxçıvana hücum etdiyi dövrdə Ulu öndər Heydər Əliyev Qars müqaviləsini Türkiyə gündəminə gətirdi, Ermənistanın təcavüzkar mövqeyi ifşa edildi. 57 dövlət Ermənistanın təcavüzkarlığını pislədi, NATO isə bu barədə xüsusi bəyanat verdi.

Moskva və Qars müqavilələrinin 100 illiyi dövründə də Ermənistanın təşəbbüsləri heç bir nəticə vermədi. Bu müqavilələri Ermənistan dəfələrlə pozmuşdur. Belə ki, müqavilələrdən sonra Dərələyəz əhalisinin qaçqın olmasından istifadə edərək həmin əraziləri Ermənistana birləşdirib. 1924-cü ildə rus kartoqrafı Rıbakovun işlədiyi xəritədə "Həsənqulu bağı" Naxçıvan ərazisi kimi göstərilib. 1929-cu il xəritəsində isə bu ərazi Ermənistan ərazisi kimi verilib.

Zaqafqaziya MİK Rəyasət Heyətinin 1929-cu il 18 fevral tarixli qərarı ilə Naxçıvan diyarının 657 kv. km sahəsi Ermənistana verilmişdir. 1929-1931-ci illərdə Aldərə, Lehvaz, Astazur, Nüvədi və b. Ermənistana verilməsi nəticəsində Mehri rayonu yaradıldı. 1938-ci ildə Sədərək və Kərki kəndlərinin ətrafındakı torpaqlar itirildi. 80-ci illərin ortalarında Ordubad rayonunun Kotam və Kilit kəndləri torpaqlarının bir hissəsi Ermənistana bağışlandı, 1991-ci ilin yanvarında Kərki kəndi ermənilər tərəfindən işğal olundu.

Qeyd etməliyik ki, Ermənistan Respublikası 9 min kv. km ərazidə yaradılıb, sonradan onun ərazisi Azərbaycan torpaqları hesabına 29,8 min kv. km-ə çatıb. Bütün bunlarla kifayətlənməyən ermənilər yeni ərazilər işğal etmək arzusu ilə yaşayırlar. Lakin II Qarabağ müharibəsi və lokal antiterror əməliyyatı erməni xülyalarına son qoydu, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi bərpa edildi.

**(ardı var)**

***İsmayıl HACIYEV,***
***AMEA Naxçıvan bölməsinin sədri, akademik***

---

# Azərbaycanın "yaşıl enerji" poliqonu

## Naxçıvanda enerjinin 32 faizi alternativ mənbələrdən alınır

**2014-cü ildən başlayaraq dünyada alternativ və bərpaolunan enerji istehsalı 2 dəfədən çox artıb. "Yaşıl enerji"dən istifadənin aktuallığının sürətlə artdığı bir dövrdə ölkəmizdə də bu sahənin inkişafı ilə bağlı konkret hədəflər müəyyənləşdirilib. Naxçıvan Muxtar Respublikası son illərdə bu sahədə önəmli uğurlar əldə edib.**

Prezident İlham Əliyevin imzaladığı "Azərbaycan 2030": sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də respublikamızda "yaşıl enerji" istehsalının genişləndirilməsi mühüm yer tutur. Ölkəmizin ümumi enerji istehsalında hədəfi bərpaolunan enerji payının 2025-ci ildə 24 faizə, 2030-cu ildə isə 30 faizə çatdırmaqdır.

Təbii ki, ümumölkə konteksində baxdıqda, respublikanın iqtisadi rayonları içərisində Qarabağ və Şərqi Zəngəzurla yanaşı, Naxçıvanın da zəngin alternativ və bərpaolunan enerji mənbələri diqqət çəkir. Çünki muxtar respublikanın yerləşdiyi əlverişli coğrafi mövqe və iqlim şəraiti imkan verir ki, ekoloji cəhətdən təmiz və bərpaolunan alternativ enerji mənbələrindən geniş istifadə edilsin. Bu sırada isə günəş enerjisindən istifadə imkanları daha çox ön plana çıxır.

Aparılan hesablamalara görə, muxtar respublika ərazisində günəşli saatların ortaillik miqdarının 2600-2800 saat, hər kvadratmetrə düşən Günəş enerjisinin intensivliyi 0,8-1,2 kilovatsaat təşkil edir. Bu isə soyuq fəsillərdə belə günəş enerjisindən istifadə etmək imkanlarını ortaya qoyur.

Təsadüfi deyil ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev də çıxışlarında dəfələrlə Naxçıvanın "yaşıl enerji" üçün zəngin potensiala malik olduğunu vurğulayıb. Hətta dövlət başçısı sonuncu dəfə Naxçıvanda Türkiyə Respublikasının Prezidenti ilə görüşündə də bu məsələyə diqqət çəkərək bildirib: "Naxçıvanın qazı, nefti olmasa da, günəşi var və Naxçıvanda günəş elektrik stansiyalarının inşası ilə bağlı bizim böyük planlarımız var. Bu planlar gerçəkləşərsə, Naxçıvan "yaşıl enerji" zonasına çevrilə bilər. Çünki burada həm günəş, həm külək, eyni zamanda su elektrik stansiyalarının inşası üçün böyük potensial var və gələcəkdə Naxçıvandan Türkiyəyə, ən azı, 1000 meqavat həcmində yaşıl enerji ixracı da mümkün olacaqdır".



Son illərdə muxtar respublikada haqqında bəhs olunan enerji mənbələrindən təmiz enerji istehsalı məqsədi ilə bir sıra addımlar atılıb. Xüsusilə yeni Günəş və külək elektrik stansiyalarının tikilib istifadəyə verilməsi muxtar respublikada istehsal edilən ümumi enerjidə bərpaolunan enerjinin payını artırıb.

Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidmətindən verilən məlumata görə, 2023-cü il ərzində muxtar respublikanın elektrik stansiyalarında 474,6 milyon kilovat saat elektrik enerjisi istehsal edilib sistemə ötürülüb ki, bu enerjinin 94,4 milyon kilovat saatı və ya 19,89 faizi su elektrik stansiyalarında, 319,7 milyon kilovat saatı və ya 67,36 faizi istilik elektrik stansiyalarında, 60,5 milyon kilovat saatı və ya 12,75 faizi günəş elektrik stansiyalarında istehsal olunub.

Eyni zamanda, 2023-cü ilin 12 ayı ərzində alternativ və bərpaolunan enerji mənbələrində 154,9 milyin kilovat saat elektrik enerjisi istehsal edilərək sistemə ötürülüb ki, bu, stansiyalar üzrə sistemə ötürülən ümumi enerjinin 32,64 faizini təşkil edir. Ümumilikdə isə ötən il muxtar respublikadakı elektrik stansiyalarının ümumi generasiya gücü 244,8 meqavata, Günəş Elektrik stansiyalarının ümumi gücü 39 meqavata, illik istehsal gücü 58,5 milyon kilovatsaata çatdırılıb.

Xatırladaq ki, hazırda muxtar respublikanın alternativ və bərpaolunan enerji potensialından istifadə ilə bağlı konkret dövlət sənədi mövcuddur. "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda 11 prioritet istiqamətin biri, məhz elektrik enerjisi istehsalının və ixracının artırılmasıdır.

Yaxın gələcəkdə isə proqram üzrə Naxçıvan Muxtar Respublikasının enerji sisteminin Avropa Elektrik Ötürmə Sistemləri Operatorları Assosiasiyasının (ENTSO-E) şəbəkəsinə qoşulması da diyarın alternativ və bərpaolunan enerji istehsalı və ixracı potensialını artıracaq.

**Səbuhi HƏSƏNOV**
**XQ**

**Naxçıvan**

# Alıcı alışıb yanır, media haray salır, amma...

## Belə yerdə deyirlər ki, dəyirman öz işindədir

**Ticarət sektorunda xidmətin davamlı yaxşılaşması hər zaman diqqət mərkəzində saxlanılıb. Bu amilə xüsusi önəm verilməsi isə, ilk növbədə, alıcının lazımi keyfiyyətli məhsulu əlverişli bir vaxtda əldə etmək arzusu ilə bağlı olub. Xidmətin kefiyyət və səviyyəsi müəssisə rəhbərinin fəaliyyətində də önə çəkilib. Çünki istehlakçılarla münasibətlərin sağlam təməl üzərində qurulması, satiş mütərəqqiliyi, məhsul çesidinin əhatəliliyi kimi məsələlər ticarətdə həm də gəlirin yüksəlməsini, ticarət nöqtələrində mal dövriyyəsinin dinamik artımını, maliyyə göstəricilərinin davamlı yaxşılaşmasını şərtləndirib.**

Azərbaycan hökuməti ölkənin ticarət müəssisələrinə belə bir məsələni – vətəndaş məmnunluğunu diqqətdə saxlamağı, xidmət prosesində operativlik, şəfafflıq və nəzakətlilik kimi prinsiplərə prioritet istiqamət olaraq yanaşmağı təlqin etməklə bərabər, bu yöndə fəaliyyət göstərən şirkətlərin iqtisadi inkişafına da hər cür şərait yaradıb. İş adamlarının yüksək göstəricilərə nail olmaları məqsədilə əlverişli kredit və güzəştlərdən yararlanmaları asanlaşdırılıb, onların qarşılaşdıqları əngəllərin operativ şəkildə aradan qaldırılması diqqət mərkəzində saxlanılıb.

Lakin bütün bunlara baxmayaraq, respublikamızın ticarət mərkəzlərində istehlakçılara göstərilən xidmətin keyfiyyəti ciddi narahatlıq doğurur. Belə müəssisələrdə vətəndaş məmnunluğuna həssaslıqla yanaşmaq, bu istiqamətdə əməli addımlar atmaq əvəzinə, müvafiq qaydalar bilərəkdən pozulur, vətəndaşlara qarşı haqsızlığa, istehlakçı hüquqlarının kobud surətdə pozulmasına, saxta, istifadəyə yararsız malların satışının həyata keçirilməsi ilə alıcıların aldadılmasına yol verilir. Bütün bunların nəticəsində isə müştəri məmnunluğu prinsipinə böyük zərbə vurulur və istehlakçı narazılığının miqyası genişlənir.

Ticarət şəbəkələrində istehlakçıların narazılığına gətirib çıxaran məsələlər barədə bir qədər ətraflı bəhs etmək istərdik. Son zamanlar mağazalarda alıcıların tələbatını ödəməyən, saxta və köhnə telefonların təzə adı ilə satılması hallarına tez-tez rast gəlinir. Bu vəziyyətlə bağlı problemlər neçə ildir ki, mediada işıqlandırılır. Təəssüf ki, bu cür xoşagəlməz halların aradan qaldırılmasına isə heç bir cəhd göstərilmir. Bu da öz növbəsində müştəri məmnunluğu əvəzinə, vətəndaş, istehlakçı narazılığının artmasına səbəb olur.

Qeyd edilən fikrin təsdiqi olaraq bir məqamı xatırladaq. Mağazadan telefon alıb evə gələndən az sonra istehlakçı "gözünün bağlanaraq" ona keyfiyyətsiz, təzə adı ilə yararsız, nasaz məhsul sırındığını anlayır. Bax, ticarət müəssisəsi–alıcı arasında gərginlik də elə bundan sonra başlayır: istehlakçının onu qaytarmaq və ya dəyişmək istəyi heç cür baş tutmur. Belə hallarda, təbii ki, alıcının narazılığını eşidən, haqq səsini dinləyən bir kimsə tapılmır. Sadəcə, mağazada üz tuta bildiyi hansısa səlahiyyətsiz bir şəxs onu dərdinə çarə qılmaq üçün servisə yönləndirir. Əslində, bununla, istehlakçını başlarından edir, necə deyərlər, yola verirlər.

Bu zaman haqlı bir sual yaranır: Həmin ticarət şirkətinə tabe olan servis aldadılmış şəxsin problemini necə həll edə bilər?! Bu, absurddur, yəni servisin istehlakçının haqlı istəyini müdiriyyətin göstərişi olmadan gerçəkləşdirməsi mümkünsüzdür. Belə vəziyyətlə üzləşən istehlakçıların sözlərinə görə, servisdə təqdim edilən telefona baxılır, gözbağlayıcı üsulu ilə üzərinə, hətta bir cız (xətt) salınır və gözlə çətinliklə nəzərə çarpan xətti həmin müştəriyə lupa ilə göstərərək onun artıq istifadəyə yararsız məhsula çevrildiyini, yəni zəmanətsiz vəziyyətə gətirildiyi bildirilir. Sonda isə istehlakçıya telefonu pullu təmir etmək məsləhəti verilir.

Yeri gəlmişkən, istehlakçıların aldadılması ilə bağlı neçə il "uğurla" davam edən bu cür üsul artıq köhnəlib. İndi başqa bir qayda –"telefon suya düşüb, bu, servislik deyil" bəhanəsi işə salınıb. Beləliklə, istehlakçı əlində həmin yarasız telefon İqtisadiyyat Nazirliyinin uyğun qurumuna müraciət edir, daha sonra Azad İstehlakçılar Birliyinə üz tutur. Nəticə olmur, ümid məhkəməyə qalır. Burada da bir çarə tapılmır. Nəhayət, istehlakçı susmaq, haqq səsini kəsmək qərarını vermək məcburiyyətində qalır.

Belə bir xoşagəlməz mənzərə ilə bağlı fikirlərini bildirən ekspertlər deyirlər ki, istehlakçı hüquqlarının bu şəkildə pozulması, ilk növbədə, İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin məsələyə ciddi şəkildə yanaşmaması ilə əlaqədardır. İkincisi, bu, ölkədə istehlakçı siyasətinin dövrün çağırışları ilə səsləşməməsindən irəli gəlir. Belə ki, 1995-ci ildə qəbul edilən "İstehlakçıların hüquqları haqqında" qanuna 7 dəfə dəyişiklik edilsə də, vəziyyət əvvəlki kimi qalır. Yenə də istehlakçı hüquqlarına laqeyd yanaşılır. Texnologiyanın dəyişməsinə, onlayn ticarətin genişlənməsinə, cəmiyyətin, biznesin inkişafına baxmayaraq, müştəri məmnuniyyəti heç də bütün tələblərə uyğun şəkildə qorunmur, istehlakçı hüquqlarının pozulması buna cavabdeh qurumlarda narahatlıq yaratmır. "Kontakt Home", "Baku Electronics" və digər belə şirkətlərdə istehlakçı hüquqlarını pozması da məhz həmin amillərin diqqətdən kənar qalmasından irəli gəlir.

Bu məqamda onu da qeyd edək ki, istər "Kontakt Home", "Baku Electronics", istərsə də digər ticarət qurumlarının reklamlarında, həmçinin sosial şəbəkələrdə yerləşdirilən platformalarda istehlakçı hüquqlarının qorunmasının prioritet istiqamət olduğu vurğulanır. Məsələn, "Kontakt Home" mağazalar şəbəkəsi "kontakt.az" veb-saytında "İstehlakçıların hüquqları haqqında" Qanuna uyğun fəaliyyət göstərdiyini və müştərilərinin aşağıda sadalanan istiqamətlərə görə, mənafelərinin qorunduğunu bildirir:

– adı çəkilən qanunun 25-ci maddəsinə əsasən, istehlakçı mağazadan aldığı məhsulu 14 gün ərzində geri qaytara və ya dəyişdirə bilər. Bu, o deməkdir ki, alınan məhsul qüsurludursa (zavod qüsuru), istehlakçı *6060 qaynar xəttinə müraciət edir və malı mağazaya qaytarmaq niyyəti barədə məlumat verir;

– malların yoxlanılması ticarət müəssisəsində texniki ekspert tərəfindən həyata keçirilir. Qüsur yerində təsdiqlənərsə, məhsul yenisi ilə əvəz olunur və ya məbləğ geri qaytarılır;

– qüsuru yerində təsdiqləmək mümkün olmadıqda, məhsul ekspertizadan keçmək üçün xidmətə göndərilir;

– istifadəçi tərəfindən zədələnən, qüsurlu və ya sifarişə uyğun gəlməyən şəkildə geri qaytarılan malın, həqiqətən, belə olduğu müəyyən edildikdən sonra, alıcıya çatdırılma xərcləri daxil olmaqla məhsulun dəyəri tam ödənilir;

– "qızıl zəmanət" varsa, onun şərtlərinə uyğun olaraq əşya geri qaytarıla bilər.

Biz burada "Kontakt Home"nin alıcı mənafeyinin müdafiəsi ilə bağlı çoxsaylı müddəasının bir neçəsini xatırlatdıq. Əslində, bunlar ilk baxışda ticarət şəbəkəsinin istehlakçı mənafeyinin, necə deyərlər, keşiyində dayandığından xəbər verir. Amma bu, heç bir hüquq-müdafiə məqsədi yox, görüntü xarakteri daşıyır. Əgər belə deyilsə, onda medianı, necə deyərlər, başına götürən bu qədər narazılıq, narahatlıq nədən, haradan qaynaqlanır?..

Fikrimizin təsdiqi olaraq istehlakçı Xəyalə Talıbovanın fikirlərinə diqqət yetirək. Şikayətçi Sumqayıtda yerləşən "Kontakt Home" mağazasından kreditlə "İphone 11" markalı "128 Gb"lıq telefon alır. 1400 manatlıq həmin telefona 12 aylıq kreditlə 2090,99 manat hesablanır. Lakin elə ilk gündən telefonda problem yaranır – "donmağa" başlayır. Bununla bərabər, dinamiki xışıldayır. Buna görə də mağazaya gəlib problem barədə məlumat verir. Burada bildirirlər ki, telefonun "İOS" sistemində qüsur var. Ona görə də sistem yenilənir. Lakin bu da problemi həll etmir. X.Talıbova telefonun nasazlığının aradan qaldırılması üçün yenidən mağazaya üz tutur. Bu dəfə də şikayətinə ciddi yanaşılmır, servisə göndərilmək qərarı verilir. Belə bir get-gəldən bezən şikayətçi telefonun servisə göndərilməsinə etiraz edir və dəyişdirilməsini istəyir. Ticarət müəssisəsindən isə "servis xidməti məhsulun nasazlığını təsdiqləməli, yalnız bundan sonra telefon dəyişdirilməlidir" cavabı verilir.



Beləliklə, alıcı haqlı olduğunu heç cür subut edə bilmir. Əlacı "Kontakt Home"un baş ofisinə müraciət etməkdə görür. Buradan da müsbət cavab ala bilmədikdə müqaviləyə xitam verilməsi üçün kredit sənədində adı vurğulanan Beynəlxalq Banka müraciət edir. Lakin bankda təqdim edilən fakturaların onlara aid olmadığı bildirilir. Bu isə adı çəkilən mağazanın həm də saxta sənədlərlə vergidən yayındığını üzə çıxarır...

Göründüyü kimi, mağaza 14 gün müddətində telefonu dəyişmək və ya qaytarmaq kimi istehlakçı hüquqlarını heç nədən çəkinməyərək pozur. X.Talıbovanın məsələ ilə bağlı aidiyyəti orqanlardan kömək istəyi gerçəkləşmir, ödədiyi 402 manatın geri qaytarılması və kredit müqaviləsinə xitam verilməsi də reallaşmır.

"Baku Electronics"də isə istehlakçıların daha çox üzləşdikləri problemlərdən biri şirkətin mağazalarından alının malların ünvanlara geçikdirilməsi ilə bağlıdır. Məsələn, qəzetimizin əməkdaşı 2024-cü il yanvarın 31-də "Baku Electronics"in paytaxtın Yasamal rayonu, İnşaatçıar prospektində yerləşən ticarət müəssisəsi ilə dəyəri nağd ödənilməklə kombi almaq üçün müqavilə imzalayıb. Mağazadan bir neçə günə malın təhvil veriləcəyi bildirilib. Bundan bir hətə sonra gecikmə ilə əlaqədar 143 saylı telefon nömrəsinə edilən müraciət zamanı əməkdaşımıza "kombi rayondan gətirilir, bir neçə günə təhvil veriləcək…" cavabı verilib.

Vaxt-vədənin ikinci həftəsinin sonunda mağazanın əməkdaşı kombinin çatdırılacağı ünvana zəng edərək artıq mal gətirilən maşının binanın girişində dayandığını deyib. Əməkdaşımız evdən çıxdığını, bu zəngin isə kombi gətirilməzdən ən azı 4-5 saat əvvəl edilməli olduğunu söylədikdə telefon söndürülüb. Bundan sonra qarşı tərəflə əlaqə yaradılmağa cəhd göstərilsə də, buna nail olunmayıb.

Nəhayət, məlum telefefon söhbəti barədə şirkətə, çətinliklə də olsa, məlumat verilib və oradan "bu dəfə daha mədəni işçi (?!.)" tərəfindən kombinin ünvana çatdırılacağı bildirilib. Amma bu vədin də "göyərməsi" 3 gün çəkib və nəhayət, kombi gətirilib. Quraşdırılması isə daha 3 gün vaxt aparıb. İndi siz deyin, belə vəziyyətdə hansı müştəri məmnunluğundan danışmaq olar?!.

"Kontakt Home" və "Baku Electronics"dən bu cür şikayətlərin sayını istənilən qədər artırmaq olar. Lakin problemə ciddi yanaşılmadığından narazılıqların sayı həndəsi silsilə ilə artır. Yuxarıda xatırlatdığımız kimi, müvafiq dövlət qurumları tərəfindən isə istehlakçı şikayətləri, demək olar ki, araşdırılmır, müstəqil ekspertizanın aparılması istiqamətində tədbirlər görülmür. Nəticədə, istehlakçı hüquqlarını pozan, alıcıları aldadan adları çəkilən müəssisələrlə bağlı ciddi ölçü götürülməməsi bir yana, ölkənin əmtəə bazarı da getdikcə saxta, təhlükəli mallarla dolur.

Bu xoşagəlməz mənzərədən qazananlar "qaz vurub qazan dolduranlar, itirənlər isə "müştəri məmnunluğu" adı ilə aldadılan vətəndaşlar olur.

***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

### Ekspert rəyi

**Eyyub HÜSEYNOV,**
**Azad İstehlakçılar Birliyinin sədri**



Son illər Azad İstehlakçılar Birliyinə daxil olan şikayətlərin palitrası getdikcə dəyişir. Hazırda bizə gələn şikayətlərin ən çoxu mürəkkəb texniki cihazların satışını həyata keçirən qurumlarla bağlıdır. Daha doğrusu, mobil telefonlar, kompüterlər və paltaryuyan maşınların, eləcə də bir sıra digər məişət cihazlarının satışı zamanı yol verilmiş nöqsanlar, bu sahədə müşahidə olunan özbaşınalıqlar istehlakçıları daha çox narahat edir, onların haqlı narazılığına səbəb olur. əldə edərkən üzləşdikləri hallarla bağlı daha satışını üstünlük təşkil edir.

Hazırda ölkədə bu sahədə ciddi problemlər yaşanır. Sanki bu cihazların satışı ilə məşğul olan firmalar bir-biri ilə bəhsə giriblər. Onlar istehlakçıları aldatmaq üçün müxtəlif vasitələrdən, saxta, şirnikləşdirici reklam kampaniyalarından istifadə edirlər. Bu yolla çoxsaylı alıcı toplayan firmalar malı satdıqdan sonra sanki qapıları istehlakçıların üzünə bağlayırlar. Vətəndaş isə keyfiyyəti onu qane etməyən malı geri qaytara və ya dəyişməyə çətinlik çəkir, əksər hallarda buna nail ola bilmir.

Yeri gəlmişkən, son illər ölkəyə gətirilən telefonlar, eləcə də məişətdə daha çox istifadə olunan cihazların böyük əksəriyyəti standartlara cavab vermir, istehlakçı tələbatını ödəmir. Halbuki belə hallarda istehlakçının hüququ var ki, aldığı malı 14 gün ərzində geri qaytarsın və ya dəyişdirsin. Təəssüf ki, bu qaydalara əməl etməkdən hər vəchlə yayınmağa çalışan firma və ya mağaza sahibləri istehlakçıların hüquqlarını kobud şəkildə pozurlar. Baxmayaraq ki, onlar çox cəlbedici, aqressiv reklam kampaniyaları, eləcə də müxtəlif üsullarla istehlakçıların diqqətini cəlb edə bilirlər. Eyni zamanda, firmalar çoxsaylı şirniləndirici kredit təklifləri ilə daha çox müştəri toplamağa nail olurlar.

Bir sözlə, bütün bunlara inanan istehlakçılar həmin məkanlara üz tuturlar. Həvəslə aldıqları saxta mallar isə əksər hallarda onların boynunda yük olub qalır, necə deyərlər, əməlli-başlı başağrısına çevrilir. Bir qədər də konkretlik olsun deyə, bu sahədə ən çox istehlakçı hüquqlarını pozan firmaların adlarını çəkməyə məcburam. Son zamanlar Azad İstehlakçılar Birliyinə ən çox şikayətlər "Kontakt Home" mağazalar şəbəkəsindən daxil olur. Bu şirkətin istehlakçıları aldatmaq priyomları olduqca rəngarəngdir. Məsələn, şirkət müxtəlif televiziya kanallarında ucuz şounu xatırladan "şeş qoşa" oyununu reklam edir. Yerə düşən zərin "şeş qoşa"sı, sanki vətəndaşı ovsunlayır, onu "Kontakt Home"-un mağazalarına getməyə şirnikləndirir. Mağazaya gələn vətəndaş "şeş qoşa" oyununda iştirak edir, amma istəyinə nail ola bilmir. Bununla belə, dükandan hər hansı bir mal, məsələn, fen alıb aparır evə. Baxıb görür ki, fen işləmir. Vətəndaş tez-tələsik onu mağazaya gətirir ki, qaytarsın və ya dəyişdirsin. Deyirlər, olmaz. Çünki sən "şeş qoşa" oyununda iştirak etmisən. Dövlətin qanunu sənə aid deyil. Amma, əslində, bu oyun tam qanunsuzdur, çünki heç yerdə dövlət qeydiyyatına alınmayıb. Bu, bizə gələn şikayətlərdən biridir.

Bundan əlavə, "Kontakt Home" tərəfindən əhaliyə müəyyən kuponlar verirlər. Məsələn, 100 və ya 200 manatlıq Azərbaycan manatının surətini çıxarıb kupon kimi vətəndaşa təqdim edirlər. Yeri gəlmişkən, əslində bu, milli valyutanı gözdən salmaqdan başqa bir şey deyil. İnsanlar isə bu kuponu bir-birinə hədiyyə kimi verirlər. Müəyyən müddətdən sonra vətəndaş həmin kuponla mal almaq istəyəndə məlum olur ki, artıq o, heç bir şeyə yaramır. Kuponun hansı hissəsindəsə xırda hərflərlə onun vaxtının keçməsi ilə bağlı qeyd var. Vəssalam.

Bununla da, vətəndaşın 100-200 manatı batıb gedir. Və yaxud, başqa bir misal. Özü də bu, digərləri ilə müqayisədə daha gülünc görünür. Məsələn, "Kontakt Home" aqressiv reklam kampaniyası aparır ki, vətəndaş şirkətə məxsus mağazalarda bəyəndiyi istənilən malı digər yerdə ucuz qiymətə tapsa və üstündə qeyd olunmuş qiyməti ilə birlikdə şəklini çəkib gətirsə, həmin cihaz ona 120 faiz endirimlə veriləcək. Buna inanan istehlakçı da günlərlə axtarıb həmin malı tapır. Şəklini gətirib göstərsə də, burada gözlənilməz cavabla üzləşir. Deyirlər ki, bu ola bilməz. İndi gəl, bunları inandır. Göründüyü kimi, firmanın mağazalarında istehlakçıların bu və ya digər şəkildə aldadılması, onların hüquqlarının pozulması halları baş alıb gedir.

Məlum olduğu kimi, istehlakçı 14 gün müddətində aldığı malı işlətməzsə, onu dəyişmək və ya qaytarmaq hüququ var. Təəssüf ki, əksər firmalar buna məhəl qoymur. Malın keyfiyyəti istehlakçını qane etməyəndə isə ən yaxşı halda onu servisə yönəldirlər. Deyirlər ki, get servisə, cihazı təmir etdir. Servis də onların özünə məxsusdur. Hansı ki, "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" qanunda servis adlı anlayış yoxdur. Servisdə isə min cür bəhanə gətirirlər. Deyirlər ki, sən malı cızmısan və ya xarab etmisən. Sonra da keyfiyyətsiz malın dəyişdirilməsinin mümkünsüzlüyü ilə bağlı vətəndaşa bir sənəd verirlər. İstehlakçı yenidən mağazaya qayıdanda burada malın dəyişdirilməsinin və ya qaytarılmasının mümkün olmadığını ona bir daha bildirirlər. Əlacsız qalan vətəndaş bu dəfə başqa dükana üz tutur. Sadaladığım bu kimi neqativ hallara "Kontakt Home" ilə yanaşı, "Baku Electronics", "İrşad Telecom", "Optimal" və digər firmalarda daha çox rast gəlinir.

Son zamanlar "Baku Electronics"də narazılıqlar getdikcə artır. Məsələn, vətəndaş malın pulunu ödəyir. Mağazada ona deyirlər ki, yaxın saatlarda və yaxud 1-2 gün ərzində mal ünvanınıza çatdırılacaq. Amma günlər keçsə də, müştəri malını ala bilmir. Hər dəfə də bir bəhanə uydurub özlərinə haqq qazandırmağa çalışırlar. Bəzən isə burada alıcıya zəmanət talonu vermirlər. Deyirlər ki, talon elektron bazadadır. Gəl indi bir şey olanda zəmanət tablonunun olmamasını bunlara sübut elə. Ən qəribəsi isə odur ki, mağazalarda "qızıl zəmanət" deyilən yalançı bir anlayış icad ediblər. Əslində, qanunvericilikdə belə bir şey yoxdur. Qızıl zəmanətə görə yüksək məbləğdə əlavə pul alırlar. Deyirlər ki, guya alınan malda aşkar ediləcək hər hansı bir qüsur



firmanın hesabına aradan qaldırılacaq, istehlakçının hüquqları tam qorunacaq. Amma çox təəssüf ki, bir şey olanda buna da əməl etmirlər. Göründüyü kimi, istehlakçılar əksər hallarda bu şəkildə aldadılır. Bütün bu dediklərim istehlakçı hüquqlarının pozulması ilə bağlı cüzi faktlardır.

Onu da qeyd edim ki, belə malların satışı ilə məşğul olan nümunəvi firmalar da yox deyil. Məsələn "Music Gallery" firmasından 4 ildir ki, heç bir şikayət gəlmir. Bu çox yaxşı haldır. Düşünürəm ki, "Music Gallery"nın iş təcrübəsini öyrənmək və yaymaq lazımdır. Yeri gəlmişkən, Azad İstehlakçılar Birliyinə daxil olan şikayətlərin çox az hissəsini danışıqlar yolu ilə həll edib yoluna qoya bilirik. İstehlakçıların şikayətlərini əksər hallarda İqsadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinə göndəririk. Bu dövlət qurumu isə belə bir alqoritm üzrə hərəkət edir: İstehlakçı hüququnu pozan təşkilata bir məktub yazır, oradan isə özünə sərf edən cavab alır.

Həmin cavabı kodlaşdırıb bir nüsxəsini istehlakçıya verir, digərini isə Azad İstehlakçılar Birliyinə göndərir. Deyir, get məhkəməyə müraciət et. Biz istehlakçı hüquqlarına bu şəkildə etinasız yanaşmalara qəti etirazımızı bildiririk. Çünki istehlakçıların hüquqlarının müdafiəsi ilə bağlı mövcud qanun müasir tələblərə cavab vermir. Qanunda mütləq dəyişikliklər edilməli, ölkədə effektiv istehlakçı siyasəti formalaşdırılmalıdır. Çox təəssüf, hələlik, bu barədə düşünən yoxdur.

Yeni dövrün üfüqləri

# Milli-mənəvi dəyərlərə XXI əsr himayədarlığı

**Prezident İlham Əliyevin fevralın 14-də Milli Məclisdə andiçmə mərasimindəki nitqində yeni əsrin əvvəllərindən xalqın dəstəyi ilə ölkəyə rəhbərlik etdiyi illər ərzində həyatımızın bütün sahələrində olduğu kimi, mədəniyyət siyasətinin də uğurları vurğulanıb.**

Dünya şöhrətli görkəmli qırğız yazıçısı Çingiz Aytmatov hələ 20 il əvvəl "İlham Əliyev XXI əsrin lider etalonudur", – dövlət başçımızın yüksək idarəetmə məharətini yüksək dəyərləndirib. Bu baxımdan istər ötən illər, istərsə də 2024-cü il fevralın 7-də növbədənkənar prezident seçkiləri zamanı Azərbaycan xalqının dünyaya nümayiş etdirdiyi birlik və mütəşəkkillik qalib liderə bəslənilən möhkəm inamın canlı təntənəsi oldu.

Təntənəli andiçmə mərasimində indi artıq dövlət idarəetməsində yeni dövrün başlandığını vurğulayan cənab İlham Əliyev Azərbaycanın son illərdə bütövləşmiş birlik nümayiş etdirdiyini, gənclərin yetişdiyi ailələrin sağlam olduğunu, ənənələr, milli dəyərlər üzərində qurulduğunu diqqətə çatdırıb. "Bütövlükdə milli-mənəvi dəyərlərə gəldikdə, bu, bizim cəmiyyətimizin əsasıdır və bu, sarsılmaz varlıqdır, sarsılmaz dəyərdir və bunu sarsılmaz etmək bizim əlimizdədir. Çünki burada hər hansı bir kənar qüvvə öz çirkin niyyətlərinə çatsa, o zaman bizim ciddi problemlərimiz olacaq. Ona görə gənclərimizin milli ruhda tərbiyə edilməsi, ənənəvi dəyərlər əsasında tərbiyə edilməsi, dırnaqarası mütərəqqi və yad dəyərlərin tamamilə cəmiyyətimizdən silinməsi - bu vəzifə bizim hamımızın qarşısında durur, hər bir ailə qarşısında durur və dövlət qarşısında durur".

Prezidentin qeyd etdiyi kimi, azərbaycançılıq ideologiyası, milli məfkurə prinsipləri ölkəmizdə çoxdan bərqərar olub. Ulu öndər Heydər Əliyevin bizə qoyduğu dəyərli mirаslardan biri də məhz azərbaycançılıq məfkurəsidir. Biz bu meyilləri daha da gücləndiririk. Azərbaycanı Vətən sayan bütün xalqlar burada vahid, mehriban ailə kimi yaşayırlar. Bədxahlarımızın birliyimizi pozmaq cəhdləri baş tutmayıb və heç vaxt da baş tutmayacaq.

Sonra Türk birliyindən danışan dövlət başçısı bildirib ki, bizi haradasa qəbul etmək istəməyənlərə baş əyən deyilik. "Bizim ailəmiz Türk dünyasıdır. Biz özümüzü çox yaxşı hiss edirik. Türk Dövlətləri Təşkilatına üzv olan bütün ölkələrlə qardaşlıq münasibətlərimiz var və bizim siyasətimiz Türk Dövlətləri Təşkilatını gücləndirməkdir. Bu, böyük coğrafiyadır, böyük ərazidir, böyük hərbi gücdür, böyük iqtisadiyyatdır, təbii sərvətlərdir, nəqliyyat yollarıdır, gənc əhalidir, artan əhalidir və bir soydan, kökdən olan xalqlardır. Bundan güclü birlik ola bilərmi? Əlbəttə ki, yox. Biz müştərək səylərlə elə etməliyik ki, Türk Dövlətləri Təşkilatı qlobal arenada önəmli aktora və güc mərkəzinə çevrilsin. Buna biz ancaq birlikdə nail ola bilərik".

Nitqində İslam Əməkdaşlıq Təşkilatında və Qoşulmama Hərəkatında Azərbaycanın fəal iştirakını diqqətə çatdıran Prezident bu mötəbər beynəlxalq təsisatlarda bizim təşəbbüslərimizin qəbul edilməsinin və dəstəklənməsinin xüsusi məna daşıdığını vurğulayıb.

Nəhayət, Azərbaycan–Ermənistan münasibətlərinə toxunan dövlət başçısı deyib ki, Ermənistanın havadarları daim bu məsələni müzakirə etmək, öz səylərini göstərmək, yəni, yorğanı öz tərəflərinə çəkmək istəyirlər.



"Bizə bu məsələdə vasitəçi lazım deyil. Mən bunu demişəm, bu yüksək kürsüdən bir daha demək istəyirəm. Biz öz məsələmizi həll etmişik. Ermənistanla sülh müqaviləsinin imzalanmasının da təşəbbüskarı biz olmuşuq... İndi Ermənistan beynəlxalq hüququn normalarına riayət etmək istəyirsə, bu müqavilə imzalanacaq. İstəmirsə, yenə də bizə qarşı əsassız iddialar irəli sürüləcəksə, bu müqavilə imzalanmayacaq, ancaq Azərbaycan üçün heç nə dəyişməyəcək... Biz öz məsələmizi həll etmişik. Biz bu gün Ağdamdayıq, Füzulidəyik, Laçındayıq, Cəbrayıldayıq, Zəngilandayıq, Qubadlıdayıq, Kəlbəcərdəyik, Şuşadayıq, Hadrutdayıq, Xocalıdayıq, Ağdərədəyik, Əsgərandayıq, Xankəndidəyik! Bu yeni dövr uğurla başlayır. Əminəm ki, uğurla da davam edəcək".

Bəli, biz fevralın 7-də qarşıdakı dövr ərzində də ölkəmizə mədəniyyət və incəsənətimizin böyük himayədarı İlham Əliyevin rəhbərlik etməsinə hamılıqla səs verdik. Qədirbilən xalqımız onun firavan həyatını təmin edən, Qarabağ zəfəri ilə milli qürurunu qaytaran xidmətlərini layiq olduğu səviyyədə, yüksək qiymətləndirdi.

Seçkilərdən sonra Türk Dövlətləri Təşkilatından, Azərbaycan Yazıçılar Birliyi adından və digər yaradıcılıq qurumlarından Prezidentə ünvanlanan təbrik məktublarında da inam ifadə olundu ki, başlanan bu fərqli tərəqqi mərhələsi Azərbaycanda mədəniyyətin daha da inkişafına yeni təkan verəcək. Ölkə ziyalıları müdrik siyasi-dövlətçilik xəttini bundan sonra da əzmlə dəstəkləyəcək, milli-mənəvi dəyərlərin qorunması və təbliği naminə bütün istedad və bacarıqlarını səfərbər edəcəklər.

***Əli DOSTƏLİ***
***XQ***

# Qarabağın daş dövrünə elmi səyahət



**AMEA-nın Arxeologiya və Antropologiya İnstitutu eksperimental arxeoloji laboratoriyasının müdiri Əjdər Babazadə Elm Fondunun qrantını qazanmış "Qarabağın daş dövrünə aid alət sənayesinin texno-tipologiyasının traseoloji ve eksperimental analizləri" adlı layihə üzrə tədqiqatlarını davam etdirir.**

Araşdırmaçı XQ-yə bildirdi ki, ölkəmizdə ilk dəfə gerçəkləşdirilən layihənin məqsədi mikro arxeoloji (mikroskopik-traseoloji) və praktik tədqiqatları (eksperimental) həyata keçirmək, eləcə də mikro (mikroskopik) və praktik (eksperimental) arxeoloji tədqiqatlar aparmaqdır: "İndiyədək Qarabağın paleolit abidələrindən əldə edilmiş artifaktların (əsasən alət çantasında yer alan daş materiallar) texno-tipologiyasında əcdadlarmızın ovlama, qidalanma və qorunma kimi qədim məşğuliyyətləri müasir elmi metod və epistimoloji tədqiqatlarla öyrənilib.

Müsahibimiz sonda söylədi: "Əsas məqsədlərdən biri də 2 il müddətində Qarabağ bölgəsindən əldə edilən daş alətlərin analizlərinin həyata keçirilməsi olub. Belə ki, Qarabağın Azıx, Tağlar, Zar və digər paleolit düşərgələrindən əldə edilmiş daş materialların texno-tipologiyası traseoloji (mikroskopik) və praktik (eksperimental) təhlil edilib. Bütün bu araşdırmalar müasir arxeoloji metodlara, tətbiqlərə və epistimilogiyaya əsaslanır".

***Qabil YUSİFOĞLU***
***XQ***

Könül körpüsündə

# Turan sevdası ilə yaşayan şair

**Metronun "20 Yanvar" stansiyasındakı izdihamın arasından ucaboylu, ziyalı görkəmli bir nəfər uzaqdan diqqətimi çəkdi. Əvvəl onu Oljas Suleymenova bənzətdim. Bir qədər yaxınlaşanda gördüm ki, qazax xalqının böyük oğlu "Oljas əkə" deyil, şair Elxan Zal Qaraxanlıdır.**

Stansiyanın adı mənə xatırlatdı ki, öz "Az i Ya"sı ilə ruslara öz dillərində tarix dərsi keçən, 1990-cı ilin qanlı 20 Yanvar günlərində bütün təzyiqləri və zərbələri gözaltına alıb, Azərbaycanın haqq səsini dünyaya çatdırmaq amacı ilə Bakıya gələn, informasiya blokadasının yarılmasında misilsiz xidmət göstərən, "Başını dik tut, Bakı. Bizim kökümüz, qanımız, canımız birdir" mesajı ilə xalqımıza böyük təskinlik verən məhz böyük qazax şairi Oljas Süleymenov olub. Ona bənzətdiyim Elxan bəy isə qazax ədəbiyyatına sıx bağlı olan, inişilin yanvarında gərgin günlər keçirən qardaş xalqa can yanğısı ifadə edən – necə deyərlər, fədakar dostumuzun mənəvi dəstəyinin əvəzini qaytaran ziyalılarımızdandır.

Eyni vaqona mindik və mən yaxınlaşıb "Salam, necəsiniz?" deyərək onunla əl tutdum. Gülümsünərək "Sağ ol!" dedi və mobil telefonuna baxmağa başladı. Hiss etdim ki, deyəsən, içində "itdiyim" qalın gödəkçəmə, şərfimə, papağıma görə məni tanımadı. Mən də telefonumu çıxarıb "Google"də onu axtardım. Mahmud Kaşğari adına Beynəlxalq Fondun rəhbəri, turan sevdalısı olan şairlə bağlı yaddaşımı təzələdim. Şəkillərindən də bir daha gördüm ki, doğrudan da, Oljas Süleymenova bənzər cizgilərdən xali deyil. Özü də Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin "Qızıl kəlmə"si ilə bərabər, Qazaxıstanın ədəbiyyat üzrə beynəlxalq "Alaş" mükafatının da laureatıdır.



"28 May"da birlikdə vaqonu tərk edib digər xəttə keçəndə məni yenə "görmədi". "İçərişəhər"ə gedən qatara mindik. Fikirli göründüyünə görə daha ona yaxınlaşmadım. "Sahil"də eskalatorla yuxarı qalxanda məndən ikicə pillə qabaqda idi. Havaya çıxanda yenə də telefonla məşğul idi. Yolu lap yanaşı adladıq. Elxan bəy Xaqani küçəsinə (güman ki, AYB-yə gedirdi), mənsə Bülbül prospektinə ("Xalq qəzeti"nə) döndüyümüz üçün yollarımız ayrıldı. Bəlkə də, o, xəyal qanadlarında Doğudan Batıya, Batıdan Doğuya gedirdi...

İş otağımda kompüterin arxasında oturanda yadıma düşdü ki, Sumqayıtda, 2017-də, 60 illik yubileyimdə Elxan Zal Qaraxanlı da iştirak edib. Üstəlik, mənə Beynəlxalq Mahmud Kaşğari Fondunun diplomunu da verib. İndi tanımasa da, eybi yoxdur. Axı, elə ona məxsus olan bir fikir də var: "Gedirik, yolların sonuna doğru gedirik. Sonucda əbədi bir el gözləyir bizi. Tanrı işığıyla aydınlanan əbədi bir el. Ulu Turan eli, ölməz sevdamız!"

Mahmud Kaşğari lüğətindən bizə bəlli poetik biçimdə və üslubdakı bu misralar da onundur:

***Öcümüz var acunda,***
***Uğur gəzdik hucumda,***
***Yolların sonucunda,***
***Kamını bulan bizik.***

Yağışlı (bəlkə də buna görə duyğulu) bir gündə təsadüfi görüşün mənə söylərdiklərinə son əlavəm: Elxan Zal Qaraxanlı "Tarqovı peyzajı", "Türk əsrinin türküləri" kimi ədəbi mühit üçün hər biri hadisə sayılacaq şeir kitablarının, "Polonez", "Savaş ayələri", "Böyük Çölün şeirləri" kimi silsilə şeirlərin, rus, qazax, alman, serb, makedon, fransız, Ukrayna və Pakistan poeziyasından ciddi və peşəkar tərcümələrin, həmçinin hər biri xalqımızın və cəmiyyətimizin, eləcə də ədəbiyyatın problemlərindən bəhs edən yüzlərlə qiymətli publisistik yazıların müəllifidir.

Deyəsən, Elxan bəyin hələlik sonuncu olan kitabı "Ordu günü"dür. Publisistikası, poema və şeirləri ilə Qarabağ zəfərimizi, bu zəfəri öncədən görən ulu öndərin ruhunu, Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin dəmir iradəsini, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın mənəvi və siyasi dəstəyini parlaq vəsf edib. Eyni zamanda, başqa türk xalqlarını – Mete xandan Qazaxıstanın sabiq lideri Nursultan Nazarbayevə qədər türk böyüklərini özünəməxsus şəkildə dəyərləndirib, turan dünyasına sevgisini çox məhrəm hisslərlə ifadə edib.

Sonda üzümü "Oljas əkə"nin bənzərinə tutub deyirəm ki, gəl, bir də tanış olaq:

***Əli NƏCƏFXANLI***
***XQ***

# Koreya dilində Türk ensiklopediyası

**Astanadakı Türk Akademiyası (TA) Avrasiya Milli Universiteti (AMU) ilə birgə Koreya dilində hazırlanan səkkiz cildlik "Humanitar elmlər üzrə Türk Ensiklopediyası" kitabının təqdimatını keçirib.**



Təqdimatda Qazaxıstan, Rusiya Federasiyası, Koreya Respublikasının alimləri, tanınmış türkoloqlar iştirak ediblər.

Türk Akademiyasının vitse-prezidenti Asxad Kesikbayev ensiklopediyanın əhəmiyyətindən danışıb, kitabın bütün türkdilli dövlətlərdə maraq kəsb edəcəyini vurğulayıb və iştirakçılara TA-nın prezidenti Şahin Mustafayevin salamlarını çatdırıb.

Koreyalı professor Inken O "Humanitar elmlər üzrə Türk Ensiklopediyası" layihəsinin hazırlanmasından danışıb və Koreyada türkologiyanın problemlərinə toxunub.

Astanadakı Nazarbeyev Universitetinin kafedra müdiri Yulay Şamiloğlu yeni təqdim olunan nadir nəşrin əhəmiyyəti haqqında söhbət açıb, ümumilikdə türk ölkələrində mövcud olan ensiklopedik ənənəyə toxunub.

Digər türkoloqlar da Koreya ilə türk dövlətləri arasındakı əlaqələrdən danışıb, ensiklopediya müəlliflərinə minnətdarlıqlarını bildiriblər.

Qeyd edək ki, "Humanitar elmlər üzrə Türk Ensiklopediyası" Koreya Milli Araşdırmalar Fondunun maliyyə dəstəyi ilə həyata keçirilən fundamental tədqiqatın nəticəsidir. Professor Inken Onun rəhbərliyi ilə layihədə müəllif kimi müxtəlif ölkələrdən 21 ekspert iştirak edib.

Ensiklopediya Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Türkmənistan, Türkiyə, Özbəkistan, Rusiya Federasıyasının Tatarıstan, Başqırdıstan, Altay, Xakasiya, Tuva, Saxa-Yakutiya respublikalarını əhatə edir və ümumi həcmi 4500 səhifədir.

***Qulu KƏNGƏRLİ,***
***XQ-nin xüsusi müxbiri***

**Astana**

Sirk "Oskar"ının azərbaycanlı qalibi

# "Bakı sirkini dünyaya tanıtmaq istəyirik"

**Allahverdi İsrafilov sirk "Oskar"ına layiq görülmüş ilk azərbaycanlıdır. Bu günlərdə Bakıdakı Rus evində sənətkarla təşkil olunan görüşdə də qeyd olunduğu kimi, o, neçə-neçə yaddaqalan sirk proqramının təşkilatçısı, Monako, Çin, Fransa, İtaliya və Rusiya Federasiyasında keçirilmiş beynəlxalq festivallarının Qran-pri və digər mükafatların laureatıdır.**

Görüşdə Allahverdi İsrafilov Bakı Dövlət Sirkinin yaxın vaxtlarda tamaşaçılar üçün hazırladığı maraqlı proqramlardan bəhs edib. O, məşhur İsrafilovlar sülaləsinin layiqli təmsilçisidir. Atası və əmisi Bakı Dövlət Sirkində çalışıblar. Biri heyvanlarla işləyib, digəri isə hava gimnastı olub. Özü isə ilk dəfə 1992-ci ildə – 14 yaşında ikən sirk manejinə çıxıb və Sabir Səmədovun rəhbərlik etdiyi "Azərbaycan cigitləri" atçılıq-akrobatika ansamblında parlaq gələcəyinə inam yaradıb. Kəmərlərdə "Od adamı" adlı solo hava nömrəsi uğurlu alınıb. Sonra sənət karyerasını Rusiyada davam etdirib və oranın müxtəlif sirklərində işləyib, peşəkarlıq səviyyəsini daha da təkmilləşdirib. Ailə qurduğu həmkarı Qalina Qolovaçeva ilə birlikdə "Hava adajiosu" adlı heyrətamiz hava nömrəsi təqdim edib, bir çox mükafatlara layiq görülüb. Avropa ölkələrində, Yaponiyada, hətta Avstraliyada qastrol səfərləri uğurlu keçib.

Allahverdi İsrafilovun dedikləri: "Sirk sənətində ustalaşmaq üçün bu sahəni ürəkdən sevməlisən. Təşəbbüskar olmalısan ki, fərqli performans göstərə biləsən. Axı, ən çətin tryuklar tamaşaçıların daha çox alqışını qazanır".

Monte-Karloda keçirilən nüfuzlu Dünya Beynəlxalq Sirk Festivalı ilə bağlı xatirələrini bölüşən sənətkar bildirib ki, oraya Monako şahzadəsi Stefaninin dəvəti ilə Azərbaycan nümayəndəsi kimi gedib. Videokadrlarda Azərbaycan bayrağı da görünür. Allahverdigilin nömrəsi "Sən gəlməz oldun" kompozisiyasının sədaları altında hazırlanmışdı. Şahzadə Stefani musiqidən çox təsirlənmişdi, hətta çıxış zamanı mahnını zümzümə edirdi. Həmin festivalda o vaxtkı Roma Papası XVI Benediktlə də görüşüb. Festival çərçivəsində "Ümumdünya Katoliklər Günü" ilə əlaqədar çıxış edəndən sonra onlara pul təqdim edilib. Amma sirk ustası o pulu geri qaytarıb ki, xeyriyyə məqsədilə təşkil olunmuş



tədbirdən kommersiya məqsədi güdmək olmaz. Onun bu jesti çox bəyənilib.

Papa Allahverdinin hansı dindən olduğunu soruşub. O isə cavab verib ki, müsəlmanam və bizim adətimizə görə, Allahla, məscidlə əlaqəli hər hansı iş, tədbir pulla ölçülmür.

Ulu yaradan da onu hər zaman qoruyub. Deyir ki, gərək bu sənətin əsl fanatı olasan ki, insanları heyrətləndirmək adına təhlükəli tryukları icra edə biləsən. Çıxış zamanı yoldaşının əlindən tutduğu bir fotonu göstərib izah edir ki, orada onun əlindən yox, bir barmağından tutaraq, tryuku sona qədər həyata keçirib. Bu isə son dərəcə risklidir. Elə olub ki, bir tamaşada 4 belə nömrə oynayıb.

Sirk ustasının bir qız övladı var, amma valideynlərinin sənətini davam etdirmir, çünki atası onun da belə təhlükələrlə üzləşməsini istəməyib. Axı, özü dəfələrlə yıxılıb, zədələr alıb. Qızı rəssamlıqla məşğuldur.

Artıq 10 ildir ki, Allahverdi İsrafilov daha artist kimi çıxış etmir. Böyük arenada son çıxışı Çində keçirilən festivalda olub, çünki istər-istəməz, yaş öz işini görür. "40 yaşında gimnast üçün havada tryuklar etmək çox çətinləşir. Cəhd etsən də, əvvəlki səviyyədə olmayacaq və illərlə qazandığın adını, nüfuzunu saxlaya bilməyəcəksən. 2014-cü ildən "Sirk Triumf" şirkətinin həm bədii rəhbəri, həm də baş direktoruyam. Rəhbərliyim altında həm rus, həm də xarici artistlərin iştirak etdiyi 50-dən artıq sirk proqramı hazırlanıb və indiyə kimi dünyanın bir çox ölkələrinə qastrol səfərlərimiz olur".

Azərbaycan sirkinin böyük tarixi olduğunu söyləyən sənətkar imkan düşən kimi vətənə gəlməyə can atır. Burada bacısı, digər qohumları yaşayırlar. Elə olur ki, bəzən 1 ayda 3 dəfə, bəzən də 3 ildə 1 dəfə Bakıya gəlir. Dövlət sirkinə əlindən gələn köməkliyi göstərməkdən məmnundur. Artıq paytaxtımızda bir neçə proqram işləyib. Uzun illərdən sonra ilk dəfə Azərbaycan Dövlət Rəqs Ansamblı ilə birlikdə Qarabağ atları ilə vətənpərvər ruhlu proqram yaradıb. Hazırda milli koloritdən istifadə etməklə, xaricdə ölkəmizi layiqincə təmsil edəcək nömrələr hazırlanır. Gəncədə ən böyük və daimi sirk şapitosu (sökülüb yığılan arena) quraşdırıb.



Allahverdi İsrafilov çalışır ki, özünün dünya təcrübəsindən istifadə edərək Azərbaycanda sirk sahəsində maraqlı işlərə imza atılsın, bu sənətin populyasiyası genişlənsin. Məsələn, Bakıda sirk studiyası yaradılmasını və dünyaya çıxaracaq səviyyədə sirk kollektivinin, daha peşəkar truppanın formalaşmasını istəyir.

***Ə.ƏLİYEV***
***XQ***

# Afrikada soyğunçuluq əsri bitir

## “Qara qitə” Fransadan talançılığın hesabını tələb edir

**Uzun müddət “Qara qitə”də Fransanın müstəmləkəsi olan Nigerin hazırki lideri general Abdurahman Çiani "Qərbi Afrika ölkəsinin təbii sərvətlərinin bir əsrdən artıq müstəmləkə və neokolonial yolla talan edilməsinə görə" Fransadan təzminat tələb edir. Cəsarətli addımdır, deyilmi? Amma çox haqlı addımdır. Fransaya Afrikada törətdiklərinə və bu qitənin ölkələrinin təbii sərvətlərini taladığına görə hesab təqdim edən hələ çox olacaq, buna Makronun heç şübhəsi olmasın.**

General Abdurahman Çiani təkcə talanan təbii sərvətlrin hesabını deyil, həm də fransızların törətdikləri cinayətlərin, soyqırımlarının və xalqı qorxu içində saxlamaq üçün ölkədə terror dəstələri yaratmağın hesabını istəyəcək. Məhz buna işarə edərək general deyir: “Biz öz suverenliyimizi tam bərpa etmək niyyətindəyik və bunun üçün Afrikanın ən yaxın tarixinə dair bütün arxiv məlumatlarını tədqiq edib öyrənəcəyik”. O arxivlərdən nələrin çıxacağını artıq indidən təxmin etmək çətin deyil. Amma bunlar sonrakı məsələlərdir.

Dövlət başçısı Abdurahman Çiani Nigerin RTN dövlət telekanalına müsahibəsində deyib: “Fransa müstəmləkə və neokolonial rejimlərin dövründə yüz ildən artıq bir müddətdə bizim resurslarımızı nəzarətsiz şəkildə talayıb. O, bizə bunun haqqını tam ödəyəcək. Fransızların rabərdir və bu, nigerililərin ağrılarına səbəb olar”.

Yanvarın 28-də Mali, Burkina-Faso və Niger dövlətlərinin yeni rəhbərləri dəfələrlə təklif edilən barışıq cəhdlərinə baxmayaraq, ECOWAS-dan ayrılmaq niyyətində olduqlarını bəyan ediblər. Onlar bu qurumdan çıxdıqdan sonra Burkina-Faso, Mali və Nigerin xarici işlər nazirləri Qərbi Afrikadakı qonşularına bir federasiya altında birləşdirmək üçün uzunmüddətli məqsədləri olan konfederasiya yaratmağı tövsiyə ediblər.

Çiani bu açıqlamaları ilə, ötən bazar günü Niger, Mali və Burkina-Fasonun vahid regional valyuta yaratmaq niyyətində olduqlarına dair bəyanatlarından sonra çıxış edib. "Bu valyuta müstəmləkəçilikdən bir addım uzaq deməkdir", – deyə Çiani vahid valyutanı "suverenlik əlaməti" adlandırıb.




bizdən əvvəllər yığdıqları bütün borcları ödəmək üçün ətraflı proqram tərtib edəcəyik və onlardan əbədi olaraq azad olacağıq. Biz öz suverenliyimizi tam bərpa etmək niyyətindəyik və bunun üçün Afrikanın ən yaxın tarixi ilə bağlı bütün arxiv məlumatlarını araşdıracaq, öyrənəcək və sənədləşdirəcəyik”.

General Çiani, Qərbi Afrika Dövlətlərinin İqtisadi Birliyindən (ECOWAS) çıxdığını bu yaxınlarda elan edən üç Sahel ölkəsindən heç birinin əvvəlki addımlarını təkrarlamayacağına tam təminat verir. Nigerin dövlət başçısı müsahibəsində həmçinin deyib ki, onun hökuməti 26 iyul çevrilişindən sonra həbsdə olan devrilmiş prezident Muhəmməd Bazumu “heç vaxt azad etməyəcək”. “Məhz blokadada olanlara görə ərzaq və dərman təchizatı dayandırılıb. İşıq da kəsilib, vəsaitimiz dondurulub. Bu səbəbdən də, Saheldəki dostlarımızla məsləhətləşdik və razılaşdıq ki, xarici ölkələrin tabeliyində olan bir təşkilatdan çıxmalıyıq. Ona görə də biz blokdan çıxdıq və bu məsələyə bir daha qayıtmayacağıq”. Çiani, həmçinin bildirib ki, onlar “heç vaxt Bazumini buraxmayacaqlar: “Bazuminin sərbəst buraxılması öz-özünün mədəsinə bıçaq vurmağa bə-

Nigerin dövlət başçısı valyutanın gələcəkdə mümkün dövriyyəsi haqqında ətraflı məlumat vermədən bildirir ki, bu yaxınlarda Sahel Dövlətləri Alyansını (SDA) yaradan üç ölkə "tam suverenliklərini bərpa etmək prosesində iştirak edirlər". Gələcəkdə yeni yaradılacaq valyuta hazırda Niger, Burkina-Faso və Malinin də daxil olduğu Qərbi Afrika İqtisadi və Valyuta İttifaqının (WAEMU) səkkiz üzv ölkəsinin ümumi valyutası olan CFA frankını əvəz edə bilər. Ötən ilin noyabrında üç ölkənin iqtisadiyyat və maliyyə nazirləri sabitləşdirmə fondu və qarşılıqlı investisiya bankının yaradılmasını tövsiyə ediblər. Üstəlik, general Çianinin bəyanatı Mali, Burkina-Faso və Nigerin Fransa tərəfindən istismar olunmaqda ittiham etdikləri Qərbi Afrika Dövlətlərinin İqtisadi Birliyindən (ECOWAS) çıxmasından iki həftə sonraya təsadüf edib.

Bundan əvvəl Burkina-Fasonun müvəqqəti prezidenti İbrahim Traore bildirmişdi ki, Qərbi Afrika Dövlətləri İqtisadi Birliyindən (ECOWAS) çıxdıqlarını elan edən Burkina-Faso, Mali və Niger CFA frankından istifadəni dayandıra bilər. Amma Malinin xarici işlər naziri Abdullaye Diop “Reuters” agentliyinə bildirmişdi ki, onun ölkəsi hazırda vahid valyuta kimi CFA frankından istifadə edən Qərbi Afrika İqtisadi və Valyuta İttifaqının (WAEMU) tərkibində qalacaq.

Yanvarın 28-də Mali, Niger və Burkina-Fasoda hakimiyyətdə olan hərbçilər regional təşkilatdan dərhal çıxdıqlarını elan edən birgə bəyanatla çıxış etdilər. CEDEAO onların tələbini yerinə yetirməkdən imtina ediyini bildirərək, üç çevriliş şurasından rəsmi bildiriş almadığını söylədi.

Üç Sahel ölkəsinin CEDEAO-dan uzaqlaşması əslində keçən il sentyabrın 16-da Mali, Niger və Burkina-Faso hərbi şuralarının Sahel Dövlətləri Alyansı (SDA) çərçivəsində bir araya gəldiyi zaman başlamışdı. Bu yaxınlarda Bamakoda görüşən üç ölkənin xarici işlər nazirləri bu koalisiyaya siyasi-diplomatik status təqdim edərək ona bitkin forma veriblər. Görüşdən sonra verilən birgə bəyanatda qeyd edilirdi ki, üç tərəf əlavə protokolların qəbul edilməsi, alyans üçün institusional və hüquqi qurumların yaradılması, “siyasət tədbirlərinin və diplomatik koordinasiyanın müəyyənləşdirilməsi” üzərində işləyir. AES əvvəldən üsyançı və ya cihadçı terrorçu qruplarla mübarizə aparmaq üçün hərbi resurslarını birləşdirməyə qərar verən Mali, Niger və Burkina-Faso arasında müdafiə paktı kimi ortaya çıxdı. Bununla belə, üç ölkə indi daha da irəli getmək və hələ də Fransa və onun Qərb müttəfiqlərinin nəzarətində olan bir təşkilat olan CEDEAO-nu balanslaşdıracaq real iqtisadi və siyasi birlik yaratmaq niyyətindədir.

Rusiyalı iqtisadçı Maksim Çirkov bildirib ki, 3 ölkənin ECOWAS-dan çıxması Qərb dövlətlərinin qitədəki təsirinin ciddi şəkildə itirilməsindən xəbər verir. Onun sözlərinə görə, Afrika ölkələri uzun müddət Qərb ölkələrinin müstəmləkəsi olmasalar da, onları nəzarətdə saxlayıblar.

“Qara qitə”nin üsyankar hakimiyyətlərinin tam müstəqil olmaq istəyi Aİ-nin xarici siyasət və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Josep Borrelli də ciddi narahat edirdi. Aydın məsələdir ki, Avropanın, xüsusən də Fransanın bu qitədəki talançılığı sona yaxınlaşdıqca, onların isterik reaksiyaları daha aydın anlaşılır.

Nigerin rəhbəri general Çiani son mətbuat konfransında Fransa rəhbərliyini və bu ölkənin xüsusi xidmət orqanlarını ölkəsində vəziyyəti gərginləşdirmək üçün terrorçu qruplaşmalardan istifadə etməkdə də açıq ittiham edib.

Qəribədir ki, Fransa öz hərbi bazalarını Afrikada “terrorizmlə mübarizə” bəhanəsi ilə orada yerləşdirib. Əsl həqiqətdə isə bu bazalar terror infrastrukturunu təşkil edir, onlara təlimlər və təlimatlar verir və onların köməyi ilə Fransanı qitədən qovub suverenliklərini qaytarmaq istəyən ölkələrin qarşısını almaq üçün bölgədə terrorçuların xidmətindən istifadə edirlər. İndi isə çevriliş etmiş yerli hərbçilər fəxr edirlər ki, onlar Fransanı öz torpaqlarından qovmağa müvəffəq olublar.

Fransa rejimi tərəfindən terrorçu dəstələr yaratmaq və qətlləri maliyyələşdirmək ittihamları, əlbəttə ki, Makronun bir neçə ömürlük həbs cəzası alması üçün kifayət edə bilər. Lakin heyf ki, Beynəlxalq Cinayət Məhkəməsi özəl olaraq həmin terrorçulara məxsusdur və onlar isə, təbii ki, “özlərini günahlandıra bilməzlər...”

***İlqar RÜSTƏMOV***
***XQ***

Münxen Təhlükəsizlik Konfransı

# 60 yaşlı forumda dünya dincliyə təminat axtarır

**Münxen Təhlükəsizlik Konfransı işə başlayıb. 150-dən çox dünya lideri qlobal təhlükəsizlik məsələlərini müzakirə etmək üçün Almaniyaya toplaşıb. Konfransda bir sıra aktual məsələlər, o cümlədən təhlükəsizlik və müdafiə sahəsində Avropanın rolu, qlobal nizama yeni baxış, iqlim dəyişikliyinin nəticələri, texnoloji tərəqqi və digər məsələlər müzakirə olunacaq. Ukraynaya kömək də konfransda müzakirə ediləcək. Forum çərçivəsində dünyanı narahat edən məsələləri müzakirə etmək üçün qarşı tərəfin xahişi ilə Prezident İlham Əliyev də Münxenə səfərə gedib.**



Fevral 16-da dünyanın ən nüfuzlu xarici siyasət və müdafiə forumlarından biri olan və bu il 60 illik yubileyini qeyd edən Münxen Təhlükəsizlik Konfransı öz işinə başlayıb. Forumun əsas müzakirə sənədi Münxen Təhlükəsizlik hesabatıdır. Bu il hesabat “Lose-Liose?” adlanır ki, onu da “Hamı uduzacaq?” kimi tərcümə etmək olar. Sənədin məzmunu, artıq adından da göründüyü kimi, çox bədbindir. Gündəlikdə qlobal təhlükəsizlik böhranı, silahlı münaqişələr, miqrasiya problemləri, iqlim və yeni texnologiyaların inkişafı var. Konfransın rəhbəri Kristof Hoysqenin sözlərinə görə, hazırkı hesabat “geosiyasi gərginlik və iqtisadi qeyri-müəyyənliyin artması ilə qeyd olunan dünya siyasətində azalma tendensiyasını əks etdirir”. Ölkələr daha az əməkdaşlığa və yalnız öz maraqlarına hörmət etməyə daha çox meyllidirlər, buna görə də mövcud böhranların əksəriyyətində iştirak edən bütün tərəflər uduzur və siyasi qeyri-müəyyənlik artır.

Hesabatda aşağıdakı mövzular vurğulanır ki, Rusiya–Ukrayna müharibəsi, Avropadan öz müdafiəsinə və Ukraynaya dəstək üçün maliyyə və səylər sərf etməyi tələb edir. Eyni zamanda Hind-Sakit okean regionunda artan gərginlik, xüsusən söhbət Çinin təsirindən gedir. Bundan başqa, hesabatda Yaxın Şərqdə zorakılığın artması, bölgədə müharibənin genişlənməsi ehtimalı ilə bağlı narahatlıqlar, o cümlədən Afrika ölkələrində bir sıra dövlət çevrilişləri, humanitar böhrana səbəb olan Sudan müharibəsi, habelə Qlobal Cənub ölkələri ilə əməkdaşlıq, yeni iqlim siyasəti və texnologiyanın inkişafı – strateji texnologiyalarda rəqabət (süni intellekt, yarımkeçiricilər) kimi mövzular öz əksini tapıb.

Bu il konfransda Qlobal Cənub ölkələrindən daha çox nümayəndə iştirak edəcək və onlarla müzakirələr aparılacaq. Latın Amerikası və Cənub-Şərqi Asiyadan, əvvəlki illərdə kifayət qədər təmsil olunmayan bölgələrin nümayəndələrinin iştirakı gözlənilir. Konfransın rəhbəri Kristof Hoysqerin sözlərinə görə, yüksək çinli məmurların da iştirakını gözləyirlər. Qeyd edək ki, ötən il foruma Çin Xalq Respublikasının xarici işlər naziri Van İ də gəlmişdi. Amma təşkilatçılar Rusiya və İran hakimiyyətinin nümayəndələrini foruma dəvət etməyiblər. K.Hoysqer bunu onunla izah edib ki, Rusiya və İran rəsmiləri danışıqlara ciddi maraq göstərməyiblər. Lakin hər iki ölkədən qeyri-hökumət təşkilatları dəvət alıb.

Ukraynaya kömək etmək konfransın əsas müzakirə mövzularından biri olacaq. Tədbir çərçivəsində Almaniya və Ukrayna arasında təhlükəsizlik sahəsində əməkdaşlığın gücləndirilməsinə dair saziş bağlanıb. Razılaşmanı Ukrayna prezidenti Vladimir Zelenski və Almaniya kansleri Olaf Şolts imzalayıb. Əvvəllər Ukrayna ilə Böyük Britaniya arasında oxşar saziş bağlanıb. Burada söhbət təhlükəsizlik təminatından getmir: Kiyev və London arasında razılaşma tərəflərdən heç birini digər tərəf üçün mübarizə aparmağa məcbur etmir. Bununla belə, o, hərbi yardımın göstərilməsini (o cümlədən silah və texnikanın tədarükü, hərbi və tibbi personalın təlimi), kəşfiyyat məlumatlarının mübadiləsini, kibertəhlükələrə qarşı birgə mübarizəni və təhlükəsizlik sahəsində əməkdaşlığın digər formatlarını rəsmiləşdirir.

Hesabatda, həmçinin qeyd olunur ki, Avropa İttifaqı və NATO üzvlük yolunda olan ölkələrə fəal dəstək verməlidir. NATO müttəfiqləri, lazım gələrsə, üzvlüyə qədər aralıq ikitərəfli təhlükəsizlik zəmanətləri təqdim etməlidirlər. Yanvarın 17-də Fransa prezidenti Emmanuel Makron bəyan etmişdi ki, Fransa da Ukrayna ilə ikitərəfli təhlükəsizlik zəmanəti müqaviləsi imzalayacaq.

Azərbaycan Prezidenti İlham Əliyev də Münxendədir və konfrans təşkilatçılarının xahişi ilə Almaniyaya səfərə gedib. Dövlət başçımızın belə bir mühüm tədbirə dəvət olunması, əlbəttə ki, Azərbaycanın artan nüfuzundan xəbər verir. Azərbaycan ikitərəfli formatda əməkdaşlığın tərəfdarıdır və xarici siyasətimiz bərabərhüquqlu münasibətlərə, bir-birinə hörmət, xoş münasibət, daxili işlərə qarışmamaq prinsiplərinə söykənir. Bütün ölkələrlə ikitərəfli münasibətlərimiz müsbət, qarşılıqlı hörmət və etimada əsaslanır.

***S.MƏMMƏDOV***
***XQ***

# Məşhur fransız jurnalisti sovet casusu olub

**Həftəlik “L'Express” qəzetinin keçmiş baş redaktoru və naşiri, məşhur fransız jurnalisti Filip Qrumbaxın (1924-2003) sovet kəşfiyyatı ilə 35 il əməkdaşlıq etdiyini üzə çıxaran araşdırma məqaləsi dərc olunub.**



Filip Qrumbaxın gizli həyatından bəhs edən faktlar bu yaxınlarda Mitroxin arxivinin sənədləri arasından tapılıb. Vasili Mitroxin keçmiş SSRİ Dövlət Təhlükəsizliyi Komitəsinin Birinci Baş İdarəsinin arxiv şöbəsinin əməkdaşı olub və sovet kəşfiyyatının gizli sənədlərinin bir çox nüsxəsini də məhz o, Qərbə ötürüb. Kembricdəki (Böyük Britaniya) Çörçill Kollecində saxlanılan bu arxiv üzrə araşdırmalar 1990-cı illərdə başlamış və tədricən ictimaiyyətə açıqlanmış, sovet kəşfiyyatının Avropa ölkələrində, xüsusən də Fransada fəaliyyətinin kifayət qədər dolğun mənzərəsini yaratmağa kömək edir. Filip Qrumbaxın adı sənədlərdə həm öz adı ilə, həm də Brok əməliyyat təxəllüsü ilə qeyd olunub.

O, 1946-cı ildə kəşfiyyat tərəfindən ələ alınıb və o vaxtdan jurnalist kimi fəaliyyətindən və siyasi dairələrdə sıx əlaqələrdən maksimum yararlanaraq, nəinki məlumat toplayıb SSRİ-yə ötürüb, həm də lazımi insanlar vasitəsilə Fransa siyasətinə təsir göstərməyə çalışıb. İşğal zamanı “Amerikanın səsi” radiosunda işləyən parisli Fransa azad edildikdən sonra AFP, “Liberation”, “L'Express” və “Le Figaro” kimi mətbuat orqanlarında parlaq jurnalist karyerası qurub. O, həmçinin özünün həftəlik nəşri olan Pariskopu (1965) yaradıb. Çoxsaylı komissiyalarda və dövlət şuralarında fəaliyyət göstərib. Film prodüseri olub, xüsusən də 1982-ci ildə Klod Şabrolun “Papaqçının xəyalları” filmini yayımlayıb, – serial əsil simasını gizlədən qatildən bəhs edirdi. Eyni ikili həyatı Filip Qrumbaxın özü də yaşayırdı.

Çox sevilən və hörmət edilən, “jurnalistikanın aristokratı” adlandırılan F.Qrumbax iki prezidentin – Valeri Jiskar d'Esten və Fransua Mitteranın qeyri-rəsmi etibarlı nümayəndəsi və müşaviri olub.

Filip Qrumbax ömrünün sonuna qədər bütün şübhələrdən kənarda qalmağı bacarıb. O, 79 yaşında Parisdə vəfat edib. Həmin dövrdə mədəniyyət naziri olmuş Jan-Jak Ayaqon vida nitqində “Fransız jurnalistikasının ən görkəmli və ən hörmətli simalarından biri” deyə ona təriflər yağdırıb. İndi isə onun bioqrafiyası yenidən yazmağa başlayıblar. Məsələn, “L'Express”in hazırkı baş redaktoru Etyen Girard redaksiya məqaləsində keçmiş həmkarını “V Respublikada əsas sovet casuslarından biri” adlandırıb.

***S.ELAY***
***XQ***


# B İ L D İ R İ Ş

Ləğv prosesində olan Azərbaycan Respublikası Dövlət Sığorta Kommersiya Şirkətinin kreditorlarının tələblərinin bildirilməsi qaydası və müddəti açıqlanmışdır.

Azərbaycan Respublikası Prezidentinin 31 yanvar 2024-cü il tarixli Fərmanı ilə Azərbaycan Respublikası Dövlət Sığorta Kommersiya Şirkəti ləğv edilmişdir. Şirkətin ləğvi ilə bağlı Azərbaycan Respublikası Nazirlər Kabinetinin 6 fevral 2024-cü il tarixli Sərəncamının icrası üçün Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Azərbaycan İnvestisiya Holdinqinin nümayəndələrindən ibarət ləğvetmə komissiyası yaradılmışdır.

Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin 14 fevral 2024-cü il tarixli Qərarı ilə şirkətin sığorta fəaliyyətinə verilmiş lisenziyası ləğv olunmuş və ləğvetmə komissiyası öz fəaliyyətinə başlamışdır.

Kreditorlardan cari il aprelin 17-dək tələblərini şirkətin baş ofisinə (Bakı şəhəri, Nərimanov rayonu, Qarabağ küçəsi 31 nömrəli ünvanda) bildirmələri xahiş olunur. Həmin tələblərə aşağıdakı sənədlər əlavə edilir:

- kreditorun yazılı müraciəti (tələbin məzmunu və məbləği göstərilməklə);
- kreditorun tələbinə əsas verən sənədlərin surətləri.



## “Bakı Beynəlxalq Dəniz Ticarət Limanı” Qapalı Səhmdar Cəmiyyəti

dəftərxana (ofis) mallarının satın alınması məqsədilə

## MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.portofbaku.com səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Zərflərin təqdim edilməsi üçün son tarix 1 mart 2024-cü il saat 17.00-dəkdir. Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu: +994 12 599 00 03 (daxili 3704).

Ünvan- AZ1010, Bakı şəhəri, Nəsimi rayonu, Ü.Hacıbəyov küçəsi 140.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 36 (30440) 17 fevral 2024-cü il, şənbə

# Braqada “Qarabağ” dərsi

## Əhsən, “Qarabağ”, sənə zəfər yaraşır!

(ekrandan izlənən futbola özəl reportaj)

**Fevralın 15-dən 16-na keçən gecə “Qarabağ” futbol klubu Azərbaycanın fanatlarına və ümumən, ölkəyə qürur yaşatdı desək, bəlkə də az olar. Azərbaycandakı qızğın futbol azarkeşləri gecəyarısı ekran qarşısında bir nəfər kimi “Qarabağ”ın təəssübünü çəkirdilər. Zarafat deyil, komanda ilk dəfə idi ki, avrokubokların “pley-off” mərhələsində oynayırdı. Mən də ilk dəfə idi ki, bütün həmvətənlərimiz kimi, Azərbaycan futbolunun bu uğurundan inanılmaz bir həyəcan və sevinc yaşayırdım.**




Etiraf edim ki, ilk dəqiqələrdən içimdə “Qarabağ”ın qələbəsinə çox kiçik bir ümid işartısı olsa da, əminlik yox idi. Amma çox istəyirdim ki, komandamız qələbə qazansın və “Qarabağ” Qarabağ zəfərimizə yaraşan bir oyun nümayiş etdirsin. Beləliklə, oyun başladı...

Avropa liqasının 1/16 final mərhələsinin ilk oyununda Portuqaliya çempionatının dördüncü komandası Azərbaycan çempionatının şəksiz liderini qəbul edirdi. Əlbəttə, bu çempionatların səviyyəsini müqayisə etmək mümkün olmadığından bütün “bukmeker” kontorları qarşıdurmada meydan sahiblərini favorit hesab edirdilər. Zarafat deyildi, UEFA çempionlar liqasında Madridin “Real”, İtaliyanın “Napoli” və Berlinin “Union” nəhəngləri ilə bir qrupda mübarizə aparan “Braqa” bu mərhələni üçüncü yerdə başa vurmuşdu.

Komandalar haqqında bütün statistika “Braqa”nın tam üstünlüyünü nümayiş etdirirdi. Elə birinci hissədə üstünlük də “Braqa”nın tərəfində idi. Statistikaya görə, çərçivəyə beş zərbə vuran braqalılar xG baxımından 1,57 top qazanırdılar. Ev sahibləri artıq qarşılaşmanın debütündə hesabı aça bilərdilər, lakin “Qarabağ”ın qolkiperi Lunyov rəqib Calonun qapının sol küncünə endirdiyi zərbəni əla “seyv” ilə dəf edə bildi. Qarşılaşmanın 45-ci dəqiqəsinə qədər ev sahibləri Lunyovun qapısına qol vura bilmədilər. “Qarabağ” isə 45 dəqiqə ərzində yalnız 11 metrlik cərimə zərbəsi ilə hesabı açdı. Matçın 20-ci dəqiqəsində “Braqa”nın cərimə meydançasındakı duel Qomeşin Cəfərquliyevə qarşı kobudluq etməsi ilə başa çatdı və monteneqrolu Yankoviç penaltini qola çevirdi. Elə buradaca qeyd edim ki, əzmkar oyunu ilə ən çox diqqət çəkən “qarabağlı” da məhz Yankoviç idi.

Adama elə gəlirdi ki, matçın birinci hissəsi elə bu hesabla da başa çatacaq. Lakin protuqaliyalılar soyunub-geyinmə otağına hesabı bərabərləşdirərək getməyi bacardılar. 44-cü dəqiqədə braqalı Niakatenın baş zərbəsini Yankoviç dəf etsə də, geri qayıdan topu Simon Banza tora qovuşdurmağı bacardı – 1:1.

“Qarabağ”ın qapıçısı nə qədər əzmkar oyun nümayiş etdirsə də, onun səhvsiz oynadığını söyləmək doğru olmazdı. Bir neçə epizodda Lunyov üzərinə gələn topu tutmaq əvəzinə, geri qaytardı və təhlükəli vəziyyətə imkan yaratdı. Ev sahiblərinin qol epizodunda isə qapıdan çox inamsız çıxdı, geri qayıtmaq isə artıq gec oldu.

Birinci hissə 1:1 hesabı ilə başa çatsa da, “Qarabağ”ın cəsarətli oyunu bu matçda onun uğuruna olan ümidləri artırdı. Fasilədən sonra komandamız topla daha yaxşı davranmağı və rəqibi əks-hücumlarla çətin vəziyyətə salmağı bacardı. Qurban Qurbanovun yetirmələri rəqibin səhvlərini güzəştə getmədilər və portuqaliyalıları çox mükəmməl cəzalandırdılar. Əslində, futbolçularımız ikinci qolu da bir az bəxtsiz vurdular. Matçın 54-cü dəqiqəsində Yassin Benziyanın cərimə meydançasının 20 metrliyindən endirdiyi qüvvətli cərimə zərbəsindən sonra top canlı səddi keçib Abdulla Zubirin ayağına düşdü: “ofsayd” həddində olan fransalıya ancaq qapıçını aldatmaq və şansı əldən verməmək qalırdı ki, bunu da məharətlə edə bildi – 1:2.



Bu, “Braqa” üçün əsl nokdaun idi. Amma Kriştiano Ronaldonun həmyerlilərinin nokauta düşməsinə elə də çox vaxt lazım gəlmədi. "Qarabağ" ikinci hissənin ortalarında 4 dəqiqə ərzində daha iki zərbə ilə meydan sahiblərini nokauta saldı. 64-cü dəqiqədə komanda çox əla və sürətli əks-hücuma keçdi. Əvvəlcə həmin fransalı Zubir mərkəzdən komanda yoldaşı Juninyoya çox ideal ara ötürməsi etdi. Braziliyalı əla texnika nümayiş etdirərək rəqibin 2 müdafiəçisini pat vəziyyətdə qoydu və topu tora qovuşdurdu. Şübhə yarandığından epizod VAR tərəfindən yoxlanıldı. Yox, “ofsayd” yox idi – hakim qolun düzgün vurulduğunu bildirən jestlə meydanın mərkəzini göstərdi– 1:3

“Qarabağ”ın ifasında bu əla futbol tamaşasını “MatçTV” kanalında izləyirdim deyə, futbol icmalçısının komandamız haqqında səmimi və heyranlıqla danışması məni daha da qürurlandırırdı. Şərhçi oyun öncəsi mətbuat konfransında baş məşqçimiz Qurban Qurbanovun Braziliyadan olan futbolçular haqqında fikirlərini səsləndirdi. Məşqçimiz demişdi: “Oyunçularım topla necə oynamağı və onu hiss etməyi bilirlər. Texniki cəhətdən yaxşıdırlar. “Qarabağ”da həmişə braziliyalılar olub və onların böyük faizi əvvəllər Portuqaliyada oynayıblar. Onlar Avropa mentalitetinə mükəmməl uyğunlaşıblar. Bu oyunçuları almaqla onların mədəniyyətinə hörmət edirəm”.

İcmalçı bu sözləri yenicə söyləmişdi ki, dərhal komandamızın növbəti qolu vurmasını daha uca səslə elan etdi. Bu yenə mərakeş əsilli fransalı Zubir idi. 69-cu dəqiqədə meydanın mərkəz nöqtəsindən sürət götürən “Qarabağ” oyunçuları dördün-dördə əks-hücum təşkil etdilər. Meydana yenicə çıxmış Tural Bayramov qövsvari ötürmə etdi və fransız futbolçu lazımi anda topu uzaq dirəkdə qarşıladı. Qol, top qapıdadır –1:4.

Braqada “Qarabağ” dərsi baş məşqçi Artur Xorxeni necə çaşqın vəziyyətə salmışdısa, nə baş verdiyini anlaya bilmirdi. Portuqaliya klubunun oyunçuları da eyni vəziyyətdə idilər.

Yalnız oyunun sonuna yaxın braqalılar bir topun əvəzini çıxa bildilər. Futbolçumuz Barriosun 91-ci dəqiqədə cərimə meydançasında ehtiyatsız oyunundan sonra hakim 11 metrlik nöqtəni göstərdi. Təcrübəli Mautinyo cərimə zərbəsini qola çevirə bildi. Bu, ev sahibləri üçün yüngül təsəllidən başqa bir şey deyildi.

Beləcə, “Qarabağ” Avropa kubokunda günün əsas sensasiyasına imza atdı. Braqanın “Munsipal-di-Braqa” stadionunda “Qarabağ”ın keçdiyi futbol dərsini artıq bütün portuqaliyalı tamaşaçılar sükut içində izləyirdilər. Qonşu tribunada əllərində üçrəngli Azərbaycan bayrağını çoşqu ilə dalğalandıran, təqribən, 100-ə yaxın azərbaycanlı azarkeşin aramsız hayqırtısı isə bu sükutu pozan yeganə sevinc sədaları idi:

*“Qa-ra-bağ, Qa-ra-bağ, Qa-ra-bağ...”*
*Afərin, “Qarabağ”, sənə zəfər yaraşır!*

**İlqar ÇAYRUDLU**
**XQ**

## Azərbaycanlı rəssam Paris sərgisində



**Parisdə “Grand Palais Ephemere”də (Böyük Saray) beynəlxalq “ART EN CAPITAL 2024” müasir incəsənət sərgisi açılıb.**



Tanınmış Azərbaycan rəssamı Vidadi Nərimanbəyovun işinin davamçısı olan rəssam soydaşımızın da sərgidə əsərləri nümayiş olunur. Artıq 3 ildir bu sərgidə iştirak edən N.Nərimanbəyova bu il digər əsərləri ilə bərabər, nəvəsinə həsr etdiyi “Tariel - balaca Harri Potter” adlı yeni rəsmi də təqdim edib.

Qeyd edək ki, N.Nərimanbəyova 2016-cı ildə Fransa Milli Mədəniyyət Federasiyası Müstəqil Fransa Rəssamlarının məşhur “Payız Salonu”nun “TOILE D'OR” ali mükafatına layiq görülüb.

Beynəlxalq “ART EN CAPITAL 2024” müasir incəsənət sərgisində nümayiş olunan əsərlər Fransa Rəssamlıq Akademiyasının üzvlərindən ibarət böyük münsiflər heyəti tərəfindən seçilib. Bu, ən nüfuzlu peşəkar incəsənət sərgisidir.

**XQ**

Sağlamlıq

## Əllə yazarsan – cavan qalarsan

**Alimlər əllə yazı yazmağın, gözəl xəttin beyin üçün faydalı olduğunu sübut ediblər. Skandinaviya alimləri apardıqları elmi tədqiqatlarla əllə yazı yazmağın beyinin işinə təsirini öyrəniblər. 40 tələbə EEQ (elektroensefaloqramma) aparatına qoşulub və onlara qələmlə yazmaq və ya çap etmək tapşırığı verilib.**



EEQ ilə 2 yazı formasına beyinin necə reaksiya verməsi izlənilib. Alimlər bildiriblər ki, əllə yazmaq beyini lazımsız informasiyanı blok etməyə, eləcə də diqqəti bir yerə cəmləməyə məcbur edir. Klaviaturada çap etməkdən başqa, əllə istənilən formada yazmaq beyin köklərini aktiv işləməyə, vizual və hərəkət funksiyasını artırır.

Klaviatura, ekran, qaçan sətirlər beyində düşünmə və diqqətdən yayınmalar yaradır, amma kağızda belə olmur. Yaradıcılıq, imtahan yazıları üçün əllə yazmaq daha faydalıdır, bu zaman fikir dağılmır və beyinə əlavə siqnal gəlmir.

Eləcə də yazı yazmaq, gözəl xətlə yazmaq beyini məşq etdirir, nəticədə bu, insanın cavan qalmasına səbəb olur.

***Z.HÜSEYNLİ***
***XQ***



## “Apple Vision Pro” – ağıllı eynək

**“Apple” şirkətinin istehsal etdiyi yeni “Apple Vision Pro” eynəyi bir sıra təhlükəsizlik və istifadə problemləri ilə üzləşib. Hazırkı versiyasında cihazın çəkisi və istifadəsi ilə bağlı bəzi çatışmazlıqlar olduğu bildirilir. Müzakirələrin mərkəzində olan yeni məhsulun tam təkmilləşdirilməsi bir qədər vaxt apara bilər.**

“Apple” işçiləri də düşünürlər ki, cihazın daha yaxşı vəziyyətdə olması üçün o, azı, 4 nəsil istehsal edilməlidir.

Qeyd edək ki, yeni virtual qulaqlığa malik “Apple Vision Pro” bu günlərdə buraxılıb.

**FİDAN**
**XQ**

Hava

## Arabir yağıntılı və dumanlı olacaq



**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən fevralın 17-də Bakıda və Abşeron yarımadasında gün ərzində bəzi yerlərdə arabir yağıntılı olacağı, gündüz yağıntıda fasilə olacağı gözlənilir.**

Gecə və axşam bəzi yerlərdə yağışın qısa müddətə sulu qara keçəcəyi ehtimalı var. Mülayim şimal-şərq küləyi əsəcək. Gecə 1-3°, gündüz 3-5° isti olacaq. Atmosfer təzyiqi normadan yüksək 769 mm civə sütunu, nisbi rütubət 70-80 faiz olacaq. Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağıntılı olacağı, dağlıq və dağətəyi ərazilərdə qar yağacağı gözlənilir. Arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 1-5°, gündüz 5-9° isti, dağlarda gecə 3-8°, gündüz 0-3° şaxta olacaq.

***Q. QASIMOV***
***XQ***

**ALLAH RƏHMƏT ELƏSİN**

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Dövlət nəzarəti məsələləri şöbəsinin kollektivi iş yoldaşları Türkan Qurbanzadəyə babası

**ƏLİ TAĞIYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

İNDEKS 0282
TİRAJ 3590
SİFARİŞ 345
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Səbuhi MƏMMƏDOV

Çapa imzalanmışdır
00:00